Xalqın qəzeti!

# Xalq qəzeti

№ 152 (30846) 25 iyul 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Azərbaycan maliyyə sabitliyi məkanıdır

*Yoxsulluq arxada qalıb, xarici borc ən aşağı həddədir*



**Maliyyə Nazirliyinin ölkəmizin xarici borcu ilə bağlı operativ məlumatına əsasən, cari ilin birinci yarısında dövlət büdcəsinin dövlət borcuna xidmət xərclərindən daxili borc üzrə 328,7 milyon manat (faiz borcu üzrə), xarici borc üzrə 698,8 milyon manat olmaqla (əsas borc üzrə 498,5 milyon manat, faiz borcu üzrə 200,3 milyon manat), ümumilikdə, 1 milyard 27,5 milyon manatın ödənilməsi gerçəkləşdirilib.**

Xarici borclanma hesabına icrası reallaşdırılan layihələr çərçivəsində vəsaitin istifadəsi üzrə təqdim edilən operativ məlumatlar və xarici dövlət borcu üzrə əsas borc ödənişləri nəzərə alınmaqla, 2025-ci il 1 iyul tarixinə xarici dövlət borcunun səviyyəsi 5 milyard 10,7 milyon dollar təşkil edib. Operativ məlumatlara əsasən, daxili dövlət borcunun səviyyəsi 2025-ci il 1 iyul tarixinə 17 milyard 177,4 milyon manata (cari il üzrə proqnozlaşdırılan ÜDM-in 13,1 faizi) çatıb.

*(ardı 8-ci səhifədə)*

## Qanuni nikah xalqımızın sağlam gələcəyini sığortalayır



səhifə ⇨ 9

## Tailand – Kamboca münaqişəsi alovlandı



səhifə ⇨ 11

## Prezidentin media prioriteti: strateji maraqlar və peşəkarlıq

**Prezident İlham Əliyevin milli mətbuatımızın 150 illiyi münasibətilə Azərbaycanın media nümayəndələrinə müraciəti jurnalistikanın daha dinamik fəaliyyət göstərməsinin vacibliyinə dair əlahiddə çağırışdır. Yazımızda bu barədə söz açacaq, bəzi xarakterik məqamların üzərində dayanacağıq.**




Əvvəla onu deyək ki, dövlətimizin başçısı iyulun 19-da III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü zamanı da mediamıza yüksək dəyərini ifadə etdi və bu sahədəki inkişafı qiymətləndirdi, ən başlıcası isə məmnunluğunu dilə gətirdi: "Azərbaycan mediasının inkişafı məni çox sevindirir. Çox şadam ki, bu gün bizim mediamız nəinki ölkə daxilində, hətta beynəlxalq müstəvidə çox böyük nüfuz qazanıb və bunu tam səmimiyyətlə deyirəm".

*(ardı 5-ci səhifədə)*

## ABŞ konqresmenlərinin anti-Azərbaycan isterikası...



səhifə ⇨ 6

## III Şuşa Qlobal Media Forumu: Yeni dövrün iqtisadi manifesti




səhifə ⇨ 7

## İkili standartlar və yeni kolonial direniş



səhifə ⇨ 4

## Amerika Erməni Assambleyası sülhə qarşı



səhifə ⇨ 4

## Qərbin insan haqlarına ikili baxışı



səhifə ⇨ 6

## Azərbaycan Respublikası ali təhsil müəssisələrinin tələbələri üçün Prezident təqaüdünün məbləğinin artırılması və "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 dekabr tarixli 419 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

**1** Azərbaycan Respublikası ali təhsil müəssisələrinin tələbələri üçün Prezident təqaüdünün məbləği 2025-ci il sentyabrın 1-dən 350 (üç yüz əlli) manat müəyyən edilsin.

**2** "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 579 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. adında "Respublikasının ali məktəb" sözləri "Respublikası ali təhsil müəssisələrinin" sözləri ilə əvəz edilsin;

2.2. 1-ci hissədə "məktəblərinə" sözü "təhsil müəssisələrinə" sözləri ilə, "275 (iki yüz yetmiş beş)" sözləri "350 (üç yüz əlli)" sözləri ilə əvəz edilsin.

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**4** Bu Fərmanın 2-ci hissəsi 2025-ci il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 iyul 2025-ci il**

## Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı məqsədilə tikinti obyektlərinin inşasına və quraşdırılmasına tikintiyə icazə icraatı çərçivəsində verilən rəylərin əhatə dairəsinin müəyyən edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1194-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 30 iyul tarixli 164 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1** Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı məqsədilə tikinti obyektlərinin (bundan sonra – tikinti obyekti) inşasına və quraşdırılmasına tikintiyə icazə icraatı çərçivəsində verilən rəylərin əhatə dairəsi Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 dekabr tarixli 460 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bəzi tikinti obyektlərinə tikintiyə icazə və tikinti obyektinin istismarına icazə verilməsi Qaydası"nın 3.5.1-ci yarımbəndi nəzərə alınmaqla aşağıdakı kimi müəyyən edilsin:

1.1. tikinti obyektinin torpaq sahəsində torpaqların keyfiyyət göstəricilərinə uyğun yerləşdirilməsi və həmin torpaq sahəsində digər tikililər mövcud olduğu halda təmərküzləşmə prinsipinin nəzərə alınması;

1.2. tikinti obyektinin bəyan edilən kənd təsərrüfatı fəaliyyəti üçün istifadəyə yararlılığının qiymətləndirilməsi.

**2** Tikintiyə icazə verən orqan tikintiyə icazə icraatı zamanı hər bir tikinti obyektinin funksional təyinatı və xüsusiyyətləri nəzərə alınmaqla, bu Fərmanın 1-ci hissəsinə və Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 75.5.2-ci maddəsinə uyğun olaraq, rəy verməsi zəruri hesab edilən aidiyyəti qurumlara sorğu göndərilməsini təmin etsin.

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 iyul 2025-ci il**

## Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan tələbələrə verilən təqaüdlərin məbləğinin artırılması və "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 fevral tarixli 961 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 dekabr tarixli 419 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

**1** Dövlət büdcəsinin vəsaiti hesabına doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan tələbələrə verilən təqaüdlərin məbləğləri 2025-ci il sentyabrın 1-dən aşağıdakı kimi müəyyən edilsin:

1.1. doktorantura səviyyəsi üzrə:

1.1.1. elmlər doktoru hazırlığı üzrə doktorantlara – 450 (dörd yüz əlli) manat;

1.1.2. fəlsəfə doktoru hazırlığı üzrə doktorantlara – 300 (üç yüz) manat;

1.2. ali təhsil müəssisələrində:

1.2.1. magistratura səviyyəsi üzrə:

1.2.1.1. akademik göstəriciləri 91–100 bal olan tələbələrə – 240 (iki yüz qırx) manat;

1.2.1.2. akademik göstəriciləri 71–100 bal olan tələbələrə – 180 (yüz səksən) manat;

1.2.1.3. akademik göstəriciləri 51–100 bal olan tələbələrə – 120 (yüz iyirmi) manat;

1.2.2. bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə:

1.2.2.1. akademik göstəriciləri 91–100 bal olan tələbələrə – 200 (iki yüz) manat;

1.2.2.2. akademik göstəriciləri 71–100 bal olan tələbələrə – 160 (yüz altmış) manat;

1.2.2.3. akademik göstəriciləri 51–100 bal olan tələbələrə – 110 (yüz on) manat;

1.3. orta ixtisas təhsili müəssisələrində:

1.3.1. akademik göstəriciləri 91–100 bal olan tələbələrə – 110 (yüz on) manat;

1.3.2. akademik göstəriciləri 71–100 bal olan tələbələrə – 90 (doxsan) manat;

1.3.3. akademik göstəriciləri 51–100 bal olan tələbələrə – 70 (yetmiş) manat;

1.4. peşə təhsili müəssisələrində:

1.4.1. akademik göstəriciləri "5" (yüksək texniki peşə təhsili səviyyəsində 91–100 bal) olan tələbələrə – 110 (yüz on) manat;

1.4.2. akademik göstəriciləri "4" və "5" (yüksək texniki peşə təhsili səviyyəsində 71–100 bal) olan tələbələrə – 90 (doxsan) manat;

1.4.3. akademik göstəriciləri "3"–"5" (yüksək texniki peşə təhsili səviyyəsində 51–100 bal) olan tələbələrə – 70 (yetmiş) manat.

**2** "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 fevral tarixli 961 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 291 (Cild I); 2024, № 4, maddə 390) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.1-ci bənd üzrə:

2.1.1. birinci abzasda "pilləsi" sözü "səviyyəsi" sözü ilə əvəz edilsin;

2.1.2. ikinci abzas 1.1.1-ci yarımbənd hesab olunsun və həmin yarımbənddə "400 (dörd yüz)" sözləri "450 (dörd yüz əlli)" sözləri ilə əvəz edilsin;

2.1.3. üçüncü abzas 1.1.2-ci yarımbənd hesab olunsun və həmin yarımbənddə "240 (iki yüz qırx)" sözləri "300 (üç yüz)" sözləri ilə əvəz edilsin;

2.2. 1.2-ci bənd üzrə:

2.2.1. ikinci və üçüncü abzaslar müvafiq olaraq 1.2.1-ci və 1.2.2-ci yarımbəndlər hesab edilsin;

2.2.2. dördüncü abzas 1.2.2.1-ci abzas hesab olunsun və həmin abzasda "195 (yüz doxsan beş)" sözləri "240 (iki yüz qırx)" sözləri ilə əvəz edilsin;

2.2.3. beşinci abzas 1.2.2.2-ci abzas hesab olunsun və həmin abzasda "160 (yüz altmış)" sözləri "180 (yüz səksən)" sözləri ilə əvəz edilsin;

2.2.4. altıncı abzas 1.2.2.3-cü abzas hesab olunsun və həmin abzasda "110 (yüz on)" sözləri "120 (yüz iyirmi)" sözləri ilə əvəz edilsin;

2.2.5. yeddinci abzas 1.2.3-cü yarımbənd hesab olunsun və həmin yarımbəndə "bakalavriat" sözündən sonra "(əsas (baza ali) tibb təhsili)" sözləri əlavə edilsin;

2.2.6. səkkizinci abzas 1.2.3.1-ci abzas hesab olunsun və həmin abzasda "175 (yüz yetmiş beş)" sözləri "200 (iki yüz)" sözləri ilə əvəz edilsin;

2.2.7. doqquzuncu abzas 1.2.3.2-ci abzas hesab olunsun və həmin abzasda "145 (yüz qırx beş)" sözləri "160 (yüz altmış)" sözləri ilə əvəz edilsin;

2.2.8. onuncu abzas 1.2.3.3-cü abzas hesab olunsun və həmin abzasda "100 (bir yüz)" sözləri "110 (yüz on)" sözləri ilə əvəz edilsin;

2.3. 1.3-cü bənd üzrə:

2.3.1. ikinci abzas 1.3.1-ci yarımbənd hesab olunsun və həmin yarımbənddə "100 (bir yüz)" sözləri "110 (yüz on)" sözləri ilə əvəz edilsin;

2.3.2. üçüncü abzas 1.3.2-ci yarımbənd hesab olunsun və həmin yarımbənddə "80 (səksən)" sözləri "90 (doxsan)" sözləri ilə əvəz edilsin;

2.3.3. dördüncü abzas 1.3.3-cü yarımbənd hesab olunsun və həmin yarımbənddə "66 (altmış altı)" sözləri "70 (yetmiş)" sözləri ilə əvəz edilsin;

2.4. 1.4-cü bənd üzrə:

2.4.1. ikinci abzas 1.4.1-ci yarımbənd hesab olunsun və həmin yarımbənddə "100 (bir yüz)" sözləri "110 (yüz on)" sözləri ilə əvəz edilsin;

2.4.2. üçüncü abzas 1.4.2-ci yarımbənd hesab olunsun və həmin yarımbənddə "80 (səksən)" sözləri "90 (doxsan)" sözləri ilə əvəz edilsin;

2.4.3. dördüncü abzas 1.4.3-cü yarımbənd hesab olunsun və həmin yarımbənddə "66 (altmış altı)" sözləri "70 (yetmiş)" sözləri ilə əvəz edilsin.

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**4** Bu Sərəncamın 2-ci hissəsi 2025-ci il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 iyul 2025-ci il**

## Rusiya Federasiyasının Prezidenti Zati-aliləri cənab Vladimir Putinə

**Hörmətli Vladimir Vladimiroviç!**

Amur vilayətində "An-24" sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı barədə xəbər məni dərindən kədərləndirdi.

Bu faciə ilə əlaqədar olaraq, şəxsən öz adımdan və Azərbaycan xalqı adından Sizə, həlak olanların ailə üzvlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 iyul 2025-ci il**

## İlham Əliyev Şavkat Mirziyoyevi təbrik edib



**İyulun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə zəng edib.**

Dövlətimizin başçısı Şavkat Mirziyoyevi ad günü münasibətilə təbrik edib, ona cansağlığı və fəaliyyətində yeni uğurlar arzulayıb.

Özbəkistan Prezidenti göstərilən diqqətə və təbrikə görə minnətdarlığını ifadə edib.

Azərbaycan və Özbəkistan prezidentləri yüksəksəviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin inkişafında roluna toxunublar. Bu xüsusda iyulun əvvəlində Şavkat Mirziyoyevin ölkəmizə dövlət səfəri çərçivəsində aparılmış səmərəli müzakirələr və imzalanmış sənədlər, həmçinin Özbəkistan Prezidentinin İqtisadi Əməkdaşlıq Təşkilatının Xankəndi şəhərində keçirilən Zirvə toplantısında iştirakı qeyd edilib.

Dövlət başçıları Azərbaycanla Özbəkistan arasında qardaşlıq, dostluq və müttəfiqlik əlaqələrinin gələcəkdə də bütün sahələrdə uğurlu inkişafına əminliklərini bildirib, ikitərəfli gündəliklə bağlı əməkdaşlığın perspektivlərini müzakirə ediblər.

***Prezidentin Mətbuat Xidməti***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında 2025-ci ilin avqust ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Baş nazirin birinci müavini<br>Eyyubov Yaqub Abdulla oğlu** | **1** |
| **Baş nazirin müavini<br>Mustafayev Şahin Abdulla oğlu** | **4** |
| **Baş nazirin müavini<br>Şərifov Samir Rauf oğlu** | **5** |
| **Aparatın rəhbəri<br>Məmmədov Rüfət Tofiq oğlu** | **6** |
| **İqtisadiyyat şöbəsinin müdiri<br>Həsənova Sevinc Telman qızı** | **7** |
| **Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri<br>Rüstəmli Ruslan Rüstəm oğlu** | **2** |
| **Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri<br>Paşayev Zakir İlqar oğlu** | **11, 26** |
| **Hüquq və qanunvericilik şöbəsinin müdiri<br>Qasımlı Xalid Akif oğlu** | **12, 27** |
| **Sosial məsələlər şöbəsinin müdiri<br>Rəhimov Niyazi Süleyman oğlu** | **13, 28** |
| **Humanitar məsələlər şöbəsinin müdiri<br>Həbibbəyli Ərəstü İsa oğlu** | **20** |
| **Sənaye və energetika şöbəsinin müdiri<br>Hacızadə Elşən Mahmud oğlu** | **5** |
| **Aqrar və ekologiya şöbəsinin müdiri<br>Qasımov Lətif Cəfər oğlu** | **18** |
| **Regionların inkişafı şöbəsinin müdiri<br>Məcidov İlkin Sabir oğlu** | **9** |
| **Tikinti, şəhərsalma və kommunal təsərrüfat şöbəsinin müdiri<br>Mustafayev Feyruz Rəvayət oğlu** | **14, 29** |
| **Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri<br>Pənahov Musa Sədi oğlu** | **2** |
| **Təhlükəsizlik, müdafiə və səfərbərlik şöbəsinin müdiri<br>Məmmədov Anar Rəhim oğlu** | **8, 25** |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Qəbul otağında qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Səbail rayonu, Lermontov küçəsi, 68.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: (012)492-19-23, (012)492-88-96.**

# Azərbaycan – Somali əməkdaşlığının perspektivləri müzakirə edilib



**İyulun 24-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə rəsmi səfərdə olan Somalinin xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Abdisalam Abdi Ali ilə görüşüb.**

Nazirlər arasında baş tutan təkbətək görüş daha sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib. Görüşdə Azərbaycan ilə Somali arasında ikitərəfli əməkdaşlığın cari vəziyyəti, inkişaf perspektivləri, eləcə də regional və beynəlxalq gündəmdə duran məsələlər müzakirə olunub. Son bir neçə il ərzində ölkələrimiz arasında təmasların intensivləşməsi, qarşılıqlı səfərlərin sayının artmasının məmnunluq doğurduğu qeyd edilib.

Ceyhun Bayramov Azərbaycan və Somali arasında əməkdaşlığın siyasi, iqtisadi, humanitar və digər sahələrdə daha da dərinləşdirilməsi üçün mövcud potensialdan istifadə olunmasının vacibliyini vurğulayıb. Kənd təsərrüfatı, balıqçılıq, neft və qaz sənayesi, yaşıl enerji, humanitar və təhsil sahələrində əməkdaşlığın genişləndirilməsi üçün əlverişli imkanların olduğu bildirilib.

Görüşdə Azərbaycan və Somali arasında ikitərəfli çərçivədəki münasibətlərlə yanaşı, çoxtərəfli beynəlxalq və regional platformalarda, xüsusilə Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın önəmi vurğulanıb. Bu xüsusda, Somalinin 2025–2026-cı illər üzrə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyü dövründə əməkdaşlığın təqdirəlayiq olduğu bildirilib və gələcəkdə də qarşılıqlı dəstəyə əsaslanan münasibətlərin davam etdiriləcəyinə əminlik ifadə olunub.

Sonra nazirlər birgə mətbuat konfransında çıxış ediblər.

*XQ*

# BMT katibliyi Prezident İlham Əliyevin müraciətini rəsmi sənəd kimi yayıb

**BMT katibliyi Prezident İlham Əliyevin 2025-ci il mayın 21-də Türkiyənin paytaxtı Ankara şəhərində "Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi" mövzusunda keçirilmiş beynəlxalq konfransın iştirakçılarına müraciətini və konfransın yekun sənədini BMT Təhlükəsizlik Şurası və Baş Assambleyasının rəsmi sənədləri kimi yayıb.**

İcmanın bununla bağlı bəyanatında deyilir: "Qərbi Azərbaycan məsələsini prinsipial və ardıcıl şəkildə beynəlxalq gündəmdə saxlayan Prezident İlham Əliyevin sözügedən müraciətinin BMT-nin rəsmi sənədi kimi yayılması insan hüquqları mövzusu olaraq Qərbi Azərbaycana qayıdış məsələsinə beynəlxalq dəstəyin artırılmasında mühüm rol oynayır.

Qərbi Azərbaycan İcması sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə qayıdış məsələsinə beynəlxalq aləmin dəstəyinin əldə olunması istiqamətində səylərini davam etdirəcək. İcma Ermənistan hökumətindən Ümumdünya İnsan Hüquqları Bəyannaməsi və digər müvafiq beynəlxalq konvensiyalarla üzərinə götürdüyü öhdəliklərinə uyğun olaraq, Qərbi azərbaycanlıların öz evlərinə qayıdışına şərait yaratmağı tələb edir".

# Somalili nazir Ulu öndərin məzarını ziyarət edib



**Ölkəmizdə səfərdə olan Somali Federativ Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Abdisalam Abdi Ali iyulun 24-də Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edib.**

Nazir əvvəlcə Fəxri xiyabana gələrək, ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla anıb, məzarı önünə əklil qoyub.

Sonra qonaq Şəhidlər xiyabanına gedərək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

*

Somalili Somalinin xarici işlər və beynəlxalq əməkdaşlıq naziri həmin gün Bakıdakı Zəfər parkını da ziyarət edib.

Burada qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Nazir parkdakı Zəfər abidəsinin önünə əklil qoyub.

## Xuntaçıların məhkəməsi

# Ermənistan hərbçilərinin işgəncə verdiyi və ziyan vurduğu şəxslərin ittihamı

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası iyulun 24-də davam etdirilib.**



Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında zərərçəkmiş şəxs Əhəd Əliyev ifadəsində 1990-cı il yanvarın 3-də Xocavənd rayonunun Axullu kəndində ermənilər tərəfindən girov götürüldüyünü, 6 gün döyüldüyünü, təhqir olunduğunu bildirib. Bəhman Məhərrəmov ifadəsində 1991-ci il sentyabrın 6-da Xankəndi şəhəri və Xocalı rayonu arasındakı Həsənabad kəndində Hüseyn Novruzov və Şahin Hüseynovla birlikdə ermənilər tərəfindən əsir götürüldüyünü, əsirlik müddətində işgəncələrə məruz qaldıqlarını qeyd edib.

Səfər Əliyev Cocuq Mərcanlı kəndində, Firdovsi Quliyev və Aydın Verdiyev Ağdamda minaya düşərək xəsarət aldıqlarını diqqətə çatdırıblar. Natiq Mamedov ifadəsində 2021-ci il noyabrın 29-da "Mirakl Dent" MMC-nin yük avtomobilinin sürücüsü qismində Cəbrayıl rayonunun



işğaldan azad olunmuş Mehdili kəndində minaya düşərək xəsarət aldığını söyləyib.

Şamistan Bayramov 2020-ci ildə baş vermiş 44 günlük müharibənin ilk günündə - sentyabrın 27-də yaşadığı Ağcabədi rayonunda həyətinə mərmi düşməsi nəticəsində xəsarət aldığını deyib. Faiq Abışov ifadəsində qardaşı Əmrah Abışovun Vətən müharibəsində şəhid olduğu ərazini görmək üçün gedərkən minaya düşdüyünü, nəticədə xəsarət aldığını söyləyib.

İrşad Quliyev ifadəsində 2023-cü il sentyabrın 24-də Ağdamın Abdal kəndində minaya düşərək xəsarət aldığını bildirib. Zərərçəkmiş Yunis İsmayılov ifadəsində 2023-cü il sentyabrın 7-də Ağdərə istiqamətində döyüş tapşırığını yerinə yetirərkən minaya düşərək sağ ayağını itirdiyini qeyd edib. Şahbaz Hüseynov ifadəsində 1990-cı il yanvarın 10-da yaşadığı Xocavənd rayonunda girov götürüldüyünü, döyüldüyünü, işgəncələrə məruz qaldığını bildirib.

Dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandıran zərərçəkmiş Azər Quliyev ifadəsində 1993-cü ildə Kəlbəcərin işğalı zamanı ailəlikcə rayondan çıxan zaman "Tunel" adlandırılan ərazidə 7 güllə yarası alıb və girov götürülüb. Hadisə zamanı yaralanmış körpə bacısı isə ölüb. Murad Sultanov ifadəsində 1991-ci ilin fevralında Ağdamdan Xocavənd istiqamətində "QAZ-53" markalı avtomobillə gedərkən qardaşının körpə qızı ilə birlikdə girov götürüldüyünü deyib. Rəşad Quliyev 2023-cü il sentyabrın 20-də mərmi partlaması nəticəsində yaralandığını söyləyib. Rəhim Abışov 1991-ci il dekabrın 22-də Tərtər rayonunda girov götürüldüyünü, işgəncələrə məruz qaldığını deyib.

Ayxan Mamedov 2021-ci il fevralın 4-də Ağdamda minaya düşdüyünü bildirib. O, hadisə zamanı özü ilə birlikdə 5 nəfərin xəsarət aldığını xatırlayıb. Məcid Adıgözəlov 1990-cı il mayın 19-da kolxozda işləyən vaxt Xocavənd rayonunun Binədərəsi kəndi yaxınlığında girov götürüldüyünü bildirib. Aldığı xəsarətlərə görə səhhətinə zərər dəyib, nəticədə yaddaş problemi yaranıb. Vaqif Əliyev 1993-cü il iyulun 29-da Ağdamda əsir götürüldüyünü, avqustun 23-də azad olunduğunu qeyd edib. Əsirlikdə olduğu müddətdə döyülüb, işgəncələrə məruz qalıb. Zərərçəkmiş şəxslər Elməddin Mirzəyev və Babək Abdunov Ermənistan silahlı qüvvələrinin basdırdığı minaların partlaması nəticəsində yaralandıqlarını bildiriblər.

Digər zərərçəkmiş şəxslər Fazilə Hacıyeva, Baloğlan Salmanov, Azər Musayev, Səmiyyəddin Əsgərov, Ziyad Cəfərov, Rafiq Quliyev müxtəlif vaxtlarda Ermənistan silahlı qüvvələri tərəfindən girov, Qabil Süleymanov, Fərhad Fərhadov, Altay Abdullayev, Ərəstun Kərimov, Rizvan Əsədov, Rafiq Paşayev, Mehman Bayramov isə müxtəlif tarixlərdə əsir götürüldüklərini bildiriblər. Onlar döyülüb, işgəncələrə məruz qalıblar.

Malik İsfəndiyarov, Elgiz Qarayev, Eşqin Allahyarov, Tağı Adıgözəlov, Rəhbər Məmmədov, Vaqif Hüseynov, İlham Abdullayev, Pərvin Orucov, Qabil Yusifov, Oruc Hüseynov, Samir Sadıqov, Samir Əmirov, İsmayıl Poladov isə ayrı-ayrı vaxtlarda Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində yaralandıqlarını bildiriblər. Maxruq Məmmədova və Bəxtiyar İbrahimov Ermənistan silahlı qüvvələrinin atdığı mərmilərin partlaması nəticəsində evlərinin zərər gördüyünü qeyd ediblər. İxtiyar Rəhimov Ağdamda yaşadığı evə mərmi düşdüyünü bildirib. Nəticədə evə zərər dəyib, qızı isə hadisə zamanı keçirdiyi qorxu və stresdən iflic olub, hələ də müalicə alır.

Mirmövsüm Eynalov ifadəsində 44 günlük müharibə zamanı iki dəfə yaralandığını söyləyib. Bəxtiyar Nağıyev isə 1994-cü ildə yaralı vəziyyətdə əsir götürüldüyünü, Şuşada 1 il 10 ay saxlanıldığını deyib. Digər zərərçəkmiş şəxslər Dilşad Quliyeva, Arif Quliyev, Ülfət Abbasov, Güllər Hüseynova, Məhəmməd Vəliyev, Bahar Sultanova, Ələkbər Məmmədov, Adil Məmişov, Zöhrab Teymurov, Əkbər Əkbərov, Zibər İbrahimova Ermənistan silahlı qüvvələrinin Azərbaycana hərbi təcavüzü nəticəsində müxtəlif vaxtlarda zərər çəkdiklərini bildiriblər.

Zərərçəkənlər təqsirləndirilən şəxslərin, onların müdafiəçilərinin və öz nümayəndələrinin suallarını da cavablandırıblar.

Məhkəmə prosesi iyulun 25-də davam etdiriləcək.

*XQ*

# İsveçrə şirkəti Səngəçal terminalında

**İsveçrənin ABB şirkəti Səngəçal terminalının elektrikləşdirilməsi və enerji sisteminin dayanıqlılığına dəstək üzrə BP-dən müqavilə əldə edib. Şirkət Səngəçal terminalının elektrikləşdirilməsinin dəstəklənməsi və enerji sisteminin sabitliyinin təmin edilməsi layihəsinin həyata keçirilməsini 2027-ci ilin fevralına qədər tamamlamağı planlaşdırır. Bu barədə ABB şirkəti məlumat yayıb.**



"Azərbaycanın milli enerji sisteminə qoşulması Səngəçal terminalının elektrikləşdirilməsinə imkan verəcək. Terminalın sahəsi 688 hektardan çoxdur – bu, 800-dən artıq futbol meydançasına bərabərdir. 2024-cü ilin sentyabrında terminalın operatoru ilə imzalanmış 5 illik qlobal çərçivə sazişi çərçivəsində ABB şirkəti terminalın xüsusiyyətlərini nəzərə almaqla hazırlanmış 4 sinxron kompensator tədarük edəcək və onları inteqrasiya edəcək. Bu isə mövcud qaz turbinlərinin istismardan çıxarılmasına imkan verəcək", – deyə məlumatda bildirilir.

Qeyd olunub ki, ABB-nin inteqrasiya olunmuş həlli terminal üçün tələb olunan sinxron kompensatorların sayını azaltmağa imkan verəcək ki, bu da layihənin ümumi dəyərini əhəmiyyətli dərəcədə azaldacaq. Şirkətin müqaviləsi ilkin sistem tədqiqatlarından tutmuş ətraflı mühəndis işlərinə, quraşdırma işlərinə qədər bütün işləri əhatə edir. Ümumilikdə isə, ABB-nin elektrikləşdirmə və avtomatlaşdırma sahəsindəki həlləri Səngəçal terminalının sabitliyinin və fasiləsiz işinin təmin edilməsində əsas rol oynayacaq.

Qeyd edək ki, ABB-nin sinxron kompensatorları kompakt ölçüləri ilə seçilir və enerji sistemlərinin və elektrik şəbəkələrinin səmərəli və etibarlı işləməsini təmin edir. Bu qurğular qısaqapanma gücü, inersiya və reaktiv güc təqdim etməklə elektrik şəbəkələrinin dəstəklənməsi üçün nəzərdə tutulub və bərpa olunan enerji mənbələrinin inteqrasiyası zamanı enerji sistemlərinin sabitliyinin təmin edilməsində getdikcə daha mühüm rol oynayır. ABB-nin müqaviləsi üzrə öhdəliyi ilkin sistem tədqiqatlarından tutmuş ətraflı layihələndirmə, quraşdırma və istismara verməyə qədər bütün mərhələləri əhatə edir. Şirkətin elektrikləşdirmə və avtomatlaşdırma sahəsindəki həlləri Səngəçal terminalının dayanıqlı və fasiləsiz fəaliyyəti üçün əsas rol oynayacaq.

Bu arada, "ABB Energy Industries" bölməsinin prezidenti Per Erik Holsten bildirib ki, ABB mövcud enerji infrastrukturuna avtomatlaşdırma vasitəsilə daha səmərəli və elektrikləşdirmə vasitəsilə daha təmiz işləməyə kömək edir.

Qeyd edək ki, Bakıdan 55 kilometr cənubda yerləşən Səngəçal terminalı gündəlik 1,2 milyon barel neft və təxminən 81 milyon standart kubmetr qaz emal edə bilir.

*XQ*

# İkili standartlar və yeni kolonial dirəniş

**Cənubi Qafqazın geosiyasi reallıqları son illər ciddi şəkildə dəyişib. 2020-ci ilin payızında 44 günlük müharibə nəticəsində Azərbaycan beynəlxalq hüququn prinsiplərini əsas tutaraq ərazi bütövlüyünü bərpa etdi və bölgədə yeni siyasi nizamın əsasını qoydu. Dəyişikliklər beynəlxalq müstəvidə də bir sıra aktorların maraqlarını toqquşdurdu. Məhz bu aktorlar arasında xüsusilə Fransa öz imperiya keçmişindən doğan neokolonial yanaşması ilə bölgədə sabitliyi pozan başlıca faktora çevrilməkdədir.**



Rəsmi Paris uzun illərdir Ermənistanla "xüsusi münasibətlər" platformasında hərəkət edir. İkitərəfli münasibətlər yalnız mədəni və diaspor əsaslı deyil, həm də siyasi və hərbi səviyyədə dərinləşib. Fransanın Ermənistanı silahlandırması, hərbi təlimlər təşkil etməsi və bu ölkəyə açıq şəkildə hərbi dəstək verməsi, xüsusən də Azərbaycanın ərazi bütövlüyünü bərpa etmə istiqamətindəki əməliyyatlar və diplomatik təşəbbüslər fonunda ciddi geosiyasi suallar doğurur. Rəsmi Paris dəstəyi, təbii ki, yalnız regional gərginliyi artırmaqla kifayətlənmir, həm də Fransanın, BMT və digər beynəlxalq qurumların qəbul etdiyi qərarlarla ziddiyyət təşkil edir. Paradoksal olan budur ki, rəsmi Paris, eyni zamanda, sülh tərəfdarı olduğunu bəyan edir və Bakı ilə İrəvan arasında müqavilənin imzalanmasını dəstəklədiyini bildirir. Halbuki, Fransa rəhbərliyinin konkret addımları bu bəyanatlarla tamamilə ziddiyyət təşkil edir. Belə bir siyasət həm beynəlxalq hüquqa, həm də sülhün əldə edilməsinə yönəlik təşəbbüslərə ciddi zərbə vurur. Fransa, əslində, sülhün bərqərar olması yolunda konstruktiv bir vasitəçi olmaqdan daha çox revanşist və geosiyasi ambisiyalarını reallaşdırmağa çalışan bir dövlətə çevrilib.

Fransa tərəfindən bu yaxınlarda yayımlanan 2030-cu ilə qədər milli təhlükəsizlik strategiyası bu ikili siyasətin qlobal kontekstdə necə qurulduğunu nümayiş etdirir. Sənəddə Ukrayna və Yaxın Şərqlə yanaşı, Cənubi Qafqaz da təhlükəli və qeyri-sabit regionlar sırasında göstərilir. Qeyri-sabitliyin əsas səbəbi kimi Ermənistan–Azərbaycan münasibətlərində yeni toqquşmanın qaçılmazlığı irəli sürülür. Maraqlıdır ki, sənəd Ermənistanı Avropa İttifaqına (Aİ) inteqrasiya yolunda "potensial tərəfdaş" kimi təqdim edir və Cənubi Qafqazda hərbi-siyasi mövcudluğun artırılmasının prioritet olduğunu bəyan edir. Elə bu yanaşma, əslində, Fransa diplomatiyasının regiona münasibətdə realist deyil, daha çox ideoloji və revanşist baxışlara əsaslandığını göstərir. Rəsmi Paris Cənubi Qafqazda real güc balansının dəyişməsini, Azərbaycanın suveren mövqeyini və diplomatik təşəbbüslərini həzm edə bilmir. Azərbaycan rəhbərliyinin dəfələrlə qeyd etdiyi kimi, Fransa Cənubi Qafqazda separatçılığı təşviq edir, Ermənistanı silahlandırır, revanşist qüvvələri ruhlandırır və beləliklə, bölgədə mövcud gərginliyi artırır.

Fransa prezidenti Emmanuel Makronun sosial media vasitəsilə verdiyi son açıqlamalar da ikili siyasətin təzahürüdür. Bir tərəfdən Ermənistan baş naziri Nikol Paşinyanın, guya, "sülh təşəbbüslərini" dəstəklədiyini bildirir, digər tərəfdən isə Ermənistana hərbi yardımı artırmaqda davam edir. Əslində bu, yalnız Ermənistanı deyil, bütövlükdə regionu yeni hərbi avantüralara sürükləyə biləcək təhlükəli siyasi manevrdir. Rəsmi Paris siyasətinin ziddiyyətləri isə təkcə Bakı tərəfindən deyil, regionda sabitlik arzulayan bütün aktorlar tərəfindən aydın şəkildə sezilməkdədir. Fransanın "yeni Cənubi Qafqaz xətti" Aİ daxilindəki ikili standartlar siyasətinin təzahürüdür. Rəsmi Parisin mövqeyi Aİ-nin Cənubi Qafqaz regionundakı ümumi siyasətinə ciddi təsir göstərir, həmçinin ittifaq daxilindəki digər üzv ölkələrin geosiyasi maraqlarına zidd şəkildə bölgədəki neytrallıq və balanslı yanaşma prinsipini pozur.

Fransanın, xüsusən Aİ daxilində Ermənistanın tərəfdarı kimi çıxış etməsi, əslində, qurumun digər üzv dövlətlərini qeyri-müəyyən seçimlər qarşısında qoyur: ya Fransanın yolunu izləmək, ya da beynəlxalq hüquqa və ədalətə əsaslanaraq daha obyektiv bir mövqe tutmaq. Bu, bir tərəfdən, Aİ-nin vahid və yekdil xarici siyasətinin sarsılması, digər tərəfdən isə Azərbaycan kimi regionda əsas qüvvə olan dövlətin maraqlarının pozulması ilə nəticələnir.



Eyni zamanda, Aİ Şurası, Avropa Parlamentinin və digər strukturların qəbul etdiyi bəzi sənədlərdə Azərbaycanın ərazi bütövlüyü və suveren hüquqlarının nəzərə alınmaması, təbii ki, birbaşa Fransanın Cənubi Qafqazdakı siyasətinin bir nəticəsidir. Həmin sənədlərdəki birtərəfli yanaşmalar yalnız Azərbaycanın hüquqlarını pozmaqla yanaşı, eyni zamanda Aİ-nin özünün imicinə də ciddi zərbə vurur. Çünki bu yanaşmalar beynəlxalq hüquq və ədalət prinsiplərindən kənara çıxaraq, güclü dövlətlərin geosiyasi maraqlarını önə çəkir və nəticədə Aİ-nin bölgədəki obyektiv vasitəçi rolunu zəiflədir. Mövcud yanaşmanı daha da genişləndirərək, Avropa İttifaqının Cənubi Qafqaz siyasətinin səmimiliyinə və prinsipiallığına dair ciddi suallar ortaya qoymaq olar. Fransanın bu təhrikedici və ikili siyasəti Aİ-nin qlobal güc və nüfuzunun həm də mütləq şəkildə təhrif edilməsinə səbəb olur.

Fransa xarici siyasətindəki "yeni Cənubi Qafqaz xətti" Avropada mövcud olan daha geniş və sistemli ikili standartlar siyasətinin tərkib hissəsidir. Fransa xətti təkcə Azərbaycanla münasibətlərə deyil, bütövlükdə Avropa İttifaqının regional siyasətinə kölgə salır. Fransanın Aİ daxilində Ermənistanın tərəfdarı kimi çıxış etməsi digər üzv ölkələri neytrallıq prinsipindən yan keçməyə vadar edir. Aİ Şurasının, Avropa Parlamentinin və digər strukturların qəbul etdiyi bəzi sənədlərdə Azərbaycanın ərazi bütövlüyü və suveren hüquqları nəzərə alınmadan birtərəfli yanaşmaların ortaya çıxması da bu kontekstdə dəyərləndirilməlidir. Azərbaycan bu siyasətə qarşı öz diplomatik cavablarını formalaşdırıb. Prezident İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, Fransa bu bölgədə sülhün deyil, qarşıdurmanın tərəfdarıdır. Hələ 2023-cü ildə Bakıda keçirilən "Dekolonizasiya" mövzusunda beynəlxalq tədbirdə Prezident açıq şəkildə bəyan etmişdi ki, Fransa yalnız keçmiş müstəmləkələrində deyil, Cənubi Qafqazda da neokolonial yanaşmalarını tətbiq etmək istəyir. Fransanın addımı təkcə Azərbaycanın deyil, ümumilikdə regionun suverenliyinə və siyasi azadlığına təhlükədir.

Fransanın Cənubi Qafqazda oynadığı qeyri-səmimi və təhlükəli rol təkcə sülh prosesini zədələmir, həm də Avropanın beynəlxalq hüquqa əsaslanan imicinə zərbə vurur. Ermənistanın Aİ-yə yaxınlaşdırılması siyasəti bölgədə yeni asılılıqlar yaratmaq cəhdi ilə izah oluna bilər. Ermənistanı Brüsselə inteqrasiya etmək, onu Qərbin forpostuna çevirmək istəyən Fransa, əslində, bu ölkəni daha da zərif mövqeyə gətirir. Çünki yeni geosiyasi reallıqda balanslı siyasət yürütməyən aktorlar regionda davamlılıq əldə edə bilməz.

Elə bu baxımdan da Fransanın Cənubi Qafqaz siyasəti nə səmimi sülh təşəbbüsü, nə də humanist diplomatiya nümunəsidir. Bu, Parisin klassik geosiyasi təsir zonalarını qorumaq və genişləndirmək niyyətinin postkolonial təzahürüdür. Fransanın Yeni Kaledoniyada yaşadığı böhran və Afrikada azalan nüfuzu fonunda Cənubi Qafqaz onun üçün yeni "təsir arealı" kimi görünür. Lakin bu yanaşma nə regional sabitliyə, nə də beynəlxalq hüququn aliliyinə xidmət edir. Əksinə, belə bir siyasət yeni toqquşmaların əsasını qoya bilər ki, bu da sonda Ermənistan üçün ağır nəticələr doğura bilər. Azərbaycan bu proseslər fonunda konstruktiv siyasətini davam etdirir: sülh müqaviləsi, sərhədlərin delimitasiyası, qarşılıqlı tanıma və regional inteqrasiya gündəliyində əsas prioritetlərdir. Burada beynəlxalq ictimaiyyətə, xüsusən də Avropa İttifaqının digər üzvlərinə ciddi məsuliyyət düşür: regionda sülhün reallaşması üçün tərəfsiz, obyektiv və hüquqa əsaslanan yanaşma tələb olunur. Fransa isə bu yolda artıq obyektiv vasitəçi olmaq imkanını itirib. Beləliklə, Cənubi Qafqazda sabitliyin əsas təminatçısı – hüququn, suverenliyin və balanslı siyasətin tərəfdarı olan Azərbaycanla manipulyativ geosiyasi maraqları təmsil edən Fransa arasında artan ziddiyyət qlobal təhlükəsizlik müstəvisində də ciddi siqnaldır. Və bu siqnal bütün dünya üçün aydındır: neokolonial ambisiyalar XXI əsrin reallığı ilə toqquşduqda yalnız müstəqil və prinsipial dövlətlər qalib çıxır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Amerika Erməni Assambleyası sülhə qarşı

## *Erməni diasporu və lobbisi yenə prosesə əngəl yaradır*

**Amerikada və dünyanın dörd bir yerində yaşayıb fəaliyyət göstərən erməni diasporunun nümayəndələri təxribatçı əməllərindən qalmırlar. Onlar beynəlxalq platformalarda Azərbaycana qarşı qarayaxma kampaniyaları aparır, yalan məlumatlar yaymaqla ictimai rəyi manipulyasiya etməyə çalışırlar. Həmçinin, sosial şəbəkələr üzərindən müxtəlif dillərdə dezinformasiyalar paylaşaraq Bakı Hərbi Məhkəməsində mühakimə olunan separatçıları "hərbi əsirlər" adlandırır, onların "hüquqlarının pozulduğu" görüntüsünü yaratmağa cəhd edirlər.**

Eyni zamanda, erməni diasporu müxtəlif ölkələrin qanunverici orqanlarına təzyiqlər göstərməklə Azərbaycana qarşı sanksiya və ya qətnamələrin qəbuluna çalışırlar. Onlar bu məqsədlə külli miqdarda vəsait xərcləyirlər. Bu fəaliyyətin əsas məqsədi isə nifaq toxumu səpmək, regionda yaranmaqda olan sülh və əməkdaşlıq mühitinə zərbə vurmaqdır.

Bugünlərdə Amerika Erməni Assambleyası həmsədrlərinin Dövlət katibi Marko Rubioya etdikləri müraciəti də bu kontekstdə nəzərdən keçirmək lazımdır. Onlar öz xislətlərinə sadiq qalaraq müraciətlərində separatçıları "Bakıda qanunsuz saxlanılan erməni əsirlər" adlandırıblar. Assambleyanın yaydığı məlumatda qeyd olunub ki, Prezident Donald Trampın iyulun 15-də Ağ Evdə NATO-nun Baş katibi Mark Rutte ilə Ermənistan və Azərbaycan arasında sülhün əldə oluna biləcəyinə dair söylədiklərini nəzərə alaraq, Amerika Erməni Assambleyasının həmsədrləri Oskar Tatosyan və Talin Yakubyan ABŞ Dövlət katibi Marko Rubioya məktub göndərərək, Azərbaycan tərəfindən saxlanılan "bütün əsirləri" (?), o cümlədən "Qarabağın siyasi liderlərini" (?) azad olunmasına çağırıblar. Onlar həmçinin Qarabağa geri qayıtmaq hüququnu təmin etməyə səsləyiblər.

Təxribatçı məktubda "Artsax ermənilərinin qayıtmaq və mədəni mövcudluq hüququ"nun "həll edilməmiş qaldığı" vurğulanır. Birləşmiş Ştatlar "təhlükəsiz, könüllü və ləyaqətli qayıdış" da daxil olmaqla "ədalətli və düzgün nizamlamada" iştirak etməyə çağrılır.

Bundan əlavə, kağız parçasında vurğulanır ki, tam davamlı sülh Ermənistan Respublikası üçün etibarlı təhlükəsizlik təminatlarını, o cümlədən Azərbaycan Silahlı Qüvvələrinin Ermənistanın suveren ərazisindən tam çıxarılmasını (?), habelə hər hansı razılaşmanın pozulmasının aydın nəticələrini ehtiva etməlidir.

Qeyd edək ki, bu, Amerika Erməni Assambleyasının il ərzində M.Rubioya ünvanladığı ikinci məktubdur. Qurum bu ilin fevralında da ABŞ Dövlət katibinə məktub ünvanlamışdı. Həmçinin, həmsədrlər ilin əvvəlində Prezident Trampa məktub yazmışdılar. Həmin məktubda da "erməni girovlar"ın dərhal azad edilməsi, erməni xalqına etibarlı təhlükəsizlik təminatlarının verilməsi, Azərbaycan sülh sazişini pozarsa (?) sərt tədbirlərin görülməsi və "Artsax" ermənilərinin geri qayıtmaq hüququnun təmin olunması tələb edilirdi.

***

Məlumat üçün bildirək ki, Amerika Erməni Assambleyası ABŞ-da fəaliyyət göstərən və dünyada ən tanınmış erməni diaspor təşkilatlarından biridir. 1972-ci ildə yaradılmış bu qurumun qərargahı Vaşinqtonda yerləşir və qeyri-kommersiya, qeyri-partiya yönümlü təşkilat kimi fəaliyyət göstərir. Təşkilatın əsas məqsədi ABŞ və dünya ictimaiyyətində erməni maraqlarının təbliği, Ermənistan və erməni diasporunun mövqelərinin gücləndirilməsidir. Qurum ABŞ Konqresində erməni maraqlarını qorumaq üçün davamlı lobbi fəaliyyəti həyata keçirir. Bu çərçivədə ABŞ-ın Ermənistana maliyyə yardımlarının ayrılması, qondarma "erməni soyqırımı" iddialarının tanıdılması əsas məsələlərdəndir. Qarabağdakı keçmiş separatçı rejimə dəstək də bu çərçivədə xüsusi yer tuturdu. Göründüyü kimi, indi həmin dəstək başqa formada davam etdirilir. Təşkilat Amerika və beynəlxalq KİV-lərdə, eləcə də sosial media platformalarında ermənilərin maraqlarına uyğun xəbərlərin yayılması, Azərbaycan və Türkiyə əleyhinə kampaniyaların təşkili ilə məşğuldur. Bu qurum illər uzunu müxtəlif qərəzli hesabatlar və bəyanatlar yayaraq Azərbaycanda ermənilərin "etnik təmizlənməsi" və ya "onların hüquqlarının pozulması" kimi iddiaları irəli sürür. Bu məlumatlar sübut olunmamış və ya təhrif edilmiş "faktlara" əsaslanır. Təşkilat sistemli şəkildə Türkiyəyə qarşı qondarma "soyqırımı" ittihamlarını beynəlxalq hüquq və real tarixə zidd formada gündəmdə saxlayır. Qurum müxtəlif təqaüd proqramları, yay təcrübə




kursları (xüsusilə Vaşinqtonda), araşdırma layihələri və seminarlar vasitəsilə yeni nəsil erməni lobbiçilərin yetişdirilməsinə çalışır.

Onun fəaliyyəti əsasən erməni əsilli amerikalı biznesmenlərin ianələri və diaspor təşkilatlarının dəstəyi ilə maliyyələşdirilir. Təşkilat ABŞ-ın bəzi ştatlarında, xüsusilə ermənilərin kompakt yaşadıqları Kaliforniya və Massaçusets kimi ştatlarda yerli siyasətçilər üzərində ciddi təsir gücünə malikdir. ABŞ-dakı digər erməni lobbi qurumları, məsələn, Erməni Milli Komitəsi ilə sıx əməkdaşlıq edir, bir çox hallarda isə onlar koordinasiyalı fəaliyyət göstərirlər.

ABŞ–Azərbaycan münasibətlərində son aylarda müşahidə olunan inkişaf Amerika Erməni Assambleyasını və bütövlükdə, erməni diaspor təşkilatlarını ciddi şəkildə narahat edir. Məhz bu baxımdan onlar M.Rubioya müraciət edərək Azərbaycanla bağlı sərt mövqe tutmasını, Bakıda mühakimə olunan şəxslərin azad edilməsini və "erməni irsinə təhlükə" kimi iddialarla çıxış etməsini tələb ediblər. Bu baxımdan təşkilatın M.Rubioya etdiyi qərəzli müraciət təsadüfi sayılmamalıdır. Müraciət, əslində, ABŞ–Azərbaycan strateji əməkdaşlığını gözdən salmaq və ictimai rəydə ölkəmizlə bağlı mənfi təsəvvür yaratmaq cəhdidir. Assambleya və onunla bağlı qurumlar bu istiqamətdə həm Konqresdə, həm də mediada aktiv təbliğat kampaniyasına start veriblər. Bu kimi uydurma fikirlərin yer aldığı məktubların əsas hədəfi ABŞ-ın Azərbaycanla enerji, təhlükəsizlik və digər sahələrdəki tərəfdaşlığını zəiflətməkdir.

Lakin Vaşinqtonda qərar verən dairələr regiondakı geosiyasi reallıqları nəzərə alaraq, bu manipulyativ çağırışlara o qədər də həssas yanaşmırlar. Bu məktub da əslində, Vaşinqtonun Cənubi Qafqazda dəyişən mövqeyinə qarşı narazılığın ifadəsidir. Onlar D.Trampın Ermənistan–Azərbaycan sülh gündəmi ilə bağlı verdiyi nikbin bəyanatdan dərhal sonra belə bir müraciət yayaraq, prosesi sabotaj etməyə çalışırlar. Məktubda Azərbaycanın suveren hüquqlarına hörmətsizlik ifadə olunur, beynəlxalq hüquqa zidd şəkildə separatçıların rəhbərləri "siyasi liderlər", cinayət məsuliyyətinə cəlb edilən digər şəxslər isə "hərbi əsirlər" kimi təqdim olunur. Bu, açıq-aşkar dezinformasiya və siyasi manipulyasiyadır. Eyni zamanda, "Qarabağa qayıdış" çağırışı da separatizmin dirçəldilməsinə yönəldilmiş təxribat xarakteri daşıyır. Assambleya bununla regionda sülh və reinteqrasiya səylərinə kölgə salmağa çalışır. ABŞ ictimaiyyəti və siyasi dairələrinin isə qeyd etdiyimiz kimi bu cür yönləndirici və birtərəfli yanaşmalara əsaslanaraq qərar verməsi mümkün deyil. Bu cəhd, əksinə, erməni lobbisinin olan-qalan nüfuzuna vurulan daha bir zərbədir.

Müraciətdə Qarabağ ermənilərinin qayıtmaq və mədəni mövcudluq hüququnun təmin olunmadığı iddia edilir ki, bu ifadə ilə Azərbaycana qarşı beynəlxalq təzyiq formalaşdırmaq məqsədi güdülür. Dövlət Departamentinə müraciət edilərək prosesə birbaşa müdaxilə etməsi istənilir. Məktubda təhlükəsiz və ləyaqətli qayıdış kimi ifadələrlə emosional təsir yaradılmağa çalışılıb. Bütün bunlar regionda sülh prosesinin qarşısını almağa yönəlmiş bir yanaşmadır.

Amerika Erməni Assambleyasının yaydığı bu məktubda sülh deyil, şərtli və birtərəfli tələblər ön plana çəkilir. Kağız parçasında qeyd olunan iddialar regionda real təhlükəsizlik çağırışlarını deyil, siyasi manipulyasiya məqsədi güdən istəkləri əks etdirir. Azərbaycan Silahlı Qüvvələrinin, guya, Ermənistanın "suveren ərazisində" olması iddiası faktlara söykənmir, çünki iki ölkə arasında sərhədlərin delimitasiya və demarkasiyası hələ tamamlanmayıb. Bu cür ritorika həm danışıqlar prosesinə, həm də tərəflər arasında yaranmaqda olan etimada zərbə vurur. Eyni zamanda, "hər hansı razılaşmanın pozulması aydın nəticələrini ehtiva etməlidir" fikri Vaşinqtonu təhdid dili ilə prosesə cəlb etmək cəhdidir. Halbuki, davamlı sülh Ermənistanın konstitusiyasından Azərbaycana qarşı ərazi iddialarını aradan qaldırmasından, ATƏT-in Minsk qrupunun buraxılmasına dair təşkilatın katibliyinə birgə müraciəti imzalamaqdan və beynəlxalq hüququn prinsiplərinə əməl etməkdən keçir. Məktubda isə bu elementlərin heç biri yer almır, əksinə, Azərbaycanı ittiham edən və məsuliyyəti yalnız ölkəmizə, necə deyərlər, yükləyən mövqe nümayiş etdirilir. Bu da müraciətin məqsədinin sülhə deyil, gərginliyə xidmət etdiyini açıq göstərir. Assambleyanın müraciəti regionda mövcud olan həssas balansı pozmaq məqsədi də daşıyır. Belə addımların sülhə xidmət etmədiyi birmənalıdır. Bu isə uzunmüddətli həll perspektivlərini çətinləşdirir. ABŞ-ın bu çağırışlara ehtiyatla yanaşması və obyektiv mövqe tutması vacibdir. Eyni zamanda, beynəlxalq ictimaiyyət bölgədə real vəziyyəti düzgün qiymətləndirməli və təxribatlara aldanmamalıdır. Sülh və əməkdaşlıq üçün qarşılıqlı anlaşma və konstruktiv dialoq əsasdır.

***Səxavət HƏMİD***
***XQ***

# “Məsuliyyətimiz etimadınızdan qaynaqlanır”

## *Mətbuat Şurası Prezident İlham Əliyevə təşəkkür məktubu ünvanlayıb*

**Azərbaycan Mətbuat Şurası Prezident İlham Əliyevə təşəkkür məktubu göndərib. Şura sədri Rəşad Məcidin adından ünvanlanmış məktubda bildirilib ki, dövlətimizin başçısının “Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında” 25 aprel 2025-ci il tarixli Sərəncamı milli mətbuatımızın keçdiyi şərəfli yolun müfəssəl təsviridir. Bu mühüm dövlət sənədi, eyni zamanda, mətbuatımızın şanlı ənənələrinə, Azərbaycanda ictimai fikrin formalaşmasına, dövlətçilik ideyaları naminə səfərbərlik missiyasına böyük dəyərdir:**



“Siz hər zaman mediamızın müasir və müstəqil Azərbaycanın inkişafındakı, ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğundakı rolunu yüksək qiymətləndirmisiniz. Gələcək üçün yol xəritəsi mahiyyəti daşıyan yubiley Sərəncamızında 44 günlük Vətən müharibəsi zamanı jurnalistlərimizin əməyinə xüsusi yanaşmağınız isə 150 ilin sevincinə qürur və fəxarət hissi qazandırır.

Siz xalqımızın Ümummilli lideri Heydər Əliyevin əsasını qoyduğu mediaya dövlət dəstəyi ənənəsini yaşadırsınız. Bu dəst-xətt özünü dönməz xarakterli fundamental islahatlarda göstərir. Qətiyyətlə deyə bilərik ki, media sahəsindəki inkişaf məhz islahatyönümlü siyasətinizdən qaynaqlanır”.

Məktubda eyni zamanda bildirilib ki, Prezident İlham Əliyev III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü zamanı Azərbaycan mediasına yüksək dəyər ifadə etməklə, gərgin əmək və axtarışlar nəticəsində əldə olunan inkişafı qiymətləndirib: “Media nümayəndələrinə milli mətbuatımızın 150 illik yubileyi ilə bağlı ünvanladığınız 22 iyul 2025-ci il tarixli müraciətdə isə inkişafın davamlılığına təminat verdiniz, mediamızın bundan sonra da cəmiyyətimizin obyektiv və peşəkar şəkildə məlumatlandırılmasında, müasir cəmiyyət quruculuğunda, milli həmrəyliyin möhkəmləndirilməsində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəyinə əminliyinizi bildirdiniz. Həm bu əminliyiniz, həm də dünyanın yeni media düzənindəki mövcud tendensiyalar şəraitində müəyyənləşdirdiyiniz vəzifələr məsuliyyətimizi artırır”.

Məktubda, həmçinin, jurnalistlərin məsuliyyətinin dövlətimizin başçısının onlara olan etimadından qaynaqlandığı bildirilib. Vurğulanıb ki, media təmsilçiləri Qarabağı azadlığına qovuşdurmuş, torpaqlarımızın işğalına son qoymuş müzəffər Ali Baş Komandanın əsgəri kimi fəaliyyət göstərməkdən, xalqımıza rifah və əmin-amanlıq, regionumuza sabitlik gətirən siyasi kursunuza sadiq olmaqdan, nəhayət etimadınızı doğrultmaqdan məmnundurlar. Hər bir qələm sahibi üçün bu məmnunluq yaradıcılıq şövqü, ruh yüksəkliyi və əzmlə çalışmaq üçün son dərəcə böyük mənəvi stimuldur.

Mətbuat Şurasının məktubunda o da bildirilib ki, Azərbaycan dövlətinin media siyasəti özündə təkcə konseptual mahiyyət daşıyan fəaliyyət xəttini deyil, eyni zamanda, jurnalistlərə həssas münasibəti də birləşdirir. Həssaslığın isə media nümayəndələrinin əməyinin qiymətləndirilməsi, onların dövlət təltiflərinə - fəxri adlara, orden və medallara layiq görülmələri ənənəsi var: “Əvvəlki yubileylərdə olduğu kimi, milli mətbuatımızın 150 illik yubileyində də 2005-ci ildə əsasını qoyduğunuz bu ənənə özünü parlaq şəkildə göstərdi. “Media nümayəndərlərinin təltif edilməsi haqqında” 21 iyul 2025-ci il tarixli Sərəncamınızla 200-dən çox həmkarımıza inanılmaz xoşbəxtlik hissi bəxş etdiniz”, - kimi fikirlərin yer aldığı məktubda bütün bunlara, ümumən, mediaya, jurnalistlərə daim həssas münasibətinə, peşəyə yüksək dəyərə və qədirbilənliyə görə Prezident İlham Əliyevə Azərbaycan Mətbuat Şurası İdarə Heyəti üzvlərinin, bütövlükdə ölkəmizin jurnalist ictimaiyyətinin dərin təşəkkürü və minnətdarlığı ifadə olunub, dövlətimizin başçısına Vətənimiz Azərbaycan naminə yorulmaz fəaliyyətinizdə yeni-yeni müvəffəqiyyətlər arzulanıb.

***XQ***

# Prezidentin media prioriteti: strateji maraqlar və peşəkarlıq

**(əvvəli 1-ci səhifədə)**

Əslində, Prezident İlham Əliyev mediaya, onun cəmiyyət həyatında oynadığı rola hər zaman yüksək dəyər verib. Bu dəyər Azərbaycanda mövcud istiqamətdəki siyasətin hədəflərinin müəyyənləşməsində müstəsna əhəmiyyətə malikdir. Nəzərə alaq ki, hazırda sahəyə dövlət dəstəyi media orqanlarının və jurnalistlərin əməyini cəmiyyət həyatının ən müxtəlif istiqamətləri üzrə stimullaşdırmaq yönümlüdür.

Əlbəttə, cəmiyyətimizin mənafelərinin qorunması ölkəmizin maraqlarının beynəlxalq miqyasdakı müdafiəsindən də asılıdır. Təsadüfi deyil ki, dövlətimizin başçısı III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü zamanı Azərbaycana qarşı daxildə hansısa təhdid ocağının mövcud olmadığını vurğulayıb. Deməli, başlıca diqqət xaricə yönəlməlidir.

Başlıca diqqət, eyni zamanda, mediamızın beynəlxalq miqyasdakı fəaliyyətinin gücləndirilməsinə yönəlməlidir. “Bu gün Azərbaycan mediası dövlət maraqlarını qorumağa qadirdir. Azərbaycana qarşı olan əsassız ittihamları arqumentlərlə, ciddi təhlillə və faktlar əsasında ifşa etməkdə də böyük uğurlar əldə edib. Bizim mediamız nəinki dövlət maraqlarını müdafiə edir, eyni zamanda, lazım gəldikdə hücuma da keçir. Bu da lazımdır. İdmanda bəzən deyirlər ki, ən yaxşı müdafiə hücumdur”, - deyən Prezident İlham Əliyev III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü zamanı onu da bildirib ki, mediamız artıq istənilən xoşagəlməz, iftira kampaniyasına cavab verməyə qadirdir və bu, çox önəmli reallıqdır.

Qeyd edək ki, Prezident İlham Əliyev “Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında” 25 aprel 2025-ci il tarixli Sərəncamında ötən dövr ərzində müstəqil siyasi kursun qətiyyətlə və ardıcıl həyata keçirilməsi nəticəsində ölkəmizin dinamik inkişafının təmin edildiyini, qarşıda duran strateji vəzifələrin uğurla gerçəkləşdirildiyini vurğulayıb. Dövlətimizin başçısı bu fikrin ardınca Azərbaycanın Vətən müharibəsində şanlı Zəfər qazanaraq, unikal antiterror əməliyyatı ilə hərb tarixinə yeni səhifə yazaraq, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdiyini xatırladıb və əlavə edib ki, müharibə dövründə mediamız əsl vətənpərvərlik, həmrəylik nümunəsi ortaya qoymuş, haqq səsimizin dünya ictimaiyyətinə çatdırılması, düşmənin və onun havadarlarının saxta məlumatlarının ifşası üçün xüsusi səy göstərmiş, Milli Ordumuzun, əsgər və zabitlərimizin rəşadəti, qəhrəmanlığı ilə bağlı zəngin salnamə yaratmışdır.

Bəli, Azərbaycan dövləti mediaya həm də ölkəmizin strateji vəzifələrinin icrasındakı mühüm vasitə olaraq yanaşır. Tam əminliklə demək olar ki, hazırda həmin maraqların qorunmasında hakimiyyət-media vəhdəti var. Bu vəhdət bənzərsiz tandem təşkil etməklə, məqsədyönlü güc statusu qazanıb. Bu status isə tariximizin heç bir dövründə əldə edilməmiş böyük nailiyyətdir. Heç şübhəsiz, belə bir nailiyyət hakimiyyətin – Ümummilli lider Heydər Əliyevin, sonra isə Prezident İlham Əliyevin jurnalistlərə, ümumən media amilinə yanaşmasından, onun potensialına dəyər verməsindən irəli gəlib. Bu nəailiyyət həm Heydər Əliyev dühasının, həm də İlham Əliyev şəxsiyyətinin jurnalistlərə dost münasibətindən qaynaqlanıb. Jurnalistlər də bu iki fenomeni özlərinin dostu elan ediblər.



Müstəqilliyini qazandıqdan sonra Azərbaycan dövlətinin ən böyük strateji hədəfi işğal altında olan torpaqlarımızın azadlığı olub. Haqqında söz açdığımız hakimiyyət-media tandeminin ən mühüm özünütəsdiq mərhələsi 44 günlük Vətən müharibəsi zamanı yaşanıb. Buna görə də Prezident İlham Əliyev “Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında” Sərəncamındakı kimi, milli mətbuatın 150 illiyi münasibətilə Azərbaycanın media nümayəndələrinə müraciətində də jurnalistlərimizin müqəddəs savaşdakı iştirakı üzərində dayanıb: “Azərbaycan mediası 44 günlük Vətən müharibəsi və antiterror əməliyyatı dövründə hadisələrin operativ işıqlandırılmasını təmin etmək üçün həm ön, həm də arxa cəbhədə fədakarlıqla və əzmlə çalışmışdır. Ölkəmiz və xalqımız üçün bu tarixi və taleyüklü mərhələdə Azərbaycan mediası cəmiyyətimizin operativ və düzgün məlumatlandırılmasında, kütləvi dezinformasiya hücumlarının qarşısının alınmasında böyük rol oynamış, haqq səsimizin və mövqeyimizin beynəlxalq ictimaiyyətə çatdırılmasında yüksək peşəkarlıq, əsl vətənpərvərlik və həmrəylik nümayiş etdirmişdir. Heç şübhəsiz ki, informasiya məkanında qazandığımız zəfər döyüş meydanında qazandığımız və bu il 5-ci ildönümünü qeyd edəcəyimiz şanlı Zəfərimizin ayrılmaz parçasıdır”.

Prezidentin media nümayəndələrinə müraciətində o da bildirilib ki, bu gün Azərbaycan Respublikası tam müstəqil xarici siyasət yürüdən, regionun siyasi və iqtisadi mərkəzi statusunu qazanmış, beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutmuş güclü dövlətdir. Ölkəmizin mövcud inkişaf dinamikası Azərbaycan mediasının da ümumdünya informasiya şəbəkəsindəki çəkisini artırmış, rəqabət qabiliyyətini yüksəltmişdir. Əlbəttə, nailiyyətlər arxayınlıq üçün əsas olmamalıdır. Çünki media dinamik inkişaf strukturuna malikdir. Ona görə də Prezident İlham Əliyev müraciətində bu məqamı da vurğulayıb ki, qarşıdan gələn dövrdə milli mətbuatımızın qlobal informasiya məkanında yerinin daha da möhkəmlənməsini təmin etmək məqsədilə media savadlılığının yüksəldilməsi, ən qabaqcıl kommunikasiya texnologiyalarının tətbiqi, effektiv və çevik kommunikasiyanın həyata keçirilməsi, sosial media platformalarında fəallığın artırılması, rəqəmsallaşma, süni intellektin tətbiqi, dezinformasiya və saxta xəbərlərlə mübarizə kimi amillər aparıcı rol oynayacaq.

Dövlətimizin başçısı jurnalistlərə yubiley təbriki mahiyyəti daşıyan müraciətində bildirib ki, dünyada yeni media landşaftının bərqərar olduğu mürəkkəb rəqabət mühitində fəaliyyət göstərən milli mətbuatımızın üzərinə xüsusi məsuliyyət düşür: “Belə ki, qlobal informasiya məkanının sürətlə transformasiya olunduğu, beynəlxalq təbliğat fəaliyyətinin ölkələrin imicinə, daxili həyatına ciddi təsir göstərdiyi, süni intellektin imkanlarının genişləndiyi, hibrid təhdidlərin və “deepfake”lərin geniş vüsət aldığı müasir dövrdə bizim mediamız peşəkarlıq, obyektivlik, qərəzsizlik, yüksək milli şüur və vətənpərvərlik prinsiplərinə əməl edərək, söz və məlumat azadlığından sui-istifadənin qarşısını qətiyyətlə almalı, Azərbaycanın milli maraqlarını və mənafeyini hər şeydən uca tutmalıdır”.

Sonda onu da deyək ki, 150 illik tarixi canlandıran Azərbaycan mətbuatı və ümumən jurnalistikası şanlı mərhələni fəxrlə başa vuraraq əsl salnamə yaradıb. Keçmiş gələcəyin bazasıdır. Bu mənada indiyədək əldə edilmiş uğurlar da qarşıdakı müddət üçün mayakdır. Gələcək isə sınaqlarla doludur. İnformasiya texnologiyalarının media məkanına sürətli inteqrasiyası şəraitində jurnalistikanın hadisə və proseslərə yanaşmasındakı dinamika təkcə onun ənənəvi funksionallıq göstəriciləri ilə deyil, həm də müasir dövrün ritmi ilə müəyyənləşməlidir. Yəni, sınaqlar da mahiyyətini və təzahür formalarını dəyişib. Əslində, Prezident İlham Əliyevin də jurnalistlərə müraciətindəki başlıca çağırış yükü bu məqamın vurğulanmasıdır. İndi qalır, mediamızın dövlətimizin başçısının çağırışına adekvat fəaliyyət göstərməsi. Əminik ki, bu fəaliyyət tələblər çərçivəsində olacaq və media müstəvisində ölkəmizin strateji kursunun müdafiəsi sahəsində daha böyük uğurlar qazanılacaqdır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Azərbaycan QHT-lərinin ABŞ Dövlət katibinə müraciəti

**“Sizə məktub ünvanlamış bir qrup ABŞ konqresmeninin Azərbaycanın suveren əraziləri mövzusunda riyakarlığı, Azərbaycan ilə Ermənistan arasında sülh prosesinə qarşı fəaliyyəti Azərbaycan ictimaiyyətində kəskin hiddət doğurub. Biz bu cür birtərəfli yanaşmaları rədd edirik. Hesab edirik ki, Bayden-Blinken dövrünün erməniпərəst simaları faktiki olaraq ABŞ Prezidenti Donald Trampın Cənubi Qafqazda sülh səylərinə qarşı açıq təxribata əl atıblar”. Azərbaycan QHT-ləri ABŞ Dövlət katibi Marko Rubioya bu müraciətinin davamında deyilir:**

– Bu yaxınlarda Azərbaycan və Ermənistan liderləri Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində görüş keçiriblər. Artıq Azərbaycan və Ermənistanın sülh müqaviləsinin mətnini razılaşdırdığı bildirilir. Sülh prosesini irəli aparmaq üçün ciddi, çətin iş davam etdirilir. Bir qrup ABŞ konqresmeninin çağırışları isə bu prosesə mane olmaq, onu əngəlləmək cəhdindən başqa bir şey deyil. Onlar hər vəchlə süni gərginlik, regionda yenidən münaqişə ocağı yaratmağa çalışırlar.

Regiona aidiyyəti olmayan, məsələlərdən xəbərsiz şəxslərin ABŞ-dakı erməni lobbisinin maddi həvəsləndirmələri müqabilində məsuliyyətsiz bəyanatlara imza atmaları təəssüf doğurur. Bu cür şəxsləri Azərbaycan ictimaiyyəti yaxşı tanıyır, onlar Ermənistanın Azərbaycana qarşı işğalçılığına, günahsız insanların qanının tökülməsinə, Xocalı soyqırımına susublar, təcavüzkarın yanında olublar. Bu gün də onlar Azərbaycan xalqının qanını tökmüş müharibə cinayətkarlarının mühakimə edilməməsi üçün dəridən-qabıqdan çıxırlar. Bu konqresmenlər Azərbaycanda heç bir nüfuza malik deyillər.



Xatırlatmaq istərdik ki, əvvəllər bu kimi anti-Azərbaycan, erməniпərəst təşəbbüslərlə çıxış edən və Prezident Trampın qatı tənqidçilərindən olan keçmiş senator Bob Menendez korrupsiya və rüşvətxorluğa görə məhkum olunub. Məlum müraciətin təşəbbüskarlarından biri olan demokrat senator Adam Şiffi isə cənab Trampı sərt tənqid edib, onun cinayət məsuliyyətinə cəlb olunmasının zəruriliyini bildirib.

Ötən il COP29 tədbiri zamanı Bakıya səfər etmiş konqresmen Frank Peloni yerli ictimai fəallar tərəfindən “Rədd ol!” şüarları ilə qarşılanmışdı. O, səfərini yarımçıq qoyaraq ölkəni rüsvayçılıqla tərk etmişdi.

Biz hesab edirik ki, bu gün Azərbaycanın suveren ərazilərinə ermənilərin qayıdışı haqqında danışan F.Peloni kimi konqresmenlər, ilk növbədə, Ermənistandan qovulmuş yüz minlərlə azərbaycanlının qayıdış hüququnu da tanımalıdırlar. Qərbi Azərbaycandan didərgin düşən insanlar dinc yolla doğma yurdlarına qayıtmalıdırlar. Qərbi Azərbaycan İcması da bu istiqamətdə Ermənistanla dialoq qurmağa hazırdır.

Ermənistan ərazisində, işğal dövründə isə Qarabağ və Şərqi Zəngəzurda Azərbaycan xalqının maddi-mədəni irsi talan edilib. Buna susmaq ən böyük ədalətsizlikdir.

Son vaxtlar İsveçrə parlamentinin “beynəlxalq sülh forumu” adı altında Cənubi Qafqazda sülh və sabitliyə xələl gətirən, Ermənistanda revanşistlərin mövqeyini müdafiə edən təkliflərlə çıxış etməsi regionda sülh və etimad quruculuğuna xəyanətdir. Sizə bir qrup konqresmen adından ünvanlanmış məktubda İsveçrə parlamentinin təxribatçı addımlarına istinad edilməsi bir daha bu məktubun və onun müəlliflərinin əsl mahiyyətini ortaya qoyur.

Biz hesab edirik ki, məlum müraciəti təşkil edənlər ABŞ və Azərbaycan liderlərinin yazışmalarından da aydın görünən ikitərəfli əlaqələrin yeni yüksəliş mərhələsinə qədəm qoymasından narahatdırlar. İnanırıq ki, Cənubi Qafqazda davamlı sülhün bərqərar olması istiqamətində təqdirəlayiq əmək sərf edən Tramp Administrasiyası “Vaşinqton bataqlığı”nın təmsilçiləri olan bu konqresmenlərin fəaliyyətinə doğru qiymət verəcəkdir.

***XQ***

# ABŞ konqresmenlərinin anti-Azərbaycan isterikası...

## Ermənipərəstlərin məqsədi nədir, rəsmi İrəvanın nə?

**Köhnə hamam, köhnə tas. Onlar yenə başlayıblar. Söhbət ənənəvi ermənipərəstlik oyununun "icraçıları" olan ABŞ konqresmenlərindən gedir. Bu avantüristlər sabiq dövlət başçısı Co Baydenin dövründəki kimi aktivləşiblər. Məqsədləri Azərbaycana təzyiq göstərilməsinə nail olmaqdır və bunun üçün Prezident Donald Trampa müraciət ünvanlayıblar.**

Əlqərəz, söhbət Qarabağ ermənilərinin geri qayıdışına dəstək göstərilməsindən gedir. Konret desək, 87 konqresmen Prezident Trampdan bunu tələb edib. Müraciətin müəllifləri naftalin qoxulu simasız ermənipərəstlər sürüsünün təmsilçiləridir. Frenk Pallone, Qas Bilirakis, Bred Şerman və Devid Valadaon. Adları çəkilən konqresmenlərin daha böyük məqsədləri Bakı-İrəvan sülh prosesinə maneçilik törətməkdir. Görünür, onları Azərbaycan və Ermənistan liderlərinin iyulun 10-da Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə keçirilmiş təkbətək və geniş tərkibli görüşünün pozitiv axarı ciddi narahat edib. Narahatlığın əsl səbəbini isə sonda diqqətə çatdıracağıq.

Hələlik onu bildirək ki, konqresmenlərin bu cür təxribatçı addımları, istər-istəməz, keçmişə nəzər salmaq zərurəti yaradır. O keçmişə ki, Azərbaycan işğala məruz qaldığı halda, Birləşmiş Ştatlarda ölkəmiz, faktiki olaraq, işğalçı qiyafəsində qələmə verilmişdi. Belə ki, 1992-ci ildə ABŞ Konqresi "Azadlığa dəstək aktı" deyilən sənədə 907-ci düzəlişi qəbul etmiş və bu düzəlişə görə, Azərbaycana Vaşinqtonun dövlət yardımı qadağan olunmuşdu. Halbuki, təzyiq təcavüzkar Ermənistana göstərilməli idi.

D.Tramp durumu görməzdən gələ bilməz. Ermənistana görə isə heç gəlməz. Deməli, konqresmenlər özlərinin həyasızlıqları ilə ABŞ Prezidentindən mümkünsüzü mümkünləşdirməyi tələb edirlər. Bu tələb dövlət başçısının nüfuzuna zərbə vurmaqdır. Eyni zamanda, Birləşmiş Ştatlar Prezidentinin Bakı-İrəvan sülhünə dəstək verdiyi məlumdur. Yəni, demokratlara yaxınlığı ilə seçilən erməni lobbisinin ermənipərəst isteriya yaratmaqda məqsədi həm Trampın, həm də onun rəhbərlik etdiyi respublikaçıların mövqelərini zəiflətməkdir. Axı Tramp zəifləməsə, indiyədək erməni diasporundan alınan pullar hesabına qeyri-şəffaf korrupsiya sxemləri qurmuş konqresmenlər ifşa olunacaq. Onlardan biri Bob Menendes artıq həbsdədir, Adam Şiffi də eyni aqibət gözləyir. Trampın Şiffi "oğru" və "fırıldaqçı" adlandırdığı da məlumdur, onun həbs cəzası almalı olduğunu bildirməsi də...

Beləliklə, ABŞ-ın erməni diasporunun dirijor çubuğu ilə hərəkətə gələn konqresmenlər bir yandan sülh prosesini ləngitməyə, digər tərəfdən hazırkı iqtidarın mövqelərini zəiflətməyə çalışırlar. İstəkləri mümkün qədər vaxt qazanmaqdır. Vaxt ona görə qazanılır ki, mövqelərini zəiflədəcəklərinə ümid bəslədikləri Tramp növbəti seçkilərdə məğlubiyyətə uğrasın və demokratların iqtidara yiyələnmələri ilə Vaşinqtonun Baydenin dövründəki aşkar ermənipərəstlik xəttinə qayıdılsın. Nəzərə alaq ki, Prezident İlham Əliyev III Şuşa Qlobal Media Forumunda əbəs yerə bunları bildirməmişdi: "Ermənistanla sülh sazişi üzərində işləməliyik. O zaman müharibə bitmişdi və bir boşluq var idi. Mən təklif etdim ki, bir proses başlansın. Ona görə də biz sülh sazişinin mətnini hazırladıq və onu Ermənistana göndərdik. Onların müxtəlif şərtləri var idi və iki il ərzində heç bir irəliləyiş yox idi. Başlıca səbəb o idi ki, Ermənistan tərəfi həmin sülh sazişinin mətninə dırnaqarası "Dağlıq Qarabağ" məsələsini daxil etmək istəyirdi. Biz onlara dedik ki, baxın, birincisi, "Dağlıq Qarabağ" sizin təxəyyülünüzdə mövcuddur, bu, reallıqda mövcud deyil. Bu, Azərbaycanın bir parçasıdır və sülh müqaviləsinin mətninə daxili siyasətimizə aid olan bir məsələ daxil edilə bilməz. Bu müzakirə iki il sürdü və heç bir irəliləyiş olmadı. Bu əraziləri sentyabrda biz azad edəndən sonra, yalnız o zaman Ermənistan artıq bunun üzərində israr etmədi, çünki artıq bu mövzu bağlı idi. Yəni, nəyin üzərində israr edəcəksiniz? Yəni, demək olar ki, 2024-cü ilin yanvarında real danışıqlar başlanıldı və bizim hazırladığımız layihənin mətni üzərində iş getdi və o mətn razılaşdırıldı. Bundan sonra iki bəndi Ermənistan tərəfi əlavə etmək istəmirdi, ancaq Prezident Tramp qalib gələn kimi onlar o iki müddəanı əlavə elədilər. Mən cənab Paşinyana dedim ki, siz yəqin ümid edirdiniz ki, xanım Harris qalib gələcək və ağ at üzərində olacaqsınız. Ancaq bu, baş vermədi. Mən buna tamamilə əminəm ki, Tramp qalib olmasaydı, onlar bununla razılaşmayacaqdılar. Onlar layiq olduqlarından da, həzm edə biləcəklərindən də daha çox parça qoparmaq istəyirdilər. Bu gün artıq onlar həmin o iki bənd üzərində israr etmirlər".

Bir anlıq təsəvvür edək ki, ABŞ-da hakimiyyətə Tramp yox, xanım Harris gəlib. Heç şübhəsiz, birincinin prezident səlahiyyətlərinin icrasına başlamasına cəmi altı gün qalmış imzalanan ABŞ-Ermənistan Strateji Tərəfdaşlıq Xartiyası indi tam işlək halda olacaqdı. Axı bu sənəd elə-belədən ərsəyə gəlməmişdi. Bayden administrasiyası xartiyanın Trampın dövründə işləməyəcəyini bilirdi. Bunu Birləşmiş Ştatların erməni lobbi və diaspor təşkilatlarının təmsilçiləri də, ölkədəki ermənipərəstlər sürüsünün şivən konqresmenləri də gözəl dərk edirdilər. Onların düşüncələri sənədi dörd ildən sonra dövriyyəyə gətirmək idi. Xartiya üçün adın stratejilik mahiyyəti məhz bundan irəli gəlirdi.

Belə nəticəyə gəlirik ki, haqqında söz açdığımız sülh prosesini ləngitmək və Trampın mövqelərini zəiflətmək uzaq hədəfli ermənipərəst planın tərkib hissəsidir. Bu yerdə Prezident İlham Əliyevin III Şuşa Qlobal Forumunda səsləndirdiyi daha bir fikir də yada düşür: "Biz, həmçinin Azərbaycana və Ermənistana son nəticədə razılığa gəlməyə kömək etmək səylərinə görə ona (Prezindet Donald Tramp nəzərdə tutulur – red.) çox minnətdarıq. O, beynəlxalq təhlükəsizik üzrə daha qlobal məsələlərlə məşğul olmasına baxmayaraq, Cənubi Qafqazdakı şəraiti də diqqət mərkəzində saxlayır. Əlbəttə, onun qələbəsi bir sıra səbəblərdən Azərbaycanda bizi çox sevindirir. Təbii olaraq, arzulayırıq ki, o, işini sona çatdırsın, "Vaşinqton bataqlığı"nı dibinə qədər qurutsun.

Sonda belə nəticəyə gəlmək mümkündür ki, 87 ABŞ konqresmeninin Trampa Qarabağ ermənilərinin geri qayıdış hüququ ilə bağlı müraciəti "Vaşinqton bataqlığı"nda yer alanların çırpıntısıdır. Ancaq haqqında söz açacağımızı bildirdiyimiz iki məqam var. Elə isə əvvəlcə Birləşmiş Ştatlar ermənipərəstlərinin nəyi hesablamadıqlarına diqqət yetirək. Onlar niyəsə Azərbaycan hakimiyyətinin Bayden administrasiyasının hər cür təzyiqlərinə qarşı mətanətlə sinə gərdiyini yaddan çıxarırlar. Yəni, anlamırlar ki, ölkəmiz 1992-ci ildəki deyil və artıq bizə qarşı hansısa sərsəm qanunvericilik aktları ilə mübarizə aparmaq və bu yolla erməni avantürizminə qol-qanad vermək mümkünsüzdür.



Bəli, 907-ci düzəliş kimi mənfur qanunvericilik təşəbbüsünün həyata keçməsi işğalçıda əməlinin cəzasızlığına əminlik yaratmış və bu əminlik o zamankı danışıqları nəinki heçə endirmiş, üstəlik Ermənistanın yeni qəsbkarlığına stimul yaratmışdı. Düşünmək olar ki, üzərindən otuz ildən artıq müddətin keçməsinə baxmayaraq, ABŞ-dakı eyni qüvvələr yenə "fəallıqlarını" qoruyurlar. Fəqət, onların hesablamadıqları bir məqam var ki, bu barədə də sonda söz açacağıq.

Birmənalı şəkildə demək olar ki, xaricdəki erməni diasporu həmişə Ermənistanı müharibəyə sürükləyib, bunun üçün maliyyə və siyasi dəstək verib. Onu da əminliklə bildirmək mümkündür ki, ölkənin bu gün düşdüyü acınacaqlı durumun əsas günahkarlarından biri də məhz həmin diaspordur. Amma bir məqam var: Erməni diasporu, bir qayda olaraq, rəsmi İrəvanla qarşılıqlı əlaqədədir. Onları bir-birindən ayırmaq mümkünsüzdür.

Qeyd edək ki, D.Tramp ilk prezidentliyi dönəmində, ümumən, dünyada yaşanan proseslərə münasibətdə, müəyyən qədər, loyallıq göstərmişdi. Ermənistan-Azərbaycan münaqişəsinə yanaşma da bu baxımdan fərqlənmirdi. Nəticə etibarilə Tramp administrasiyası İkinci Qarabağ Müharibəsi zamanı, böyük ölçüdə, neytral qaldı. Azərbaycanın öz ərazilərini azad etməsi isə ABŞ-ın erməni lobbisini qəzəbləndirdi. Bu lobbinin təmsilçiləri anti-Tramp tezislərini işə saldılar. Onlar yenə "iş başındadırlar" və rəsmi Vaşinqtonu Azərbaycana təzyiqə çağırırlar.

Konqresmenlərin ermənilərin Qarabağa qayıdışı kimi paslanmış klişeni gündəmə gətirmələri diqqət çəkməyə bilməz. Nəzəri yanaşsaq, əgər qayıdış olacaqsa, proses hansısa əlahiddə təminat əsasında gerçəkləşməyəcək. Çünki əlahiddəlik Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini heçə saymaq, həmçinin, gələcəkdə işğalçılıq niyyətləri naminə tutacaq yerdir. Ölkəmiz, heç bir halda, məsələnin belə bir qoyuluşunu əsla qəbul etməz. Bu, beynəlxalq hüquq baxımından da yolverilməzdir.

İkinci məqam isə bilavasitə Ermənistan hakimiyyətini özü ilə bağlıdır. Əvvəldə rəsmi İrəvanın xaricdəki erməni lobbi və diaspor təşkilatları ilə müştərək fəaliyyətdə olduğunu əbəs yerə vurğulamadıq. Heç şübhəsiz, bu fəaliyyət yenə var. Tam aydındır ki, baş nazir Nikol Paşinyan administrasiyası Azərbaycanın iki şərtini qəbul etməkdən boyun qaçırır. Yəni, rəsmi İrəvan nə konstitusiya dəyişikliyinə getməyi, nə də ATƏT-in Minsk qrupunun ləğvini istəyir. Üstəlik, Azərbaycan-Ermənistan sülh prosesinin Zəngəzur dəhlizi gündəmi də var. Erməni iqtidarı ərazi bütövlüyü və suverenlik klişesi ilə Naxçıvana maneəsiz yol məsələsinə qarşı çıxır. İş o yerə çatıb ki, Paşinyan Rusiyaya səfərə yollanır və bu ölkə Prezidentinin mətbuat katibi Dmitri Peskov Zəngəzur dəhlizi kontekstində Nikol və tərəfdarlarının klişelərini təkrarlayır. O bildirir ki, Bakı-İrəvan münasibətləri baxımından suverenlik önəmli məsələdir.

Deməli, hər şey aydındır. Ermənistan hakimiyyəti sülhdən yayınmaq üçün bir yandan Moskvaya sığınır, digər tərəfdən isə ABŞ-dakı erməni lobbisini hərəkətə keçirir. Əlbəttə, bu, İrəvanın növbəti dəfə illüziya bataqlığına yuvarlanmasından başqa bir şey deyil. Ən sonda bunu da deyək: Paşinyan administrasiyası tarixi sülh şansından istifadə etmirsə, hansısa oyunlara baş vurub qeyri-səmimi davranırsa, Ermənistan qarşıdakı daha acınacaqlı aqibətə hazır olmalıdır.

***Əvəz RÜSTƏMOV***
***XQ***

# Qərbin insan haqlarına ikili baxışı

**Məhbusların sayı ilə bağlı rəqəmlər təkcə sosial-iqtisadi göstərici deyil, eyni zamanda, beynəlxalq münasibətlərdə siyasi təzyiq vasitəsinə çevrilə bilir. Xüsusilə son dövrlərdə bəzi beynəlxalq təşkilatlar penitensiar statistikanı kontekstdən çıxararaq Azərbaycanı tənqid hədəfinə çeviriblər. Onlar ölkəmizdə məhbusların sayı və saxlanma şəraiti ilə bağlı qərəzli və reallıqdan uzaq məlumatlar yaymaqla ictimai rəyə təsir göstərməyə çalışırlar.**

Halbuki, bu sahədə Qərb ölkələrinin özlərində vəziyyət heç də ürəkaçan deyil. Əksinə, beynəlxalq statistika göstərir ki, dünyanın ən çox məhbus saxlayan ölkələri sırasında ABŞ və digər Qərb dövlətləri ilk sıralarda qərarlaşıblar. 2025-ci ilin əvvəlinə olan rəsmi məlumata əsasən, ABŞ-da 2,2 milyondan çox insan həbsxanalarda saxlanılır. Bu, dünya üzrə bütün məhbusların təxminən 25 faizinə bərabərdir. Üstəlik, orada hər 100 min nəfərə düşən məhbus sayı 541 nəfərdir ki, bu göstəriciyə görə dünyada ilk beşliyə daxildir.

...sxanalarda hər 100 yerə 103 məhbus düşür. Fransada və Yunanıstanda bu göstərici 110 nəfərdən çoxdur. Artıq Avropanın özündə son illər həbsxana sıxlığında artım müşahidə olunur və 2024-cü ildə orta sıxlıq 100 nəfərə yaxınlaşıb. Göründüyü kimi, ölkəmizdə vəziyyət Avropanın qabaqcıl ölkələrinin bəzisindən yaxşıdır.

Aydın Quliyevin sözlərinə görə, məsələyə daha geniş kontekstdə baxdıqda, məhbus statistikası üzərindən təzyiq göstərmək klassik Qərb alətlərindən birinə çevrilib: "İnsan hüquqları, söz azadlığı, həbsxana şəraiti siyasi məqsədlər üçün seçilərək, selektiv və qərəzli şəkildə gündəmə gətirilir. Məqsəd isə Azərbaycana qarşı mənfi rəy formalaşdırmaq, onun müstəqil siyasətinə təsir göstərməkdir".



Əhalinin sayına nisbətdə ən çox məhbus isə Salvadordadır. Mərkəzi Amerika ölkəsində hər 100 min nəfərə 1659 məhbus düşür. Növbəti yerləri Kuba (794 nəfər) və Ruanda (620 nəfər) tutur. Çində isə rəsmi statistikaya əsasən, təxminən 1,69 milyon məhbus var. Lakin 100 min nəfərə düşən məhbus sayı cəmi 119 nəfərdir (119-cu yer). Rusiyada isə hər 100 min nəfərə 300 məhbus düşür və ölkə "qara siyahı"da 35-ci yerdə qərarlaşıb. Belarusda bu göstəricilər isə müvafiq olaraq 345 və 22-dir.

Avropa Şurasına üzv 51 ölkənin həbsxanalarında, ümumilikdə, bir milyondan çox məhbus var. Bəs ölkəmizdə nə qədər məhbus var?

Son statistik məlumatlara görə, Azərbaycanda məhbusların sayı 24 minə yaxındır. Ölkənin 10 milyon 150 min nəfərlik əhalisini nəzərə alaraq, bu, hər 100 min nəfərə 236 məhbus deməkdir. Bu göstərici ilə Azərbaycan dünyada 40–45-ci yerlər arasında qərarlaşıb. Avropa Şurasının "SPACE I – 2024" hesabatına görə isə Azərbaycanda hər 100 min nəfərə 264 məhbus qeydə alınıb. Rəqəm şişirdilib. Bu, dünya göstəricisi ilə müqayisədə orta rəqəm olsa da, bunu Avropa Şurasına üzv ölkələr arasında ikinci ən yüksək göstərici kimi "gözə" soxmağa çalışırlar. Birinci yerdə hər 100 min nəfərə 356 məhbus göstəricisi ilə Türkiyə dayanır.

Qərb institutlarının Azərbaycanla bağlı penitensiar hesabatlarını birmənalı qarşılamaq mümkün deyil. Maraqlıdır ki, bu yanaşmada ABŞ və digər qeyri-avropa ölkələrinin statistikası ya nəzərə alınmır, ya da qabardılmır. Amma orta statistik rəqəmə sahib Azərbaycanı hay-küylə məhbusların ən çox olduğu ölkə kimi təqdim edilməyə çalışılır.

Əslində, Azərbaycanın ümumi məhbus sayı ölkə əhalisinin 0,23 faizini keçmir. Lakin bu kimi məlumatlar bəzi beynəlxalq təşkilatlar tərəfindən təhrif edilərək, ölkəmizin nüfuzuna xələl gətirmək məqsədilə istifadə olunur.

**Politoloq Aydın Quliyev XQ-yə** bildirdi ki, bu yanaşma Azərbaycana qarşı apardığı növbəti informasiya avantürasıdır: "Qərbin bir çox ölkələrində göstəricilər daha yüksəkdir. Ancaq bu ölkələrlə bağlı ritorika daha mülayim olur, çünki ya Aİ-yə üzv olmaq istəyirlər, ya da NATO partnyorlarıdır. Azərbaycan isə müstəqil və balanslı xarici siyasət yürüdən, enerji təhlükəsizliyində vacib rol oynayan, regionda geosiyasi sabitliyin dayağı olan ölkədir. Aİ-nin bu statusdan narahatlıq keçirməsi və daxili statistik göstəriciləri siyasi təzyiq vasitəsinə çevirməsi başadüşüləndir".

Onu da qeyd edək ki, həbsxana sıxlığı məsələsində də Azərbaycan digər Qərb ölkələri ilə müqayisədə fərqlənmir. "SPACE I – 2024" hesabatına görə, hazırda həbsxanalarda hər 100 yerə 103 məhbus düşür.

Politoloq onu da qeyd etdi ki, Azərbaycanda məhbusların hüquqları həm qanunvericilik, həm də praktiki səviyyədə qorunur: "Konstitusiya və Cinayət Prosessual Məcəllə bu hüquqları tam şəkildə təmin edir. Məhbuslar işgəncə və qeyri-insani rəftardan qorunur, hüquqi yardım, tibbi xidmət, ailə ilə ünsiyyət və dini inanclarını azad şəkildə yaşamaq hüququna malikdirlər. Son illərdə bu hüquqların təmin olunması üçün geniş islahatlar həyata keçirilib. Müasir standartlara uyğun cəzaçəkmə müəssisələri inşa olunub, mövcud müəssisələr yenilənib, tibbi xidmətlər təkmilləşdirilib. Məhbuslara təhsil almaq, peşə kurslarına qatılmaq, əmək fəaliyyətində iştirak etmək və psixoloji reabilitasiya keçmək üçün imkanlar yaradılıb. Bu tədbirlər yalnız hüquqların qorunması deyil, həm də cəmiyyətə reinteqrasiyanın təmin olunması məqsədi daşıyır. Azərbaycan dövləti penitensiar sistemin humanistləşdirilməsi istiqamətində də ardıcıl addımlar atır. Lakin bu inkişaf beynəlxalq qurumların bəzi hesabatlarında ya nəzərə alınmır, ya da bilərəkdən görməzdən gəlinir".

Nəticə etibarilə Azərbaycan penitensiar sistemi dünya üzrə orta göstəricilərə malik olmaqla yanaşı, modernləşmə və humanistləşmə baxımından da inkişaf



yolundadır. Bu sahədə atılan addımların məqsədi yalnız məhbusların hüquqlarını qorumaq deyil, eyni zamanda onların cəmiyyətə reinteqrasiyasını təmin etməkdir. Qərəzli yanaşmalara baxmayaraq, ölkədə bu istiqamətdə müsbət dinamika müşahidə olunur və islahatlar ardıcıl şəkildə davam etdirilir.

Beləliklə, dünyada məhbus statistikasına dair yayımlanan rəqəmlər bəzən gerçək vəziyyəti əks etdirməkdən daha çox, siyasi məqsədlərlə formalaşdırılmış ictimai rəyin bir parçasına çevrilir. Azərbaycana qarşı son dövrlərdə beynəlxalq hesabatlar çərçivəsində səsləndirilən iddialar da bu qəbildəndir. Bəzi Qərb institutları penitensiar göstəriciləri əsas götürərək, Azərbaycanın ünvanına qərəzli yanaşmalar nümayiş etdirirlər. Halbuki real mənzərə onların dediyindən fərqlidir. Azərbaycanda məhbusların hüquqları həm qanunla qorunur, həm də dövlət səviyyəsində bu sahədə islahatlar ardıcıl olaraq həyata keçirilir. Azərbaycanda Qərb ölkələrindən fərqli olaraq, heç kim siyasi, irqi, etnik və ya dini motivlərə görə ayrı-seçkiliyə məruz qalmır. Budur bizin üstünlüyümüz.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# III Şuşa Qlobal Media Forumu: Yeni dövrün iqtisadi manifesti

**III Şuşa Qlobal Media Forumunda Prezident İlham Əliyevin tarixi çıxışı Azərbaycanın postkonflikt iqtisadi siyasətinin yalnız strateji konturlarını deyil, həm də onun düşünülmüş, mərhələli və dərin dövlətçilik fəlsəfəsinə əsaslanan inkişaf modelini nümayiş etdirdi. Bu model dövlətin iqtisadi planlaşdırmada təkcə mövcud imkanlara deyil, geosiyasi reallıqlara, resursların dayanıqlı istifadəsinə, beynəlxalq iqtisadi tərəfdaşlığın şaxələndirilməsinə və texnoloji transformasiyaya əsaslanaraq qərar verməsini təsdiqləyir.**

**Prezidentin nitqi klassik "siyasi proqram" anlamından çox, yeni sürətlə dəyişən dünyada modernizasiyanın manifesti funksiyasını yerinə yetirdi. Azərbaycanın bu gün həyata keçirdiyi iqtisadi modelin əsas sütunu – "transformativ dövlətçilik" yanaşmasıdır. Bu konsepsiyaya görə, dövlət təkcə mövcud iqtisadi strukturların idarəçisi deyil, struktur yaradan, sosial-iqtisadi dinamikanı formalaşdıran və onu geoiqtisadi kontekstdə qlobal miqyasda əlaqələndirən əsas aktordur. Prezident İlham Əliyevin çıxışı məhz bu fəlsəfənin canlı nümunəsidir.**



## Azərbaycanın postkonflikt gələcəyi: Forumdan görünən perspektivlər

III Şuşa Qlobal Media Forumu yalnız informasiya mühitinin rəqəmsal transformasiyası, süni intellektin mediaya təsiri və ya qlobal media dayanıqlılığı mövzularında müzakirələrin aparıldığı platforma deyil. Bu forum, əslində, Prezident İlham Əliyevin nitqi ilə ölkənin gələcək iqtisadi inkişaf trayektoriyasının intellektual baxımdan əsaslandırıldığı və dünyaya bəyan edildiyi strateji "beyin mərkəzi" funksiyasını daşıdı. Həmin çıxış Azərbaycanın bu gün və gələcəkdə hansı beynəlxalq mövqeləri hədəflədiyini aydın şəkildə ortaya qoydu. Əsas məqamlar aşağıdakılardır:

***Transformativ dövlətçilik: müasir iqtisadiyyatın əsas aktoru***

İlham Əliyevin nitqi dövlətin yalnız iqtisadi infrastruktur deyil, həm də sosial kapital, intellektual resurs və strateji etimad üzərində qurduğu kompleks və mərhələli inkişaf yanaşmasının ideoloji və praktiki əsaslarını ortaya qoydu. Burada xüsusi diqqət işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur kimi ərazilərin reinteqrasiyasına, enerji və nəqliyyat layihələri ilə regional qovşağa çevrilməsinə, habelə "yaşıl iqtisadiyyat" və rəqəmsal texnologiyalar vasitəsilə bilik və innovasiya əsaslı iqtisadiyyata keçidinə yönəlmişdir.

Forumda təqdim olunan yanaşma göstərdi ki, Prezidentin liderliyi ilə formalaşan iqtisadi çərçivə yalnız bərpa mərhələsindən ibarət deyil, həm də dövlətçilik fəlsəfəsinin sosial-iqtisadi əksi, başqa sözlə desək, güc, dayanıqlılıq və qlobal proyeksiya fenomenidir. Bu modeldə dövlət iqtisadi proseslərin tənzimləyicisi olmaqla yanaşı, böhranlara qarşı davamlı institusional platforma və geoiqtisadi oyunçu kimi çıxış edir.

Daha geniş anlamda, bu çıxış Azərbaycanın transformativ inkişaf strategiyasının məntiqi davamıdır: burada neft dövrünün kapitalını strateji planlama və yüksək əlavə dəyər yaradan sahələrə yönəltmək, postmünaqişə dövründə qlobal oyunçularla praqmatik tərəfdaşlıq qurmaq və ən əsası, qazanılan Zəfəri uzunmüddətli iqtisadi və institusional qələbəyə çevirmək əsas prinsiplər kimi müəyyənləşdirilmişdir.

***Zəfərdən inkişafa: postmünaqişə dövrünün modeli***

Forumda Prezident İlham Əliyevin çıxışı, əslində, müasir dövlətin postmünaqişə dövründə necə yenidən qurulmalı olduğuna dair nəzəri və praktiki çərçivəni təqdim etdi. Burada İlham Əliyevin iqtisadi baxışı klassik resursyönümlü inkişaf modelini aşaraq, sinerji əsaslı çoxsahəli inteqrasiya modelinə əsaslanır. Bu modelə görə, bərpa olunan enerji, nəqliyyat infrastrukturunun qlobal dəhlizlərə inteqrasiyası, rəqəmsal iqtisadiyyat, sosial kapital və etimad paralel şəkildə inkişaf etdirilir.

Bunun kökündə dövlətin müvəqqəti böhranlar qarşısında reaktiv deyil, təşəbbüskar və proaktiv davranması, uzunmüddətli məqsədləri qısamüddətli mənfəətə qurban verməməsi dayanır. Prezidentin forumdakı vurğuları göstərdi ki, Azərbaycan modeli – işğalın ağır mirasını tarixi yaddaşda qoruyaraq, onu iqtisadi inkişaf və regional reinteqrasiya ilə əvəzləyən nadir və uğurlu bir transformasiya nümunəsidir.

Bunun əsası odur ki, Azərbaycanın postmünaqişə inkişaf modeli fərqli nəzəriyyələrin sintezinə əsaslanır. Fridrix List "Milli iqtisadiyyatların müdafiəsi" nəzəriyyəsində göstərir ki, ölkələr öz inkişaf yollarını xarici güclərin açıq bazar diktələrindən qorumaq üçün milli iqtisadi quruculuğa və dövlət himayəsinə ehtiyac duyurlar. Azərbaycanın "yaşıl enerji", nəqliyyat və informasiya texnologiyalarında yaratdığı daxili ekosistem bu yanaşmaya cavab verir. Amartya Senin "İnkişaf azadlıqdır" yanaşmasına görə, inkişafın məqsədi, yalnız iqtisadi artım deyil, insanların seçim azadlığının, imkanlarının və sosial iştirakının genişlənməsidir. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən müasir sosial-iqtisadi infrastruktur layihələri bu fəlsəfənin iqtisadi təzahürüdür.

İlham Əliyevin çıxışı bu klassik nəzəriyyələrin çağdaş birləşməsini – yəni, güclü dövlət, inklüziv iqtisadiyyat və beynəlxalq konstruktiv etimad formatını reallığa çevrilmiş formada təqdim etdi.

Tarixən münaqişələrə məruz qalmış müxtəlif ölkə təcrübələri göstərir ki, postkonflikt dövrlərində iqtisadi inkişafın ən ciddi problemi dövlətlərin resurs ayırmaqla bərpa mexanizmini yaratması deyil, həmin mexanizmin institusional və ictimai etimada əsaslanan uzunömürlü sistemə çevrilməsidir. Azərbaycan isə bu modeldə dövlət, cəmiyyət və bazar "üçlüyü" arasında real və sabit sinxronluq yaratmağa müvəffəq olmuşdur. Nəticə etibarilə, Prezident İlham Əliyevin Şuşa Forumundakı çıxışı Azərbaycanın iqtisadi sistemində "postkonflikt rasionalizmi" deyilən bir yanaşmanın bünövrəsini əks etdirir. Bu, eyni zamanda Azərbaycan dövlətçiliyinin çağdaş izahıdır: yəni, Zəfərdən inkişafa qədər formalaşmış strateji ardıcıllıqdır.

***Tarixdən dərs: postkonflikt modernizasiya nəyi tələb edir?***

Dünyanın müxtəlif bölgələrində postkonflikt bərpa proseslərinə nəzər salsaq, görərik ki, iki nümunə diqqətəlayiqdir. Bunlardan biri Bosniya və Herseqovinadır. Deyton sülh sazişindən sonra 10 il ərzində Avropa Birliyi və BMT-nin dəstəyi ilə təxminən maliyyə yardımı ayrıldı. Lakin bu yardımlar yerli idarəetmənin institusional zəifliyi səbəbilə davamlı iqtisadi sistem yaratmağa imkan vermədi. Digər nümunə kimi, Ruanda soyqırımından sonra Prezident Pol Kaqamenin liderliyi ilə inkişafyönümlü model ("2020-ci ilədək baxış" layihəsi) həyata keçirildi. Nəticədə, iqtisadiyyat orta hesabla hər il 7 faiz artdı, texnologiya, turizm və s. sahələrdə mühüm nəticələr əldə olundu.

Bu təcrübələr göstərir ki, postmünaqişə dövründə iqtisadi uğurun açarı yalnız donor dəstəyi və ya kapital axını deyil. Dövlətin transformasiya qabiliyyəti, liderin strateji ardıcıllığı müəyyən etmək və institusional quruculuq bacarığı əsas amillərdir. İlham Əliyevin çıxışı məhz bu baxımdan Azərbaycan modelinin müstəqil, milli və rasional əsaslara söykəndiyini aydın şəkildə nümayiş etdirdi.

***Qarabağ və Şərqi Zəngəzur: büdcə yükündən iqtisadi lokomotivə***

Prezident İlham Əliyevin forumdakı nitqi resurs zənginliyinin ağıllı idarəetmə ilə necə strateji üstünlüyə çevrilə biləcəyini aydın formada göstərdi. Qarabağın işğaldan azad edilməsi ilə bərabər başlayan bərpa və innovasiya dövrü artıq yalnız dövlət investisiya proqramları ilə deyil, həm də özəl sərmayələr, xüsusi iqtisadi zonalar və "yaşıl enerji" layihələri ilə strukturlaşır.

Prezident İlham Əliyev çıxışında açıq şəkildə göstərdi ki, Azərbaycanın Qarabağda apardığı işlər, ilk növbədə, sistemli bir strateji iqtisadi bərpa aktıdır. Postkonflikt regionların inkişafı ilə bağlı dünya təcrübəsində – məsələn, Ruanda, Bosniya və ya Kosovoda – iqtisadi reinteqrasiya çox vaxt gecikmiş və dayanıqsız formada aparılmışdı. Azərbaycan isə bu prosesə "sabitlik+innovasiya+enerji bərpası" formatında start verərək, postkonflikt regionların iqtisadi yenidənqurulmasında müstəqil və intellektual yol seçmişdir.

Prezident İlham Əliyevin vurğuladığı kimi, 2021-ci ildən etibarən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası, infrastrukturun qurulması və "Böyük Qayıdış" proqramının həyata keçirilməsi məqsədilə təxminən 19 milyard manat məbləğində dövlət vəsaiti ayrılmışdır. 2025-ci il üçün isə əlavə olaraq 4 milyard manat vəsaitin yönəldilməsi planlaşdırılır ki, bu da prosesin davamlılığını və genişlənməsini təmin edir.

Bərpa strategiyasının enerji komponenti də xüsusilə diqqətəlayiqdir. Bu çərçivədə 280 MVt gücündə su elektrik stansiyasının istifadəyə verilməsi, yalnız daxili tələbatı ödəməklə kifayətlənməyib, eyni zamanda bölgənin potensial enerji ixracatçısı kimi formalaşmasına zəmin yaradır.

Nəticə etibarilə, Qarabağ artıq uzun illər davam edən münaqişədən sonra dövlət büdcəsindən maliyyələşən bir ərazi deyil, öz resursları, istehsal potensialı və infrastruktur imkanları ilə iqtisadi töhfə verən, inteqrasiya olunmuş iqtisadi məkana çevrilməkdədir. Bu rəqəmlər eyni zamanda Con Bellamy Fosterin "yaşıl kapitalizm"i ilə milli modelin uyğunluğunun göstəricisidir. Belə yanaşma enerji suverenliyini artırmaqla yanaşı, xarici investisiya və texnoloji transferlər üçün də mühüm platforma yaradır.

***Zəngəzur dəhlizi: Regional tranzitdən qlobal iqtisadi arteriyaya***

İlham Əliyevin çıxışında xüsusi yer ayırdığı Zəngəzur dəhlizi iqtisadi və strateji baxımdan yalnız regional əlaqə vasitəsi deyil. O, həm də klassik iqtisadi nəzəriyyədə "pozitiv eksternalitetlər yaradan marşrutlar" konsepsiyasına (Paul Kruqman, Yeni iqtisadi coğrafiya) tam cavab verir. Bu dəhliz Qafqaz–Mərkəzi Asiya–Avropa makrozonasında yeni iqtisadi nizam arteriyasıdır. Şərqlə Qərbi, Mərkəzi Asiya ilə Aralıq dənizi limanlarını, hətta Çindən Avropaya qədər uzanan logistika zəncirlərini birləşdirən yüksək sinerjili bir sistemdir. Azərbaycanın təşəbbüs ilə həyata keçirilən Zəngəzur dəhlizinin ilkin mərhələdə 15 milyon ton yük potensialı yalnız region üçün deyil, Avropa və Asiya üçün də strateji enerji və logistika alternatividir.

Prezidentin qeyd etdiyi kimi, bu dəhliz təkcə Azərbaycanı Naxçıvanla deyil, Türkiyə, İran, Mərkəzi Asiya və Avropa ilə rəqəmsal və enerji əsaslı nəqliyyat əlaqələri ilə birləşdirəcək. Bu kontekstdə Zəngəzur dəhlizi artıq bir coğrafi yol yox, iqtisadi inkişaf vektorudur – ticarətin liberallaşdırılması, gömrük inteqrasiyası və rəqəmsal ticarət axınlarının sinxronlaşmasını təşviq edən bir platformaya çevriləcəkdir.

***COP29: "yaşıl güc"ün yeni məzmunu***

COP29-un irsi, Prezident Əliyevin qeyd etdiyi kimi, yalnız ekologiyaya yönəlmiş təşəbbüs deyil, həm də qlobal ədalət və resursun ədalətli bölgüsü ideyasının iqtisadi formullaşdırılmasıdır. İlham Əliyevin COP29-un irsinə verdiyi əhəmiyyət, Azərbaycanın artıq yalnız "faydalı qazıntı ölkəsi" stereotipindən çıxaraq qlobal yaşıl transformasiyanın fəal təşəbbüskarına çevrildiyini nümayiş etdirir. Tomas Pikettinin "Qlobal Cənub və Şimal arasında resurs ədalətsizliyi" nəzəriyyəsinə uyğun olaraq, COP29 zamanı 6-cı maddə (karbon bazarları) üzrə razılaşmanın əldə olunması və inkişaf etməkdə olan ölkələrə ayrılan maliyyə yardımının 3 dəfə artırılaraq 300 milyard ABŞ dollarına çatdırılması Azərbaycanın "ekoloji irəliləyiş"də əsas oyunçu kimi yüksəlidiyini təsdiqləyir.

Bu yanaşma "Yaşıl dövlətçilik" ("Green Statecraft") konsepsiyasının milli miqyasda realizə olunmasının əyani göstəricisidir. Əgər əvvəllər Azərbaycan yalnız enerji resursları ilə tanınırdısa, indi artıq ekoloji etimad və beynəlxalq iqlim etikasının qurucusu kimi çıxış edir.

***Bilik iqtisadiyyatı: süni intellektə strateji yanaşma***

Forumda texnoloji və rəqəmsal inkişaf istiqamətindəki fikirlər isə Prezidentin gələcək iqtisadi strategiyasının təbii resursdan intellektual resursa transformasiyasını təsdiqlədi. İlham Əliyevin vurğuladığı kimi, süni intellekt və informasiya texnologiyaları sahəsində aparıcı beynəlxalq şirkətlərlə əməkdaşlıq artıq başlanmışdır və bu, "ənənəvi iqtisadiyyat + innovasiya" hibrid modelinin əsasını təşkil edir. Beləliklə, Prezidentin vurğuladığı kimi, Azərbaycanın iqtisadi prioritetləri artıq faydalı qazıntıların kənarında, yüksək texnologiyalar – xüsusilə də rəqəmsal transformasiya, süni intellekt və informasiya təhlükəsizliyi sahələrində cəmləşir.

Nümunə olaraq, Estoniya və Sinqapur kimi ölkələr "Rəqəmsal Cəmiyyət" (Digital Nation) modelinə keçid zamanı informasiya suverenliyini iqtisadi suverenliklə birləşdirmişdilər. Azərbaycan isə, eyni zamanda, regional media dayanıqlılığı və informasiya təhlükəsizliyi sahəsində regional mərkəzə çevrilmək potensialını ortaya qoyur.

Rəqəmlərə əsaslansaq, son üç ildə Azərbaycanın İT sektorunda yaradılan əlavə dəyər orta hesabla hər il 14,4 faiz artım nümayiş etdirmişdir, Körfəz ölkələri və Mərkəzi Asiya isə İT xidmətləri ixracında əsas bazarlar kimi çıxış edir. Bu, intellektual istehsalın yeni ixrac növü olduğunu göstərir. Eyni zamanda, ölkə daxilində rəqəmsal savadlılıq və informasiya təhlükəsizliyi sahələrində yeni konseptual yanaşmalar hazırlanır.

Bu yanaşma, "İnformasiya iqtisadiyyatı + rəqəmsal inkişaf" konsepsiyasını nəzərdə tutur. Yəni, informasiya və texnologiya sahələrindəki inkişaflar dövlətin iqtisadi təsirini artırmaq üçün istifadə etdiyi "yumşaq güc"ün (soft power) rəqəmsal formasına çevrilir. Başqa sözlə, rəqəmsal alətlər vasitəsilə ölkə beynəlxalq səviyyədə təsir və nüfuz qazandıqca, bu, onun iqtisadi gücünü də artırır.

***Etimad əsaslı liderlik: Regionaldan qlobal iqtisadi tərəfdaşlığa***

Prezidentin çıxışında xüsusilə diqqətəlayiq olan yanaşma etibarlı tərəfdaşlıq və qarşılıqlı maraqlara əsaslanan çoxşaxəli iqtisadi əməkdaşlıq modelidir. İlham Əliyev həm region dövlətləri ilə (Türkiyə, Gürcüstan, Özbəkistan və s.), həm də qlobal güclərlə (Çin, AB, ABŞ) münasibətlərdə praqmatik və dayanıqlı əlaqələrin iqtisadi nəticə verən əsas siyasət olduğunu nümayiş etdirdi.

Məsələn, iqtisadi islahatlar çərçivəsində bu gün ölkənin xarici borcunun ümumi daxili məhsula nisbətinin 6.9 faiz olması, yoxsulluğun 49 faizdən 5 faizə endirilməsi, beynəlxalq iqtisadi reytinqlərdə ən qabaqcıl mövqelərdə qərarlaşma, habelə aparıcı iqtisadi güclərlə enerji və "yaşıl keçid" üzrə strateji sazişlər imzalaması bu etibarın iqtisadi göstəriciləridir. Eləcə də, Dövlət Neft Fondunun çevik və şəffaf idarəetməsi ilə ölkədə maliyyə sabitliyi və iqtisadi təhlükəsizlik uğurla qorunur. Bu göstəricilər ölkəmizin yeni iqtisadi inkişaf modelinin makrostabillik + geoiqtisadi təşəbbüskarlıq əsaslı olduğunu göstərir.

## Beş strateji sütun: Yeni iqtisadi modelin arxitekturası

İlham Əliyevin çıxışında təqdim olunan yanaşma Azərbaycanın inkişaf strategiyasının strukturlaşdırılmış və məqsədyönlü modelə əsaslandığını göstərir. Bu modelin beş əsas sütunu ölkənin uzunmüddətli inkişafını təmin etmək üçün qarşılıqlı əlaqəli və bir-birini tamamlayan sahələrə diqqət yetirir. Hər bir sütun ölkənin sosial-iqtisadi sabitliyini, geoiqtisadi mövqeyini və gələcəkdə inkişaf perspektivlərini gücləndirməyə yönəlmişdir:

**1. Sabitlik və təhlükəsizlik:** Bu sütun dövlətin işğaldan azad edilmiş ərazilərdə təmin etdiyi sülhə və sabitliyə əsaslanır. Sülh və sabitlik ölkənin daxili inkişafını təmin etmək, xarici investorlar üçün cəlbedici mühit yaratmaq və sosial rifahı qorumaq üçün vacibdir.

**2. Enerji və nəqliyyat suverenliyi:** Zəngəzur dəhlizi, müasir infrastrukturlar və yaşıl enerji istehsalı ilə ölkənin strateji mövqeyinin gücləndirilməsi bu sahənin əsas məqsədidir. Azərbaycanın enerji və nəqliyyat sahələrindəki suverenliyi onun regional və qlobal geoiqtisadi nüfuzunu artırır.

**3. Rəqəmsallaşma və texnologiya:** Süni intellekt və İT sektorunda aparıcı beynəlxalq şirkətlərlə əməkdaşlıq və rəqəmsal media mühitinin inkişafı ölkə iqtisadiyyatını müasir texnologiyalarla inteqrasiya etməyə və qlobal rəqabətə uyğunlaşdırmağa yönəlir. Bu yanaşma həm də rəqəmsal iqtisadiyyatın inkişafını təmin edir.

**4. Çoxvektorlu iqtisadi əməkdaşlıq**: Azərbaycanın Çin, ABŞ, Avropa İttifaqı, Türkiyə və İslam dünyası ilə balanslaşdırılmış və strateji iqtisadi əməkdaşlıq qurması ölkənin beynəlxalq aləmdə nüfuzunu artırır. Bu yanaşma ölkənin müxtəlif regional və qlobal maraqları önləyən iqtisadi siyasət yürütməsini təmin edir.

**5. İnsan kapitalı və sosial inklüzivlik**: İşğaldan azad edilmiş ərazilərdə müasir sosial-iqtisadi infrastruktur quruculuğu və Böyük Qayıdış proqramları ilə sosial inklüzivlik və insan kapitalının inkişafı nəzərdə tutulur. Bu sahə sosial sabitliyi və ölkə vətəndaşlarının rifahını gücləndirir.

Bütün bu yanaşma "məqsədyönümlü dövlət" (mission-oriented state) modelinə uyğun gəlir. Mariana Mazzukato tərəfindən təklif olunan bu modeldə dövlət yalnız tənzimləyici rol oynamır, eyni zamanda innovasiyanı təşviq edən, resursları strateji istiqamətləndirən və gələcəyin bazarlarını formalaşdıran əsas iqtisadi aktor kimi çıxış edir. Bu yanaşma, Azərbaycanın həm iqtisadi, həm də sosial inkişafında dövlətin mərkəzi rolunu vurğulayır və gələcəkdə uğurlu və davamlı inkişafı təmin etməyə yönəlmişdir.

## Strateji liderlik və öncəgörmə bacarığı

Prezident İlham Əliyevin III Şuşa Qlobal Media Forumundakı çıxışı Azərbaycanın ağıllı, mərhələli və davamlı transformasiya modelinə əsaslanan inkişaf trayektoriyasını nümayiş etdirdi. Bu çıxışda ölkənin postmünaqişə dövründə artıq post-sənaye mərhələsinə keçdiyi, yəni rəqəmsal, "yaşıl" və bilik əsaslı iqtisadi modelə yönəldiyi vurğulandı.

Əgər əvvəllər Azərbaycan münaqişədən çıxan ölkə kimi tanınırdısa, bu gün o, sülhün və sabitliyin daşıyıcısı, enerji təhlükəsizliyinin aparıcı aktoru və intellektual iqtisadi modelin qurucusudur. Prezidentin strateji yanaşması göstərir ki, uğurlu iqtisadi inkişaf yalnız mövcud alətlərlə deyil, eyni zamanda qabaqlayıcı düşüncə və gələcək tendensiyaları əvvəlcədən görmək bacarığı ilə mümkündür.

Forumda təqdim olunan iqtisadi baxış sübut edir ki, Azərbaycanın inkişafı enerji, nəqliyyat, rəqəmsal texnologiyalar, yaşıl enerji və insan kapitalı sahələrində proaktiv siyasətə əsaslanır. Süni intellekt və yaşıl keçid kimi sahələrə inteqrasiya isə ölkəni müasir texnoloji iqtisadi modelə doğru aparır.

Prezident İlham Əliyevin çıxışı yalnız davamlı inkişafı deyil, strateji və təhlükəsiz inkişaf modelini də önə çəkir. Bu baxış Azərbaycanın gələcək onilliklər üzrə iqtisadi inkişaf xəritəsini müəyyənləşdirir. Liderliyin əsas uğur düsturu isə "zamanı qabaqlamaq", yəni çağırışlardan əvvəl strategiya qurmaq, proseslərdən əvvəl mövqe tutmaq və nəticələrdən əvvəl model yaratmaq bacarığıdır. Ötən illərin təcrübəsi bir daha göstərdi ki, ölkənin iqtisadi inkişafında və qlobal nüfuz qazanmasında bu faktorlar mühüm rol oynamışdır. Ölkə liderinin belə yanaşması XXI əsrin ən effektiv idarəetmə meyarlarından biri kimi Azərbaycanın iqtisadi yüksəlişini təmin edən mühüm sütundur.

***Şaiq ADIGÖZƏLOV,***
***iqtisad üzrə fəlsəfə doktoru***

# Azərbaycan maliyyə sabitliyi məkanıdır

(əvvəli 1-ci səhifədə)



Dövlətimizin başçısı həyata keçirilən məqsədyönlü iqtisadi siyasət nəticəsində regional gücə çevrilən ölkəmizin artıq dünyada maliyyə sabitliyi, aşağı borcluluq səviyyəsi və dayanıqlı inkişaf templəri ilə diqqət çəkdiyini dəfələrlə bildirib. III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüş zamanı da Prezident İlham Əliyev respublikamızın borc göstəricilərindəki uğurlarını beynəlxalq miqyasda müqayisəli təhlil fonunda diqqətə çatdıraraq Azərbaycanın xarici borcunun ÜDM-in cəmi 6,9 faizi səviyyəsində olduğunu və bunun inkişaf etmiş bir sıra ölkələrlə müqayisədə xeyli aşağı göstərici sayıldığını xüsusi vurğulayıb.

Prezident İlham Əliyev sözügedən forumda açıq və qətiyyətli mövqe sərgiləyərək qeyd edib: "Əlbəttə ki, kim bizi tənqid edir, onların məhz xarici borcu ÜDM-in 100 faizi qədərdir və ondan da artıqdır. Biz yoxsulluğu 5 faizə salmışıq və Fransaya gəldikdə, bu, xeyli çoxdur". Bu çıxış həm ölkəmizin uğurlu iqtisadi modelinin əsas göstəricilərini, həm də bəzi dövlətlərin Azərbaycanı tənqid edərkən öz daxili vəziyyətlərinə baxmamasını bir daha üzə çıxarır.

Maliyyə Nazirliyinin yaydığı yuxarıda xatırlatdığımız son rəsmi açıqlama da ölkəmizin borc siyasətinin necə şəffaf və məsuliyyətli şəkildə idarə olunduğunu bir daha göstərir. Bununla bağlı xatırladılan rəqəmlər isə Azərbaycanın borc yükünə məsuliyyətli yanaşdığını, borc öhdəliklərini vaxtında və tam şəkildə yerinə yetirdiyini sübut edir. Yeri gəlmişkən, dövlət büdcəsində bu xərclər əvvəlcədən planlaşdırılır və icra prosesi ciddi nəzarət altında aparılır. Bununla yanaşı, bu göstəricilər onu da deməyə əsas verir ki, ölkəmiz borc məsələsində riskləri minimallaşdırmaqla yanaşı, eyni zamanda, borclanmanı yalnız zəruri və səmərəli layihələr üçün tətbiq edir.

Azərbaycanın xarici dövlət borcunun həcminin hazırda 5 milyard 10,7 milyon ABŞ dolları təşkil etməsi isə həm nominal, həm də ÜDM-ə nisbət baxımından beynəlxalq standartlara görə qənaətbəxş səviyyədir. Müqayisə üçün qeyd edək ki, bu göstərici dünyanın bir çox inkişaf etmiş dövlətlərində 80 – 120 faiz aralığında dəyişir və borc böhranı risklərini artırır. Digər tərəfdən, yuxarıda vurğuladığımız daxili dövlət borcu da tamamilə nəzarət olunan səviyyədədir. Belə ki, 2025-ci il 1 iyul tarixinə daxili dövlət borcu 17 milyard 177,4 milyon manat olmaqla, cari il üzrə proqnozlaşdırılan ÜDM-in 13,1 faizini təşkil edir. Bu rəqəmlər maliyyə bazarlarında etimadı gücləndirir, investorların Azərbaycan iqtisadiyyatına marağını artırır və ölkəmizin kredit reytinqinə müsbət təsir göstərir.

Aşağı səviyyəli borcluluq Azərbaycanın maliyyə müstəqilliyini və suverenliyini təmin edən mühüm amil olaraq çıxış edir. Xarici borca həddindən artıq bağlı olmayan ölkə həm daxili siyasətdə, həm də beynəlxalq münasibətlərdə daha müstəqil qərarlar qəbul edə bilir. Bu, xüsusilə geopolitik çağırışların artdığı bir dövrdə strateji əhəmiyyət daşıyır.

Prezident İlham Əliyevin iqtisadi siyasəti nəticəsində dövlət borclanması yalnız məhsuldar və iqtisadi faydalılığı yüksək olan layihələr üçün cəlb olunur. Bu, eyni zamanda borcun geri qaytarılmasını reallaşdıran maliyyə axınlarını da nəzərə almağa imkan verir. Beləliklə, Azərbaycan həm borclanmanın miqyasını, həm də məqsədlərini optimal şəkildə tənzimləyir.

Dövlət başçısının diqqətə çatdırdığı digər mühüm məqam isə yoxsulluğun əhəmiyyətli dərəcədə azalması ilə bağlıdır. Belə ki, Prezident İlham Əliyev qeyd edib: "Biz yoxsulluğu 5 faizə salmışıq". Bu, təkcə makroiqtisadi göstəricilər baxımından deyil, həm də insan kapitalının inkişafı, sosial ədalət və inklüziv iqtisadiyyatın təşviqi baxımından olduqca əhəmiyyətlidir. Azərbaycanın sosial-iqtisadi inkişaf modelləri sübut edir ki, ölkədəki iqtisadi artım təkcə statistik rəqəmlərdə deyil, həm də əhalinin gündəlik rifahında öz əksini tapır. Bu isə dövlətin vətəndaş yönümlü siyasət apardığını göstərir.

Beləliklə, Prezident İlham Əliyev III Şuşa Qlobal Media Forumundakı çıxışında Azərbaycanın iqtisadi modelinin əsas dayaq sütunlarını qlobal auditoriyaya təqdim etdi. Aşağı borcluluq səviyyəsi, maliyyə sabitliyi, sosial rifahın yüksəldilməsi və maliyyə intizamının təmin olunması bu modelin əsas komponentləridir. Bütün bunlar isə Azərbaycanı regionda fərqləndirir, ölkəmizin beynəlxalq mövqeyini gücləndirir və gələcək üçün dayanıqlı inkişafın əsaslarını möhkəmləndirir. Azərbaycanın bu uğurlu iqtisadi siyasəti həm ölkə daxilində sabitlik yaradır, həm də xarici investorlar üçün etibarlı mühit formalaşdırır. Dövlətimizin başçısının apardığı siyasət nəticəsində Azərbaycan bu gün nəinki Cənubi Qafqazın lideri, eyni zamanda, beynəlxalq iqtisadi və siyasi arenada etibarlı tərəfdaş kimi qəbul edilir.

Xatırladaq ki, Azərbaycanın borc göstəricilərinin aşağı səviyyədə olması beynəlxalq maliyyə institutları tərəfindən də yüksək qiymətləndirilir. Ölkəmizin mötəbər beynəlxalq reytinq agentlikləri tərəfindən "sabit" və ya "müsbət" kredit proqnozları ilə qiymətləndirilməsi, məhz borc sabitliyinin və dövlət maliyyə siyasətinin nəticəsidir. Bu amil, eyni zamanda, xarici investorlar üçün Azərbaycanın iqtisadi mühitini daha cəlbedici edir.

Borc siyasətinin uğurlu istiqamətlərindən biri də onun məqsədyönlü istifadə prinsipi ilə bağlıdır. Azərbaycan dövləti aldığı borcları yalnız strateji infrastruktur layihələrinin maliyyələşdirilməsinə, sosial-iqtisadi inkişafa və uzunmüddətli iqtisadi səmərəliliyi təmin edəcək sahələrə yönəldir. Bu yanaşma borcların gələcəkdə özünü iqtisadi artım və sosial rifah şəklində doğrultmasına xidmət edir.

Azərbaycanın borc strategiyası həm də uzunmüddətli maliyyə sabitliyi ilə bağlı milli maraqlara söykənir. Hazırda qəbul edilmiş "Orta və uzun müddətli dövlət borcunun idarə edilməsi strategiyası"na uyğun olaraq, dövlət borcunun ÜDM-ə nisbəti məhdudlaşdırılır, valyuta riskləri minimallaşdırılır, öhdəliklərin müddət strukturu optimallaşdırılır və faiz yükü idarə olunacaq səviyyədə saxlanılır. Bu sənədin tətbiqi nəticəsində Azərbaycanın dövlət borcu tədricən azaldılır və büdcə sabitliyi gücləndirilir.

Digər bir vacib məqam isə ondan ibarətdir ki, borc göstəricilərinin bu səviyyədə saxlanılması makroiqtisadi sabitlik üçün mühüm təminatdır. Çünki aşağı borc yükü inflyasiya risklərinin azalmasına, valyuta ehtiyatlarının qorunmasına və maliyyə intizamının güclənməsinə səbəb olur. Bu isə bütövlükdə ölkə iqtisadiyyatına olan etimadı artırır. Maliyyə siyasətində şəffaflıq və məsuliyyət prinsipləri Azərbaycan hökumətinin borc idarəçiliyində rəhbər tutduğu əsas dəyərlərdir. Dövlət borcu ilə bağlı məlumatlar mütəmadi olaraq ictimaiyyətə açıqlanır, hesabatlılıq təmin olunur və bu sahədə beynəlxalq tərəfdaşlarla əməkdaşlıq daha da genişləndirilir. Məhz bu amillər nəticəsində Azərbaycanın beynəlxalq maliyyə bazarlarında imici möhkəmlənir, yeni investisiya imkanlarının formalaşması üçün münbit zəmin yaranır.

Nəticə etibarilə, Azərbaycanın dövlət borcunun həm nominal, həm də ÜDM-ə nisbətdə aşağı səviyyədə olması, daxili və xarici borcun tam nəzarət altında idarə olunması, ölkəmizin iqtisadi dayanıqlığını və maliyyə etibarlılığını bir daha təsdiqləyir. Bu uğurlar müasir dövrün çağırışları fonunda Azərbaycanın öz milli maliyyə təhlükəsizliyini təmin etməkdə nə qədər iradəli və prinsipial siyasət yeritdiyini göstərir. Bu siyasətin davamlılığı, şübhəsiz ki, gələcək illərdə də ölkə iqtisadiyyatının möhkəmlənməsinə və dayanıqlı inkişafına xidmət edəcək.

# "Qoca" avtomobillər yollardan yığışır

## *İndiyədək 7 min 860 maşın metala çevrilib*



**Nəqliyyat vasitələrinin utilizasiyası üzrə operator olan "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti tərəfindən növbəti utilizator reyestrdə qeydiyyata alınıb. Bu, "Fast Track" MMC şirkətidir.**

Qurumdan verilən məlumata görə, yeni utilizatora qeydiyyata alınması barədə müvafiq sənəd təqdim olunub və bununla da ölkə üzrə bu sahədə fəaliyyət göstərən şirkətlərin sayı 3-ə çatıb. "Fast Track" şirkəti utilizator fəaliyyətini Abşeron rayonunda həyata keçirəcək. Bu da, nəqliyyat vasitələrinin utilizasiyaya təqdim olunmasında vətəndaşlar üçün əlçatanlığı artıracaq. Belə ki, vətəndaşlar artıq Bakı və Gəncə ilə yanaşı, Abşeron rayonunda da nəqliyyat vasitələrini yeni utilizasiya məntəqəsinə təhvil verə biləcəklər.

Xatırladaq ki, nəqliyyat vasitələrinin utilizasiyaya verilməsi könüllülük prinsipi əsasında aparılır və məcburi xarakter daşımır. Eyni zamanda, utilizator kimi çalışmaq niyyətində olan sahibkarlar da bu fəaliyyəti həyata keçirmək barədə müstəqil olaraq özləri qərar verirlər. Belə ki, müvafiq maddi-texniki imkanlara malik olan sahibkarlar əvvəlcə "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinə müraciət edir və zəruri tələblərə cavab verməsi müəyyənləşdirildikdən sonra reyestrdə qeydiyyata alınır.

Köhnə, istismara yararsız avtomobilini utilizasiyaya təqdim etmək istəyən vətəndaşlar nəzərə almalıdır ki, əvvəlcə nəqliyyat vasitəsi "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilən qaydada dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılmalıdır. Daha sonra, zəruri məlumatlar istifadəyə verilmiş www.nvu.gov.az portalına daxil edilməli və nəqliyyat vasitəsi müəyyən olunmuş vaxtda vətəndaşın seçdiyi utilizatora təhvil verilməlidir.

Yeri gəlmişkən, "Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanununun müddəalarına uyğun olaraq həyata keçirilən proses çərçivəsində ötən ilin oktyabr ayından indiyədək 7 min 860 nəqliyyat vasitəsi utilizasiyaya verilib. Ötən müddətdə köhnəlmiş və ya yararsız nəqliyyat vasitələrini təhvil verən ərizəçilərin bank hesabına 544 min manatdan çox birdəfəlik ödəniş köçürülüb, eləcə də Azərbaycan istehsalı olan 374 yeni nəqliyyat vasitəsinin güzəştli satışı həyata keçirilib.

# Neft Fondunun gəlirləri 11 faiz artıb

**2025-ci il iyun ayının sonuna Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) aktivləri 66,5 milyard ABŞ dollarına çatıb. Bu da ilin əvvəli ilə müqayisədə 10,8 faiz artım deməkdir. Məlumat üçün bildiririk ki, cari ilin yanvar-iyun aylarında fondun gəlirləri 8,8 milyard manat, xərcləri isə 7,3 milyard manat təşkil edib. Bu barədə məlumat ARDNF-in hesabatında yer alıb.**

Bildirilib ki, cari ilin ilk yarısında fondun neft-qaz sazişləri üzrə gəlirləri 5,7 milyard manat, investisiya gəliri isə 3,1 milyard manat təşkil edib. Məlumata əsasən, yanvar-iyun aylarında Dövlət Neft Fonduna "Azəri-Çıraq-Günəşli" (AÇG) neft-qaz yataqları blokundan və "Şahdəniz" qaz-kondensat yatağından 4 milyard 850,6 milyon manat vəsait daxil olub. Həmin vəsaitin 4 milyard 427,3 milyon manatı AÇG-dən əldə edilən gəlirlərin payına düşüb. Yerdə qalan 423,3 milyon manat vəsait isə "Şahdəniz" yatağından çıxarılan qaz və kondensatın satışından əldə olunub.

Hesabat dövrü ərzində ARDNF-nin 2025-ci il büdcəsinin icrası çərçivəsində 7 milyard 240 milyon manat vəsait dövlət büdcəsinə transfert edilib. "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın maliyyələşməsinə 4,2 milyon manat, "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2028-ci illər üçün Dövlət Proqramı" nın maliyyələşməsinə 20,1 milyon manat yönəldilib.

Dövlət Neft Fondu tərəfindən 2025-ci ilin yanvar-iyun ayları ərzində Azərbaycan Respublikası Mərkəzi Bankının vasitəçiliyi ilə həyata keçirilən hərraclarda 3 milyard 718,1 milyon ABŞ dolları məbləğində vəsait satılıb.



# Gilas bağları da sığortalanır



**Azərbaycanda dövlət dəstəyi ilə təqdim edilən aqrar sığorta mexanizmindən faydalanan fermer və təsərrüfatların sayı sürətlə artmaqdadır. Hazırda ölkədə əsas meyvəçilik məhsullarından olan gilas bağlarının sığortalanması və bu məhsul üzrə sığorta ödənişləri davam edir.**

Aqrar Sığorta Fondundan aldığımız məlumata əsasən, 2025-ci ilin ötən dövründə Azərbaycanda 15 rayon üzrə 110 fermer və təsərrüfat tərəfindən, ümumilikdə, 228 hektar sahədə gilas bağları sığorta edilib. Xatırladaq ki, ötən il fond tərəfindən 14 rayonda 119 hektar gilas bağı sığorta edilmişdi. Bu da təsərrüfat sahiblərinin dövlətin dəstəyi ilə ölkədə tətbiq edilən sığorta mexanizminə olan marağın getdikcə artması ilə bağlıdır. Gilas bağlarının ən çox sığorta edildiyi rayonlar isə Quba, Qusar, Xaçmaz, Ağdaş, Ağstafa, Tərtər və Şabrandır.

Sığortalanan bağlardakı məhsulun həcmi də artmaqdadır. Belə ki, 2024-cü ildə sığortalanan gilas bağlarının ümumi sığorta təminatı 1,4 milyon manat olmuşdusa, 2025-ci ildə bu rəqəm 3 dəfə artıb və 3,9 milyon manatlıq gilas məhsulu sığorta edilib.

Sığortalanan əkin sahələrinin genişlənməsi və əhatə olunan sığorta təminatının böyüməsi nəticəsində gilas bağlarından toplanan sığorta haqqının məbləği də artıb. Müqayisə üçün qeyd edək ki, ötən il sığortalanan gilas bağları üzrə sığorta haqqı 58 min manat olub. Qanunvericiliyə əsasən, bu məbləğin 50 faizi dövlət tərəfindən qarşılanır Bu isə o deməkdir ki, il ərzində fermerlər gilas bağlarının sığortası üzrə cəmi 29 min manat sığorta haqqı ödəyiblər. 2025-ci ildə isə sığotrtalanan gilas bağlarının sahəsinin genişlənməsi və məhsul həcminin artması ilə bağların sığortası üzrə ümumi sığorta haqqı 90 min manat təşkil edib. Burada dövlət tərəfindən ödənilən 50 faizlik hissəni nəzərə aldıqda fermerlərin ödədiyi sığorta haqqı cəmi 45 min manat olub.

Sığortalanan bağlarının artması ilə yanaşı, gilas bağları üzrə sığorta ödənişləri də çoxalmaqdadır. Aqrar Sığorta Fondu tərəfindən 2022-2023-cü illər əkin mövsümündə Xaçmaz, İsmayıllı və Qusar rayonlarında müxtəlif hadisələrdən zərər çəkmiş gilas bağı sahiblərinə 52,8 min manat sığorta ödənişi edilib. Həmin illərin əkin mövsümündə isə Ağstafa, Samux və Şəmkir rayonlarında baş vermiş hadisələr üzrə fermer və təsərrüfatlara, ümumilikdə 83,8 min manat sığorta ödənişi həyata keçirilib. Başqa sözlə, son 2 ildə gilas sahələri üzrə Aqrar Sığorta Fondu tərəfindən, ümumilikdə 136,6 min manat sığorta ödənişi edilib.

Hazırda Aqrar Sığorta Fonduna sığortalanmış gilas bağlarında müxtəlif hadisələr üzrə müraciətlər daxil olur. Müraciətlərin araşdırılması üçün ərazilər aqrar sığorta ekspertlərinə yönəldilib və onlar gilas bağlarında baş vermiş hadisələri araşdıraraq zərərləri hesablayırlar. Həmin sahələrdə ikinci dəfə, yəni məhsul yığımı ərəfəsində yekun qiymətləndirmə aparıldıqdan sonra dəymiş zərər dəqiq müəyyən ediləcək və buna uyğun sığorta ödənişi ediləcək. Ümumilikdə, 2025-ci il ərzində havaların əlverişsiz keçməsi ilə əlaqədar olaraq indiyədək 36 hektar gilas bağına zərər dəyməsi barədə Aqrar Sığorta Fonduna müraciət daxil olub.

Yeri gəlmişkən, meyvə bağlarının sığortasına fermerlərin artan marağını və təbiət hadisələrinin intensivliyini nəzərə alsaq, 2025-ci ildə meyvə bağları üzrə zərər ödənişlərinin daha da artacağı gözlənilir. Aqrar Sığorta Fondu hər il artmaqda olan iqlim və sair riskləri nəzərə alaraq meyvə bağı sahiblərini və fermerləri bir daha öz təsərrüfatlarını dövlət dəstəkli aqrar sığorta vasitəsilə qorumağa çağırır.

Qeyd edək ki, Aqrar Sığorta Fondu tərəfindən bitkiçilik sığortası çərçivəsində, ümumilikdə, 41 bitki növü üzrə 48 bitki məhsulu sığortalanır. Sığortalanan bitkilərin bir hissəsi meyvə ağaclarıdır. Hazırda Aqrar Sığorta Fondu tərəfindən ölkəmizdə əkilən, demək olar ki, bütün meyvələrin sığortalanması həyata keçirilir. Fond meyvə bağlarını və məhsulu dolu, fırtına-qasırğa, sel-subasma, normadan artıq qar yığıntaları, doludan keyfiyyət itkisi, şaxtavurma, vəhşi heyvanların hücumu, eləcə də 3-cü şəxslərin hərəkətləri, bitki xəstəlikləri və xüsusi təhlükəli zərərvericilərin hücumu kimi risklərdən sığorta edir.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 209 Bakı şəhəri, 14 iyul 2025-ci il**

**"Hüquqi şəxslərin dövlət reyestrinin aparılması, istifadəsi və mühafizəsi Qaydaları"nın, habelə hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestrinin aparılması ilə bağlı sənədlərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 aprel tarixli 70 nömrəli Q**ərarında **dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının 2022-ci il 16 dekabr tarixli 693-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 22 oktyabr tarixli 57-VIIQD nömrəli Qanununun tətbiqi və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 9 dekabr tarixli 242 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Hüquqi şəxslərin dövlət reyestrinin aparılması, istifadəsi və mühafizəsi Qaydaları"nın, habelə hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestrinin aparılması ilə bağlı sənədlərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 13 aprel tarixli 70 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 384 (Cild I); 2024, № 1, maddə 111, № 3, maddə 303, № 9, maddə 1090) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Qərarla təsdiq edilmiş "Hüquqi şəxslərin dövlət reyestrinin aparılması, istifadəsi və mühafizəsi Qaydaları" üzrə:

1.1. 1.3.1-ci yarımbənddə "dövlət reyestri Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin müəyyən etdiyi bölgü üzrə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri, Naxçıvan Muxtar Respublikasının ərazisində təsis edilən siyasi partiyalar, xarici ölkələrin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəlikləri istisna olmaqla," sözləri "(o cümlədən Naxçıvan Muxtar Respublikasının ərazisində təsis edilən siyasi partiyaların və xarici ölkələrin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərinin) dövlət reyestri Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikasının ərazisində təsis edilən" sözləri ilə əvəz edilsin;

1.2. 2.3.1-ci yarımbənddən "siyasi partiyaların," sözləri çıxarılsın;

1.3. aşağıdakı məzmunda 2.3.1-2-ci yarımbənd əlavə edilsin:

"2.3.1-2. siyasi partiyaların fəaliyyətinin dayandırılması və bərpa edilməsi barədə, habelə onlara edilmiş yazılı xəbərdarlıqlar və onların icrası barədə məlumatlar;";

1.4. 3.1.2-ci yarımbənddə "partiyada rəhbər orqanlarının" sözləri "partiyanın" sözü ilə əvəz edilsin;

1.5. aşağıdakı məzmunda 3.2.3-5-ci yarımbənd əlavə edilsin:

"3.2.3-5. siyasi partiyalarda - üzvlərin reyestri;";

1.6. 4.5-ci bəndə "hissədən" sözündən sonra ", siyasi partiyalara münasibətdə isə 3-cü hissədən" sözləri, "Məqsədi, əmlak vəziyyəti" sözlərindən sonra ", 3-cü hissə "Siyasi partiya üzvlərinin reyestri" sözləri əlavə edilsin;

1.7. 4.10-cu bəndə "Q) digər qeydlər" yarımbəndindən sonra "; SR) siyasi partiya üzvlərinin reyestri" yarımbəndi əlavə edilsin;

1.8. 6.3-cü bəndə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Siyasi partiyaların üzvlərinin reyestri barədə məlumatlar sorğu əsasında "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 15.9.1-ci, 15.9.2-15.9.4-cü və 15.9.7-ci maddələrində nəzərdə tutulmuş hallarda verilir.";

1.9. 6.6-cı bəndə "payları" sözündən sonra ", siyasi partiyaların üzvlərinin reyestri" sözləri əlavə edilsin;

1.10. 6.7-ci bəndə "Nazirliyinə" sözündən sonra ", siyasi partiyalara münasibətdə isə həmçinin Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına" sözləri əlavə edilsin;

1.11. 6.8-ci bənd üzrə:

1.11.1. birinci cümləyə "Nazirliyinə" sözündən sonra ", siyasi partiyalara münasibətdə isə həmçinin Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına" sözləri əlavə edilsin;

1.11.2. ikinci cümlə üçüncü cümlə hesab edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Siyasi partiyanın fəaliyyətinin dayandırılması barədə apellyasiya məhkəməsinin qərarı qüvvəyə mindiyi tarixdən 3 gün müddətində, həmçinin siyasi partiyanın ləğvi barədə qeyd hüquqi şəxslərin dövlət reyestrinə daxil edildiyi tarixdən 3 gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi bu barədə məlumatları öz rəsmi internet saytında dərc etdirir və (və ya) yayımlayır.".

2. Həmin Qərarla təsdiq edilmiş "Qeyri-kommersiya hüquqi şəxslərinin dövlət reyestr kitabı"na "III hissə Siyasi partiya üzvlərinin reyestri" əlavə edilsin:

"reyestr nömrəsi ________________
qeydiyyat tarixi ________________
**səhifə** ___________

Qeyri-kommersiya hüquqi şəxslərinin dövlət reyestr kitabı
III hissə
Siyasi partiya üzvlərinin reyestri

| Sıra nömrəsi | Siyasi partiyanın adı |
|---|---|
| | |
| | |

| Sıra nömrəsi | *Üzvün adı* | Soyadı | Atasının adı | Doğulduğu tarix | Qeydiyyat *ünvanı* | Qeydiyyatda olduğu partiyanın yerli təşkilatı (olduğu halda) | *Əlaqə telefon nömrəsi* |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | |
| | | | | | | | |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Qanuni nikah xalqımızın sağlam gələcəyini sığortalayır

**Qohum nikahlarının qadağan edilməsinə dair cəmiyyətin reaksiyası və qanunun əsaslandırılması ilə bağlı izahat-maarifləndirmə işi davam edir. Müsahibimiz Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin hüquqi təminat şöbəsinin müdiri Taliyə İbrahimova söhbətə uzun müzakirələrdən sonra qohum nikahların qadağasının qanuniləşdirilməsi və bununla bağlı mədəni, hüquqi və tibb yönlərdə zəruri tədbirlərin önəmini vurğulamaqla başladı:**

– 2024-cü ilin iyun ayında qəbul edilən və 2025-ci ildən etibarən qüvvəyə minən qohum evliliklərini qadağan edən qanun ölkəmizdə geniş ictimai rezonansa səbəb oldu. Qanunun məqsədi və tətbiq mexanizmi aydın şəkildə müəyyənləşdirilsə də, ictimai müzakirələr göstərdi ki, bu sahədə hələ də müəyyən subyektiv yanaşmalar, yanlış təsəvvürlər və stereotiplər mövcuddur. Mövcud vəziyyəti təhlil edərək həm qanunun qəbul zərurətini, həm də bu zərurətin hüquqi, tibbi və sosial əsaslarını ictimaiyyətə obyektiv şəkildə çatdırmaq vacibdir.



Qanunun qəbuluna zəmin yaratmış real təhlil və araşdırmalarla bağlı onu bildirim ki, qohum nikahlarının qadağan olunması bir gündə verilmiş qərar deyil. Bu dəyişiklik, illərlə aparılmış elmi-tibbi araşdırmalar, sistemli maarifləndirmə və beynəlxalq təcrübələrin nəzərə alınması nəticəsində formalaşmış strateji yanaşmanın nəticəsidir. Tibb mütəxəssisləri dəfələrlə bildirmişlər ki, yaxın qohumların evliliyi nəticəsində dünyaya gələn uşaqlarda irsi və genetik xəstəliklərin yayılma ehtimalı kəskin şəkildə artır.

Yad insanların nikahı zamanı qüsurlu uşaq doğulma riski 2–4 faiz olursa, qohum nikahlarında bu risk 4–8 faizə qədər yüksəlir, yəni təxminən 2 dəfə artır.

Bu tibbi risklər həm fərdi, həm də ictimai səviyyədə ciddi nəticələr doğurur. Dövlətin məqsədi isə sağlam genofondu qorumaq, gələcək nəsillərin inkişafını təmin etmək və bu sahədə proaktiv tədbirlər görməkdir.

**– Problemin hüquqi perspektivləri baxımından insan hüquqları və ictimai rifah arasındakı tarazlığa və qohumluq dərəcələrinə görə qanun necə şamil olunur?**

– Bəzi şəxslər tərəfindən səsləndirilən "Bu qadağa fərdi hüquqların pozulmasıdır" fikri hüquqi baxımdan əsaslı deyil. Beynəlxalq hüquq normaları – xüsusilə də BMT-nin Uşaq Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları Konvensiyası – ailənin və uşaqların müdafiəsini dövlətin birbaşa vəzifəsi kimi təsbit edir. Bu baxımdan dövlətin genetik riskləri azaltmaq və cəmiyyətin sağlamlığını qorumaq məqsədilə normativ müdaxiləsi həm hüquqi, həm də etik cəhətdən əsaslandırılmışdır.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 6.3-cü maddəsində də açıq şəkildə qeyd edilir ki, cəmiyyətin sağlamlığının və təhlükəsizliyinin qorunması üçün mülki hüquqlar qanunla məhdudlaşdırıla bilər. Beləliklə, qohum nikahlarının qadağan edilməsi qanunvericiliyin ruhuna və beynəlxalq hüquq normalarına tam uyğundur.



Bir məsələni xüsusi olaraq qeyd etməliyik ki, qanun bütün qohumluq münasibətlərinə deyil, yalnız konkret risk daşıyan yaxın qohum evliliklərinə şamil olunur.

Qadağanın şamil edildiyi hallar bunlardır:
1. Qardaşların və bacıların ümumi baba və ya nənəsi olan uşaqları (əmioğlu, xalaoğlu və s.).
2. Əmi (dayı) ilə qardaş (bacı) qızı və ya bibi (xala) ilə qardaş (bacı) oğlu arasında nikah.

Bu məhdudiyyətlər, genetik risklərin yüksək olduğu və tibbi nəticələrin daha ağır təzahür etdiyi qohumluq dərəcələri üzrə müəyyənləşdirilmişdir.

Qeyri-rəsmi evliliklərin sosial və hüquqi fəsadlarından söz açan Taliyə xanım qeyd etdi ki, qanuna qarşı yönəlmiş daha bir iddia qeyri-rəsmi nikahların artması ilə bağlıdır. Cəmiyyətə bildirilməlidir ki, qeyri-rəsmi nikahlar hüquqi qüvvəyə malik deyil və onların heç bir hüquqi nəticəsi yoxdur. Belə nikahlar ər və arvad statusu yaratmır. Vərəsəlik, aliment və birgə mülkiyyət hüquqlarını təmin etmir. Uşaqların hüquqi statusunu və sosial müdafiəsini riskə atır. Beləliklə, qeyri-rəsmi nikah cəhdləri hüquqi baxımdan heç bir üstünlük vermir, əksinə, cəmiyyət və fərdlər üçün yeni hüquqi problemlər yaradır. Dövlət qeydiyyatından kənar münasibətlərdə yaranan hüquqi boşluqlar gələcəkdə daha ağır sosial və iqtisadi nəticələrə gətirib çıxara bilər:

**– İlkin müşahidələr göstərir ki, əhali arasında bu qanuna münasibət birmənalı deyil.**

– Bir qisim insan qanunu alqışlayır və gələcək nəsillərin sağlamlığı baxımından vacib addım kimi dəyərləndirir. Digər qisim isə, xüsusilə, bəzi regionlarda, bu qərarı illərlə mövcud olan sosial-mədəni ənənələrə qarşı çıxış kimi qəbul edir.

Bu şəraitdə qanunun effektiv və davamlı şəkildə tətbiqi üçün maarifləndirmə işlərinin gücləndirilməsi, ictimai şüurun dəyişdirilməsi və mədəni transformasiyaların təşviqi olduqca vacibdir. Dövlət və vətəndaş cəmiyyəti institutlarının birgə fəaliyyəti bu keçid prosesini daha səmərəli və ağrısız edə bilər.

Qohum nikahlarının qadağan edilməsi ilə bağlı səslənən neqativ mövqelər və emosional reaksiyalar subyektiv xarakter daşıyır və çox zaman tibbi, hüquqi və sosial reallıqlara əsaslanmır. Cəmiyyətin ümumi rifahı və gələcək nəsillərin sağlamlığı isə hüquq müstəvisində hər zaman üstün tutulur.

Bu səbəbdən, sözügedən qanun dəyişiklikləri, həm hüquqi baxımdan əsaslandırılmış, həm tibbi cəhətdən zəruri, həm də sosial məsuliyyət baxımından vacib və uzaqgörən addım kimi qiymətləndirilməlidir.

Cəmiyyətin rifahı və gələcək nəsillərin sağlamlığı üçün bu qərarı dəstəkləmək hər bir vətəndaşın mənəvi və hüquqi borcudur. Çünki bütün hallarda qanun subyektiv yanaşmalardan üstündür.

**– Açıqlamaya görə sağ olun.**

***Söhbəti hazırladı:***
***Zərifə HÜSEYNOVA***
***XQ***

# Naxçıvan xəbərləri

## Culfa sakinləri ilə görüş



**Bugünlərdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli N şəhər və rayonlarda ictimaiyyət nümayəndələri ilə görüşlər keçirib. Növbəti ictimai dialoq Culfada olub.**

Səlahiyyətli nümayəndə qeyd edib ki, muxtar respublikda həyata keçirilən sosial-iqtisadi inkişaf layihələri Culfa rayonunda da uğurla icra olunur. Ötən dövrdə rayonda yol infrastrukturunun yenilənməsi istiqamətində layihələr reallaşdırılıb və bu sahədə işlər növbəti mərhələdə də davam etdiriləcək, məntəqələrarası və kənddaxili yollar yenidən qurulacaq.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası istiqamətində həyata keçiriləcək layihələr barədə məlumat verən səlahiyyətli nümayəndə Culfa şəhərinin yeni Baş planının hazırlandığını diqqətə çatdırıb.

Görüşdə sakinlərin problem və təklifləri dinlənilib, məşğulluq, su, yol infrastrukturu, yaşıllaşdırma, ətraf mühitin mühafizəsi və digər sahələrlə bağlı mövcud çatışmazlıqlar müzakirə edilib.

## Türkiyə səfiri qədim diyarda

**Dünən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Birol Akgünün rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Görüşdə ölkələrimiz arasındakı dostluq və qardaşlıq əlaqələrinin inkişafından məmnunluq ifadə olunub, Naxçıvanın bu münasibətlərin inkişafında mühüm əhəmiyyətə malik olduğu vurğulanıb. Xüsusilə ticarət və investisiya qoyuluşu sahələrində böyük perspektivlərin olduğu bildirilib, türkiyəli iş adamlarının bu sahələrdə fəal işbirliyinin vacibliyi diqqətə çatdırılıb.

Söhbət zamanı digər istiqamətlərdə də perspektiv imkanlar müzakirə edilib.

Türkiyə Respublikasının Naxçıvan Muxtar Respublikasındakı baş konsulu Asip Kaya görüşdə iştirak edib.

***

Görüşdən sonra diplomat jurnalistlərə açıqlamasında qədim türk yurdunun ölkəsi üçün xüsusi mənəvi önəm daşıdığını deyib. Səfir qeyd edib ki, bu gün Türkiyənin Bakıdakı səfiri olaraq Naxçıvana ilk rəsmi səfərini həyata keçirib:

– Bura ulu öndər Heydər Əliyevin vətənidir. Eyni zamanda, böyük qurucu lider Mustafa Kamal Atatürkün Türk qapısı adlandırdığı, Türkiyənin Azərbaycanla quru sərhədinin olduğu yeganə bölgədir. Elə bu səbəbdən də "Ümid körpüsünün" açıldığı yer olaraq tarixə düşüb. Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvana göstərdiyi xüsusi diqqət və qayğı burada reallaşan sosial-iqtisadi layihələrdə özünü açıq şəkildə göstərir. Bu da bizi çox məmnun edir.

Türkiyə ilə Naxçıvan arasında hər zaman sıx dostluq və qardaşlıq münasibətləri olub. Quru sərhədin olması bu əlaqələri daha da möhkəmləndirir. Türkiyə vətəndaşları teztez Naxçıvana səfər edir, buradakı inkişafı yaxından izləyirlər. Bu səfərin məqsədi Türkiyə ilə Naxçıvan arasında iqtisadi və ticarət əlaqələrini daha da inkişaf etdirmək, qarşılıqlı əməkdaşlığı gücləndirməkdir.

Səfir sonda bildirib: "Xüsusilə, İkinci Qarabağ müharibəsindən sonra yaranmış yeni dövrdə Zəngəzur dəhlizinin açılması bölgə üçün böyük əhəmiyyət daşıyır. Arzumuz odur ki, bu dəhliz bölgədə sülh və əməkdaşlığı təmin edən, Orta dəhlizin güclənməsinə xidmət edən birləşdirici körpü olsun".

## Sahibkarlara güzəştli kredit verilib

**2025-ci ilin ilk yarısında Sahibkarlığın İnkişafı Fondu tərəfindən muxtar respublikada 77 layihənin maliyyələşdirilməsinə 7,4 milyon manat vəsait ayrılıb.**




Fondun tərəfindən maliyyələşdirilmiş ümumi güzəştli kredit məbləğinin 73,6 faizi sənaye, 18,3 faizi kənd təsərrüfatı məhsullarının istehsalı, 8,1 faizi isə xidmət sahələrinə yönəldilib. Bu dövrdə ayrılmış güzəştli kreditlərin 8,6 faizi kiçik, 23,9 faizi orta, 67,5 faizi isə böyük həcmli kreditlərdən ibarət olub. Verilmiş kreditlər hesabına 80 yeni iş yerinin açılması imkanı yaranıb.

2025-ci ilin ilk 6 ayı ərzində 5,8 milyon manat məbləğində güzəştli kredit geri qaytarılıb. Həmin dövrdə həmçinin 2,1 milyon manat problemli kredit ödənilib. Sahibkarlığın İnkişafı Fondunun əməkdaşlıq etdiyi müvəkkil kredit təşkilatlarının sayı ötən ilin eyni dövrü ilə müqayisədə 2 dəfə artaraq 8-ə çatdırılıb.

## Kartof yığımına başlanıb



**Muxtar respublikada mövsümün kartof yığımına başlanıb. İndiyədək 151 hektardan çox sahədə məhsul yığımı başa çatdırılıb və 2 500 tondan artıq kartof anbarlara daşınıb. Ümumilikdə isə cari təsərrüfat ilində 805 hektardan çox sahədə kartof əkini həyata keçirilib.**

Tərəvəzçilikdə xüsusi paya malik olan Şərur rayonu əvvəlki illərdə olduğu kimi, bu il də əsas istehsal bölgələrindən biridir. Rayonda 589 hektar sahədə kartof becərilib və hazırda hər hektardan orta hesabla 50-55 ton məhsul götürülür ki, bu da yüksək məhsuldarlıq göstəricisidir. Ötən mövsüm Şərurda 700 hektara yaxın sahədə kartof əkilmiş və 20 min ton məhsul yığılmışdı. Cari mövsümdə məhsuldarlığın artması ilə ümumi məhsul həcminin yüksəlməsi gözlənilir.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***

# "Dirilik" – milli varlıq salnaməsi

**Azərbaycanda ötən əsrin əvvəllərinin ünlü dövri nəşrlərindən olmuş "Dirilik" məcmuəsinin cəmi 28 sayı çıxsa da, ölkənin ictimai həyatında mühüm rol oynayıb. Səhifələrində ədəbi, siyasi, iqtisadi və tarixi mövzularda dəyərli yazılar yer alıb. 1914-1916-cı illərdə bu dərgi maarifçilik və milli özünüdərk prosesinə nəzəri və ideoloji əsaslar bəxş edib.**




Məcmuənin imtiyaz sahibi Əbülfəz Mətləbzadə, baş mühərriri isə onun kiçik qardaşı Əliabbas Müznib idi. Jurnalın ilk sayında Ə.Müznib "Məqsədimiz" adlı məqaləsində bəşəriyyətin son 3-4 minillik tarixinə səyahət edib, fikirlərini ümumiləşdirib, xalqı bu tarixi imtahanlardan ibrət dərsi almağa səsləyib, fiziki və mənəvi diriliyin ölüm-dirim mübarizəsi ilə əldə edildiyini göstərib. "Milli hökumət dilərik sadəcə, istəməriz təntənəli təxtü tac", – deyib.



Məhəmməd Əmin Rəsulzadə, İsmayıl bəy Qaspıralı, Əbdülxaliq Cənnəti, Əli Səttarlı, Cəfər Cabbarlı, Əliağa Vahidin iştirak etdiyi bu məcmuədə ədəbi nümunələr də oxuculara çatdırılırdı. Mətbuat tarixinin araşdırıcıları "Dirilik" jurnalını ədəbi-məfkurə mərkəzlərindən biri hesab edirlər. Cümhuriyyət ideyasının müəlliflərindən olan M.Ə.Rəsulzadənin milli şüur konsepsiyasının proqramı olan "Dirilik nədir?" adlı məşhur əsəri də, rus imperiyasının dünyaya hakim olmaq planlarından bəhs edən "Rus imperatoru Böyük Pyotrun vəsiyyətnaməsi" adlı tarixi sənəd də bu jurnalda çıxıb. Həmin sənədin məcmuədə nəşri rus imperiyasının genişlənmə strategiyasının ifşası və bunun mahiyyətinin açılması baxımından mühüm hadisə olub.

Böyük yazıçı, ədəbiyyatşünas Mir Cəlal doktorluq dissertasiyası əsasında qələmə aldığı "Azərbaycanda ədəbi məktəblər (1905–1917)" kitabında yazıb: "Dirilik" məcmuəsi (1914) türkçülük ilə islamçılıq təsirlərini birlikdə götürən və "dərinləşdirən" bir istiqamət tutmuşdu. "Türk, islam tarixinə aid yazılar məəl-məmnuniyyə dərc ediləcəkdir" – deyə oxuculara müraciət edən bu məcmuə ingilis generallarından və İran şahlarından tutmuş hər bir rütbəli şəxsin şəklini çap etməyi və həyatından yazmağı, alman cahangirlərinin qərb istəhasını təbliğ etməyi özünə vəzifə sayırdı. "Dirilik" məcmuəsi islam Şərqinin geridə qalmasını və fəlakətini "din əmrlərinin" layiqincə yerinə yetirilməməsində görürdü. O yazırdı: "Biz, yəni islam aləmi və islam millətləri, dinimizin sağlam əmrlərindən çox uzaqlaşaraq, dünya diriliyinə qərib bir nəzərlə baxmağa başladığımız bir zamandan bəri başqalarının rizaxarı və onlardakı tərəqqi və imranın əsir və dəstkirləri olduq. Bunu etiraf etməliyiz..."

"Dirilik" əski əlifba ilə çıxmış olduğu üçün heç də hamı üçün əlçatan deyildi. Fərəh hissi ilə qeyd edək ki, Milli İrsi Mədəni Tarixi Araşdırmalar Fondunun (MİMTA) layihəsi əsasında British Petroleum (bp) şirkətinin dəstəyi ilə məcmuənin latın qrafikalı transliterasiya variantı işıq üzü görüb. Azərbaycan milli mətbuatının 150 illiyinə gözəl hədiyyə olan toplu mediamızın tarixi və müasir ənənələrinə, cəmiyyətdə zəngin məfkurənin formalaşmasındakı və xalqın mənəvi inkişafındakı roluna verilən yüksək dəyərin ifadəsidir. Layihənin müəllifi – Fondun icraçı direktoru Pərviz Əmirovun bildirdiyinə görə, bu il anadilli mətbuatın 150 illiyi ilə yanaşı, həm də əsas qayələrindən biri irsimizi bərpa və təbliğ etmək olan, bu müddət ərzində bir çox layihələrə imza atan MİMTA-nın 20 yaşı tamam olur. Bu baxımdan "Dirilik" məcmuəsinin transliterativ toplusu mətbuat irsimizin bərpası kontekstində böyük önəm daşıyır.

Nəşrin məsləhətçisi akademik Nizami Cəfərov, rəyçisi Mətbuat Şurasının sədri Rəşad Məcid, redaktoru Əsəd Aslanoğludur. Muxtar Cəfərli və Vüqar Mirzə transliterasiyanı gerçəkləşdiriblər. R.Məcid topluya yazdığı "Ön söz"də göstərir: "...müxtəlif vaxtlarda dəyərli müəllimimiz Şirməmməd Hüseynovun təşəbbüsü və yorulmaz əməyi sayəsində "Əkinçi", "Təkamül", "Tərəqqi", "İrşad", "Molla Nəsrəddin", "Azərbaycan", "Həqiqət", "Hilal-Əhmər", "Bakinskaya jizn", "Açıq söz", "Yeni iqbal", "Yeni Qafqasiya", "Qurtuluş", "Hümmət", "Bakı həyatı" kimi mətbu orqanlarda dərc olunmuş qiymətli yazılar əski əlifbadan latın qrafikasına transliterasiya edilərək müasir oxuculara çatdırılıb... Ötən il AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun əməkdaşları "Ziya" və "Ziyayi-Qafqaziyyə" qəzetlərini latın qrafikalı əlifbaya çevirmək kimi məsul işin öhdəsindən gəlmiş dəyərli alim, mərhum Müştəba Əliyevin transliterasiyalarını çap ediblər... Xüsusilə vurğulamaq istərdim ki, rektor Hafiz Paşayevin ideyası ilə ADA Universitetində "Azərbaycan" qəzetinin 1918–1920-ci illərdə çap olunmuş tam külliyyatının 20 cildlik transliterasiyası nəşr edilir və artıq 10 cildi hazırdır".

Digər transliterasiya nümunələri də var. Sözügedən nəşrlərdə Məhəmməd Əmin Rəsulzadə, Fətəli Xan Xoyski, Əlimərdan bəy Topçubaşov, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Cəlil Məmmədquluzadə, Üzeyir bəy Hacıbəyli, Ömər Faiq Nemanzadə, Ceyhun Hacıbəyli kimi dahi şəxsiyyətlərin, ictimai-siyasi xadimlərin və publisistlərin dərin məzmunlu çeşidli yazıları yer alırdı. Bu məqalələr yalnız keçmişin deyil, həm də bugünümüz və gələcəyimiz baxımından misilsiz əhəmiyyət daşıyır.

Budur, vaxtilə babalarımızın sevə-sevə oxuduğu "Dirilik" toplusu qarşımızdadır. Ona 2-ci həyat bəxş edən MİMTA-nın transliterasiya işində böyük təcrübəsi var. Daha öncə Azərbaycanda ilk qadın mətbuatı olmuş "İşıq" qəzetinin sayları da transliterasiya edilərək toplu şəklində yayımlanmışdı. Həmçinin Fond ictimai fikir tariximizdə mühüm yeri olan "Füyuzat" jurnalını ilk nəşrindən 100 il sonra dərgi formatında bərpa edib. "Dirilik" həm də ona görə dəyər kəsb edir ki, bu dərgidə eyni zamanda Azərbaycan romantik ədəbiyyatının və publisistikasının inkişafına da xidmət edib. Əmin Abid Gültəkin, Ümmügülsüm Sadıqzadə, Rəcəb Əfəndizadə və Məmməd Səid Ordubadi kimi müəlliflərin burada dərc olunan qənimət şeirləri, publisistik yazıları milli azadlıq, Vətənə məhəbbət, mənəvi dəyərlərə sadiqlik kimi mövzuları ön plana çıxarıb.

Qeyd edək ki, 20-ci əsrin ilk onillikləri milli mətbuat tariximizin ən məhsuldar və ən dinamik mərhələləri olub. "Dirilik" dərgisi də məhz o dövrün parlaq nümunələri sırasındadır. Nəşri müxtəlif səbəblərdən uzun çəkməsə də, "Dirilik" dövrün ictimai-siyasi düşüncəsini, maarifçilik və milli dirçəliş ideyalarını "dirildən" aparıcı platformalardan biri olub. Ona görə də bu məcmuənin transliterasiya edilərək nəfis şəkildə buraxılması təkcə mətbuat tariximizin deyil, həm də milli irsimizin yenidən dəyərləndirilməsi baxımından olduqca təqdirəlayiq hadisədir.

*Əli NƏCƏFXANLI*
**XQ**

# Azərbaycanlı alimin məqaləsi Türkiyə elmi jurnalında

**Türkiyədə nəşr olunan nüfuzlu elmi nəşrlərdən biri olan "Avrasiya Dosyası" jurnalı Azərbaycan Dövlət İqtisad Universitetinin professoru Saleh Məmmədovun "Türk Dövlətləri Təşkilatı: Süni intellekt ilə inteqrasiya və inkişaf perspektivləri" adlı elmi məqaləsini dərc edib.**




Məqalədə müəllif müasir dövrdə süni intellekt texnologiyalarının Türk Dövlətləri Təşkilatının inteqrasiyası və dayanıqlı inkişafı baxımından strateji əhəmiyyətini təhlil edir. Bu baxımdan, türk dövlətlərinin ortaq bir ittifaq qurması həm strateji, həm də iqtisadi baxımdan zəruri hesab olunur. Xüsusilə Sovetlər Birliyinin süqutundan sonra türk dünyasının inteqrasiyası məsələsi daha aktual və təxirəsalınmaz hala gəlmişdir.

Məqalədə TDT-yə üzv ölkələr arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi, ortaq dil və ideoloji əsasların formalaşdırılması, həmçinin hüquqi, iqtisadi və mədəni sahələrdə əməkdaşlığın dərinləşdirilməsində süni intellektin potensial imkanlarına diqqət yetirilir. Hazırda TDT-yə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkiyə üzvdür. Gələcəkdə Türkmənistan, Şimali Kipr Türk Cümhuriyyəti və Macarıstanın da tamhüquqlu üzv kimi təşkilata qoşulma ehtimalı qiymətləndirilir. Müəllif vurğulayır ki, süni intellektin yardımı ilə TDT daha güclü və davamlı inteqrasiya modelini formalaşdıra bilər və bu model vasitəsilə təşkilat üzvləri beynəlxalq sistemdə daha təsirli və nüfuzlu aktorlar qismində çıxış edə bilərlər.

"Avrasiya Dosyası" beynəlxalq səviyyəli, elmi keyfiyyətə önəm verən və sosial elmlər sahəsində ixtisaslaşmış akademik nəşrdir. İldə iki dəfə və əlavə olaraq hər il bir xüsusi buraxılış olmaqla nəşr olunur. Jurnalın məqsədi Türkiyə Cümhuriyyətini və ümumilikdə Avrasiya regionunu maraqlandıran strateji sahələr üzrə aparılan elmi tədqiqatların dərcini təmin etməkdir. Bu çərçivədə sosial elmlərin müxtəlif sahələrində yazılmış, elmi yenilik və orijinallıq daşıyan məqalələr jurnalın nəşr siyasətinə uyğun olaraq qəbul edilir.

**XQ**

# Gənc kinematoqrafçılar beynəlxalq festivalda



**Rejissor Aynur Kazımova ilə ssenarist-prodüser Nicat Dadaşov Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda keçirilən nüfuzlu "WARM" festivalı çərçivəsində "WARM Academy" proqramında iştirak ediblər.**

Festival çərçivəsində Aynur Kazımova "Sıfırdan başlamaq" adlı tammetrajlı sənədli filmi ilə pitçinqdə iştirak edib. Bu filmdə Birinci Qarabağ müharibəsi zamanı qaçqın düşmüş uşaqların oyun və xəyallarına müharibənin təsiri göstərilir.

Nicat Dadaşovun prodüser qismində təqdim etdiyi "Mənim virtual evim" (ideya müəllifi və rejissor Ülviyyə Əhmədova) sənədli film-layihəsi isə Ermənistandan didərgin düşmüş 85 yaşlı Vəlinin ömrünün sonunda doğma evini son dəfə görmək istəyindən bəhs edir.

"WARM Academy" müasir dünyamızda münaqişələr və müharibədən sonrakı keçid dövrlərinin sənədli dillə işlənməsinə dəstək vermək məqsədilə yaradılmış multidisiplinar tədris proqramıdır. Akademiya "WARM" festivalı ilə paralel şəkildə keçirilir və dünyanın müxtəlif ölkələrindən gəlmiş jurnalistləri, sənədli film rejissorlarını, tədqiqatçıları və sənətkarları bir araya gətirir. Proqram iştirakçılara müharibə mövzusunun etik çərçivədə necə işlənməsi, əsərin bədii təsir gücünün artırılması və peşəkar yanaşmalar haqqında bilgilər qazandırır.

Azərbaycanlı nümayəndələr festival müddətində rejissorlar, prodüserlər, fotojurnalistlər və konflikt sahəsində çalışan beynəlxalq ekspertlərlə geniş əlaqə qurmaq imkanı əldə ediblər. Festival onların Azərbaycan həqiqətlərini beynəlxalq auditoriyaya çatdırmaları üçün önəmli fürsət olub.

**XQ**

# Qəbələ Beynəlxalq Musiqi Festivalı başladı

**Sayca 14-cü olan bu musiqi festivalına dünən axşam saatlarında start verilib. Bayramın açılış mərasimi Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilatçılığı, Mədəniyyət Nazirliyi, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası və "Gilan"ın dəstəyi ilə "Qafqaz Resort"un açıq səhnəsində reallaşıb.**




Rəsmi hissədən sonra Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri və Fikrət Əmirov adına Əməkdar Kollektiv, Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının Xor qrupu, tanınmış ifaçılar tamaşaçılar qarşısında geniş konsert proqramı ilə çıxış ediblər.

Dahi bəstəkar Üzeyir Hacıbəylinin 140 illik yubileyi çərçivəsində keçirilən festivalda Azərbaycan musiqiçiləri ilə bərabər, xarici ölkələrdən gəlmiş tanınmış ifaçılar, gənc istedadlar, musiqi kollektivləri iştirak edirlər. Festival günlərində, həmçinin görkəmli musiqi xadimləri Rauf Atakişiyevin 100, Vasif Adıgözəlovun 90 illik yubileyləri də xüsusi konsert proqramları ilə qeyd ediləcək.

Festival günlərində musiqisevərlər, həmçinin "Mercadonegro " musiqi qrupunun (Latın Amerikası), Tbilisi Big Band ansamblının (Gürcüstan), "Ciurlionis" kvartetinin (Litva), həmçinin "Gənclərə dəstək" layihəsi iştirakçılarının, Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin, "Detaşe-Sabah" violinoçular ansamblının, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası tələbələrinin, Bakı Dövlət Kamera Orkestrinin, tanınmış musiqiçilərin çıxışlarını izləyə biləcəklər.

Artıq gözəl ənənəyə çevrilən festival bir həftə davam edəcək.

**XQ**

# Borçalıda Azərbaycan xalçası sərgisi

**Milli xalçaçılığımızın tarixi min illərlə əvvələ gedib çıxır. Heredot, Klavdi Elian, Ksenofont və başqa tarixçilər bu barədə yazıblar. Artıq 15 ildir ki, Azərbaycan xalçası UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısında layiqli yerini tutur.**



Gürcüstanın Marneuli şəhərində Azərbaycan xalçalarının sərgisinin açılışında bu barədə məlumat verilib. Sərginin ekspozisiyası şəhər İctimai Kitabxanasının həyətində nümayiş etdirilir. Ziyarətçilər Qarabağ, Şirvan, Şamaxı, Quba, eləcə də Gürcüstanın Qarayazı, Borçalı və digər bölgələrinə aid xalçalar, eləcə də müxtəlif əl işləri ilə yaxından tanış olurlar. Onlara qədim Azərbaycanın mədəniyyətinin misgərlik və digər əl işləri barədə də məlumat verilir.

Marneuli Mədəniyyət Mərkəzinin təşkil etdiyi sərginin açılış mərasimində Aşıq Nargilə Mehdiyevanın ifa etdiyi Azərbaycan xalq və bəstəkar mahnıları da xoş ovqat yaradıb. Qeyd edək ki, bu Mədəniyyət Mərkəzində xalçaçılıq sənəti dərnəyi də fəaliyyət göstərir, ödənişsiz xalçatoxuma kursları təşkil olunub.

**XQ**

*Beynəlxalq həyat*

# Tailand – Kamboca münaqişəsi alovlandı

## *BMT Təhlükəsizlik Şurasına təcili çağırışlar edilir*



**Tailand və Kamboca arasında illərdir davam edən sərhəd mübahisəsi hərbi qarşıdurmaya çevrilib. Tailand ordusunun Kamboca hərbi mövqelərinə qarşı hava zərbələri endirməsi bölgədə vəziyyəti daha da gərginləşdirib. Kambocanın Baş naziri Hun Manet BMT Təhlükəsizlik Şurasına müraciət edərək, Tailandın "aqressiyasını dayandırmaq üçün" təcili iclas çağırılmasını tələb edib.**

Baş nazir Hun Manet BMT Təhlükəsizlik Şurasının prezidenti Asim İftixar Əhmədə ünvanladığı məktubda bildirib ki, Tailand silahlı qüvvələri Kamboca mövqelərinə "əsassız, əvvəlcədən planlaşdırılmış və məqsədli hücumlar" həyata keçirib. O, Tailandı beynəlxalq hüququ kobud şəkildə pozmaqda ittiham edib və kambocalı əsgərlərin yalnız özünümüdafiə məqsədilə cavab verdiyini bəyan edib.

Tailand Xarici İşlər Nazirliyi isə Kambocanı Tailand ərazisində mina yerləşdirməkdə və mübahisəli sərhəd boyunca mülki əhalini hədəf alan raket hücumları həyata keçirməkdə günahlandırıb. Nazirliyin bəyanatında deyilir: "Kral Tailand hökuməti Kambocanı məsuliyyətə cəlb etməyə, mülki və hərbi hədəflərə hücumları dərhal dayandırmağa çağırır."

Tailand Səhiyyə Nazirliyinin yaydığı məlumata əsasən, Kambocanın hücumları nəticəsində azı 11 mülki vətəndaş həlak olub, onlarla insan yaralanıb. Raketlərdən biri Sisaket vilayətində yerləşən yanacaqdoldurma məntəqəsinə düşüb. 6 nəfər ölüb, 10 nəfər yaralanıb. Sosial şəbəkələrdə yayılan kadrlarda mağazanın dağıldığı, pəncərələrin sındığı, tüstü içində kömək gözləyən insanların görüntüləri yer alıb.

Müdafiə məsələlərində Tailandın üstünlüyü açıq görünür. Beynəlxalq Strateji Araşdırmalar İnstitutunun (IISS) məlumatına əsasən, Tailand ordusunda 361,000 aktiv hərbçi var – bu, Kambocanın gücünü 3 dəfə üstələyir. Bundan başqa, Tailandda 11 müasir "Gripen" qırıcısı, onlarca F-16 və F-5 döyüş təyyarəsi, ABŞ istehsalı "Cobra" hücum və Black Hawk transport helikopterləri mövcuddur. Həmçinin Tailandın arsenalında 600-dən çox artilleriya qurğusu var – Kambocada bu göstərici 400-ə yaxındır, əksəriyyəti də köhnədir. Bununla yanaşı, Tailand ABŞ-ın müttəfiqi sayılır və uzun illər ABŞ, Çin, İsrail və Cənubi Koreya kimi ölkələrin dəstəyi ilə öz hərbi sənayesini inkişaf etdirib. Kambocanın isə döyüş qabiliyyətli hava qüvvəsi yoxdur.

Bəs münaqişəyə nə səbəb olub? Tailand və Kamboca arasında 817 kilometrlik sərhədin əksər hissəsi Fransa müstəmləkə dövründə çəkilib və bu, uzun illər davam edən torpaq iddialarına səbəb olub. 2011-ci ildə UNESCO-nun Ümumdünya İrs Siyahısında olan Preah Vihear məbədi yaxınlığında baş verən toqquşmalarda azı 20 nəfər həlak olmuşdu, minlərlə insan köçkün düşmüşdü.

Hazırkı toqquşmaların səbəbi isə iyulun 16-da Tailand əsgərinin mina partlayışında ayağını itirməsi ilə başlanıb. Növbəti gün daha beş əsgər yaralanıb. İki ölkə qarşılıqlı olaraq səfirləri geri çağırıb, ticarət və mədəni əlaqələri dayandırıb, Tailand Kambocanın sərhəd kəndlərinə elektrik və interneti kəsməklə hədələyib.

Bu münaqişənin perspektivi necə olacaq və regional təsirləri nə ola bilər? Siyasi ekspertlər qarşıdurmanın yaxın zamanda səngiməyəcəyini düşünürlər. Tailandlı professor Titinan Ponsudhirak CNN-ə bildirib ki, "hər iki tərəfdə də uzun müddətdir toplanmış gərginlik mövcuddur" və bu, ASEAN-ın zəiflədiyini göstərir: "Myanma vətəndaş müharibəsini həll edə bilməyən ASEAN indi daha bir regional hərbi qarşıdurma ilə üz-üzədir. Bu təşkilat üçün ciddi imic itkisi olacaq."

***Səbuhi MƏMMƏDOV***
***XQ***

*Replika*

**Ağ Evdəki dairəvi kabinetə respublikaçı Donald Tramp ikinci dəfə yiyələnəndən sonra Senatda anti–Azərbaycan dinləmələrinə, ölkəmizə qarşı sanksiya hədə-qorxusu ilə müşayiət olunan, siyasi təzyiq elementləri açıq sezilən bəyanat və qətnamələrin qəbuluna ara verilmişdi. Deyəsən, məcburi "antrakt"dan sonra ermənipərəst senatorların "özfəaliyyət dərnəkləri" yenidən işə başlayıblar.**

# Senatın "erməni ağrısı" kəsilmir

Ermənilərə lobbiçilik edən senator və konqresmenlər Azərbaycana qarşı bu dəfə eyni vaxtda iki cəbhədə "hücuma" keçməyə cəhd göstərirlər. Senator Coş Houlin Senata, konqresmen Rayli Mur isə Nümayəndələr Palatasına xristianlara qarşı təqibləri, o cümlədən "Dağlıq Qarabağda" ermənilərə qarşı həyata keçirilən "etnik təmizləmə"ni pisləyən qətnamələr təqdim ediblər. Bu barədə "Armenpress" geniş təfərrüatlı xəbər yayıb.

Amerika Erməni Milli Komitəsinin (ANCA) dərc etdiyi qətnamə layihələrində "2020-2023-cü illərdə Azərbaycan tərəfindən "Dağlıq Qarabağda" erməni xristianlara qarşı həyata keçirilən etnik təmizləmə" xatırladılır və yerli erməni "mədəni irsinin məhv edilməsinə" işarə edilir. Bundan başqa, qətnamələrdə həm Türkiyədə, həm də Suriyada yaşayan xristianların hüquqlarına toxunulur və oradakı erməni xristian əhalisinin də sistematik təqiblərlə üzləşdiyi vurğulanır.

***

Xristian "təəssübkeşlərinin" hazırladıqları və son aqibəti zibil qutusuna atılan kağız parçası olacaq qətnamə layihəsində diqqəti çəkən maraqlı məqam odur ki, senator Coş Houlin və konqresmen Rayli Mur ABŞ Prezidenti Donald Trampı "təqib olunan xristianların müdafiəsini ABŞ xarici siyasətinin prioritetinə çevirməyə" çağırırlar. Yəni xristian təəssübkeşliyi "missiyasının" arxasında gizlənib, ermənipərəst maskalarının yırtıldığının fərqinə belə varmayan amerikalı qanunvericilərin "Dağlıq Qarabağ" adlı inzibari ərazi vahidinin aradan qaldırılmasından, bu adda münaqişənin tarixin arxivinə gönrədilməsindən bixəbər kimi davranmaları heyrət və təəccüb doğurur. Həm də sual yaranır: Senatda anti-Azərbaycan dinləməsi keçirənlərin qarınlarının ağrısı nədir? İlin-günün bu vaxtında, yəni, Ermənistan–Azərbaycan ikitərəfli sülh danışıqlarının finişə yaxınlaşdığı, bütün məsələlərə qarşılıqlı aydınlıq gətirildiyi bir zamanda belə bir dinləmənin keçirilməsi ilə bağlı müraciət hansı maraqlara xidmət edir? Erməniləri qoyaq bir kənara, onların xəyallar aləmindən ayrıla bilmədikləri məlumdur. Bəs ABŞ Prezidentinə "xarici siyasət prioritetləri ilə bağlı" ağıl verməyə girişən senator və konqresmenin qarınlarının ağrısı nədir?

Əslində, onların "qarın sancılanması"nın xroniki hal almasının səbəbi məlumdur. Axı, Kaliforniyadakı erməni diasropu çox zəngindir və onlar "yastı balabanın ahənginə" uyğun oynayanlarla" səxavətli davranırlar. Belə "zəhmətsiz gəliri" əldən buraxmaq sizə asan gəlməsin.

Yeri gəlmişkən, Prezident Donald Trampın iyulun 15-də Ağ Evdə NATO-nun Baş katibi Mark Rutte ilə görüşündə Ermənistan və Azərbaycan arasında sülhün yaxın ola biləcəyinə dair fikirlərini nəzərə alaraq, Amerika – Ermənistan Assambleyasının həmsədrləri Oskar Tatosyan və Talin Yakubyan keçən həftə ABŞ Dövlət katibi Marko Rubioya məktub göndəriblər. Onlar Azərbaycan tərəfindən saxlanılan "bütün erməni girovların", o cümlədən "Dağlıq Qarabağın" siyasi rəhbərliyinin azad edilməsinə və onlara qayıtmaq hüququnun verilməsinə" çağırıblar. Bundan əlavə, məktubda vurğulanır ki, "tam, davamlı sülh Ermənistan Respublikası üçün etibarlı təhlükəsizlik təminatlarını, o cümlədən Azərbaycan qoşunlarının Ermənistanın suveren ərazisindən tamamilə çıxarılmasını və sazişin hər hansı formada pozulmasının aydın nəticələrini ehtiva etməlidir".

Bu yerdə hayların özlərinin çaldığı musiqiyə sonda yalnız özlərinin oynayacağını əminliklə proqnozlaşdırmaq olar. ANCA bu cür təşəbbüslətrə çox baş vurub. Sadəcə, indi fərq ondadır ki, təşkil etdikləri "siyasi tamaşada" baş rolların ifaçıları dəyişib. Rüşvətxor, erməni arvadının fitvası ilə hər cür çirkaba bulaşan və hazırda məhz dövlətə xəyanətə görə layiqli cəzasını içəridə çəkən Bob Menendez və onun bir neçə "silahdaşını" növbəti qurbanlar – houlinlər və murlar əvəzləyiblər. İfaçılar dəyişsə də, hay ruhlu xitabların, anti-Azərbaycan məzmunlu çıxışların mahiyəti dəyişməyib. Ən maraqlısı bilirsiniz nədir? Yeni ansamblda həm də bek-vokalist kimi çıxış edənlər karvanın çoxdan ötüb keçdiyini özləri də yaxşı bilirlər. Amma onların missiyasi aldıqları hay ənamının müqabilində ağalarının dediyi dərəyə kimi getməkdir. Ondan o tərəfdə dərin uçurum olsa belə...

***İ.HƏSƏNQALA***
***XQ***

# İstanbulda Rusiya–Ukrayna danışıqlarının üçüncü raundu

## *Tərəflərin memorandumlar üzrə mövqelərini yaxınlaşdırmaq mümkün olmadı*



**İstanbuldakı Çırağan sarayında Rusiya və Ukrayna nümayəndə heyətləri arasında sülh danışıqlarının üçüncü raundu keçirilib. İclasa Türkiyənin xarici işlər naziri Hakan Fidan sədrlik edib. Danışıqlarda Türkiyə Milli Kəşfiyyat İdarəsinin (MİT) rəhbəri İbrahim Kalın və Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Metin Gürak da iştirak edib. Bu barədə "Anadolu" məlumat verib.**

Rusiya nümayəndə heyətinə Rusiya Prezidenti Vladimir Putinin müşaviri Vladimir Medinski, Ukrayna nümayəndə heyətinə isə Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Rustəm Umerov rəhbərlik edib.

Fidan bildirib ki, Rusiya və Ukrayna nümayəndə heyətləri arasında danışıqların son məqsədi "qiyməti çox yüksək olan bu qanlı müharibəni" tez bir zamanda bitirmək, sülhə yol açacaq atəşkəsə nail olmaqdır.

Nazir vurğulayıb ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan uzun illərdir bu münaqişəli bölgədə "sülh məşəli"ni daşıyan liderdir: "Türkiyə onun rəhbərliyi altında ilk gündən Rusiya ilə Ukrayna arasında sülhün bərqərar olması üçün intensiv səylər göstərir".

Danışıqlarının üçüncü raundunun yekunlarına dair mətbuat konfransında çıxış edən Vladimir Medinski deyib ki, Rusiya tərəfi Ukrayna ilə danışıqların dördüncü mərhələsinin baş tutacağına ümid edir. Onun sözlərinə görə, Rusiya Ukraynaya yaralıların və ölən əsgərlərin cəsədlərinin döyüş meydanından çıxarılması üçün 24-48 saatlıq qısa atəşkəs elan edilməsi məsələsinə baxmağı təklif edib. Rusiya tərəfi Ukrayna Silahlı Qüvvələrinin həlak olmuş 7 mindən çox hərbçisinin cəsədini Ukraynaya təhvil verib, eyni zamanda, rus əsgərlərinin cəsədinin bir hissəsini də geri alıb. Rusiya Ukraynaya daha 3000 həlak olmuş ukraynalı hərbçinin cəsədini təhvil verməyi təklif edib. Bundan əlavə, hər iki tərəfdən daha 1200 məhbusun mübadiləsi barədə razılıq əldə olunub.

Nümayəndə heyətinin rəhbəri əlavə edib ki, İstanbulda danışıqlar zamanı Rusiya və Ukrayna ikinci görüşdə təklif olunmuş memorandumlar ətrafında mövqelərini geniş şəkildə müzakirə ediblər. Mövqelər bir-birindən kifayət qədər uzaqdır, lakin tərəflər təmasları davam etdirmək barədə razılığa gəliblər.

Xatırladaq ki, Rusiyanın memorandumu atəşkəs üçün 2 variant təklif edir: Ukrayna Silahlı Qüvvələrinin Rusiya Federasiyasına birləşdirilən ərazilərdən çıxarılması və ya qoşunların yerdəyişməsinə qadağa qoyulması, səfərbərliyin və Kiyevə xarici hərbi yardımın dayandırılması. Əsas tələblər arasında Ukraynanın neytrallığı və yeni regionların beynəlxalq hüquqi tanınması da var.

Ukraynanın memorandumu isə xüsusi ilkin şərt olmadan atəşkəsin tətbiqini, Rusiya Federasiyası və Ukrayna liderlərinin görüşünü nəzərdə tutur. Burada həm də Ukraynanın neytrallığı qorumağa borclu olmadığını qeyd edilir.

Medinski Ukrayna tərəfinin təklif etdiyi Rusiya və Ukrayna prezidentləri Vladimir Putin və Vladimir Zelenskinin görüşünün şərtlərini də açıqlayıb. Onun sözlərinə görə, Ukraynaya çatdırılıb ki, Putinlə Zelenski arasında görüş yaxşı işlənib hazırlanmalıdır: "Belə bir görüşün baş tutması üçün əvvəlcə sazişin şərtlərini hazırlamaq və bu görüşdə nəyi müzakirə edəcəyini anlamaq lazımdır, amma əslində bu görüşdə sazişi müzakirə etmək yox, ona son qoymaq və imzalamaq lazımdır", - deyə o bildirib.

Medinski bildirib ki, Rusiya Ukraynaya onlayn rejimdə işləyəcək 3 işçi qrupu yaratmağı təklif edib. Qrup danışıqlar prosesinin hərbi, siyasi və humanitar komponentlərinə cavabdeh olmalıdır. Ukrayna bu təklifə baxmağa razılaşıb.

Ukrayna nümayəndə heyətinin rəhbəri Rüstəm Umerov isə deyib ki, Rusiya tərəfinə avqustun sonuna qədər iki ölkə prezidentləri Vladimir Putin və Vladimir Zelenski arasında sammit keçirməyi, görüşdə Türkiyə və ABŞ liderləri Rəcəb Tayyib Ərdoğan və Donald Trampın da iştirakını təklif edib. Onun dediyinə görə, Ukrayna ardıcıl olaraq liderlərin görüşünün tərəfdarıdır: "Biz dünən buna hazır idik. Bu gün də hazırıq. Sabah da hazır olacağıq. Belə görüş real siyasi tərəqqinin kilidini açmaq iqtidarındadır. Rusiya hazır olduğunu nümayiş etdirməlidir".

Ukrayna nümayəndə heyətinin rəhbəri qeyd edib ki, Ukrayna məhbus mübadiləsi məsələsində irəliləyiş gözləyir. Eyni zamanda, Rusiya tərəfi görüşdə üç ildən artıq əsirlikdə olan şəxslərin geri qaytarılmasına razılıq verib. Bundan əlavə, Rusiya və Ukrayna hərbi və mülki əsirlərin növbəti mübadiləsinə dair razılığa gəliblər və bu məsələ ilə bağlı danışıqların yeni raundunu keçirməyəcəklər: "Biz ədalətli və davamlı sülhə nail olmaq, xalqımızın bütün nümayəndələrinin, o cümlədən Rusiyaya qanunsuz deportasiya edilmiş uşaqların geri qaytarılması üçün danışıqlar prosesini davam etdiririk".

Rusiya və Ukrayna arasında danışıqların üçüncü raundu İstanbulda başa çatıb və bunun nəticəsində tərəflər 1200 hərbi əsirin dəyişdirilməsi və 3000 hərbçinin cəsədinin Ukrayna tərəfinə təhvil verilməsi barədə razılığa gəliblər. Moskva həmçinin Ukrayna hərbçilərinin hələ də Ukrayna ərazisində olan Kursk vilayətinin sakinləri ilə dəyişdirilməsini təklif edib.

***Paşa ƏMİRCANOV***
***XQ***

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti

*"Microsoft Fabric F64" (Reserved Capacity) abunəliyinin satın alınması üçün*

AÇIQ TENDER ELAN EDİR

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin "Microsoft Fabric F64" (ReservedCapacity) abunəliyinin satın alınması üçün açıq tenderində iştirakçılar arzu.qasimli@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 8 avqust 2025-ci il saat 14.00-dır .

Prosedur üzrə əlaqələndirici şəxs – Arzu Qasımlı, mütəxəssis, arzu.qasimli@azal.az, iş – (+99412) 4972600 daxili 6989.

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti

*"Microsoft Forcepoint" sistemi üzrə kompleks təchizat və texniki dəstəyin satın alınması üçün*

AÇIQ TENDER ELAN EDİR

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin "Forcepoint" sistemi üzrə kompleks təchizat və texniki dəstəyin satın alınması üçün açıq tenderində iştirakçılar arzu.qasimli@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 8 avqust 2025-ci il saat 14.00-dır .

Prosedur üzrə əlaqələndirici şəxs – Arzu Qasımlı, mütəxəssis, arzu.qasimli@azal.az, iş – (+99412) 4972600 daxili 6989.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 152 (30846) 25 iyul 2025-ci il, cümə

# Qələbə hələlik başlanğıcdır

*Növbəti mərhələdə "Qarabağ"ı daha ciddi sınaqlar gözləyir*





**Braziliya və Azərbaycan futbolunun sintezini təşkil edən "Qarabağ" milli komandası ilə milli çempionatı ayrı-ayrı dünyalar olan İrlandiya futbolundan güclü çıxdı. Əsas heyətində 4 braziliyalı və 3 azərbaycanlının yer aldığı komandada ikinci hissədə daha 3 azərbaycanlı futbolçu meydana çıxdı. Nəticədə bizim çempion UEFA Çempionlar Liqası 2-ci təsnifat mərhələsi çərçivəsində İrlandiyada yerli "Şelburn"a 3:0 hesabı ilə qalib gəldi.**

"Qarabağ", necə deyərlər, planlaşdırılmış qələbə qazandı. Qurban Qurbanovun komandası uzun illərdir bu tip rəqiblərlə problem yaşamır. "Qarabağ" dəfələrlə UEFA reytinqində Azərbaycandan daha yüksəkdə qərarlaşan ölkələrin təmsilçilərini məğlub etməyi bacarıb. Bizdən zəif İrlandiya çempionatı təmsilçisinin komandamıza başağrısı ola biləcəyi ehtimalı, əlbəttə ki, böyük deyildi.

"Qarabağ" rahat şəkildə 3 dəfə rəqibini oyuna meydanın mərkəzindən başlamağa məcbur etdi. Bütün yarışlarda 17 qolla ötən mövsümün bombardiri Leandro Andradenin yeni mövsümə də məhsuldar başlaması, oyunun sonlarında gənc istedad Nəriman Axundzadənin də bir qol vurub və digər bir qolun da yaradıcılarından olması müsbət məqamlardandır.

Yeni transferlərdən braziliyalılar Dani Bolt və Pedro Bikalyo da bu oyunda özlərini göstərmək imkanı qazandılar. Onlardan birincisi kobud oyununa görə sarı vərəqə aldı, sonra da əvəz olundu.

Ötən mövsüm əsas qapıçı sayılmayan Fabiyan Buntiç isə qapısını toxunulmaz saxlamaqla, yəqin ki, növbəti şansı da əldə edəcək. Düzdür, rəqib də onu çox narahat etmədi. Bir-iki təhlükəli vəziyyətləri oldu, təşəbbüsü ələ alıb nəsə etməyə çalışdılar, necə deyərlər, diş göstərdilər, amma səviyyə fərqi aşkar idi. Statistika deyir ki, qapı istiqamətində zərbələrdə hesab qonaqların xeyrinə 17-7, künc zərbələrində isə 5-2 kimi qeydə alınıb.

"Qarabağ"ın sürəti bir qədər də artırıb, daha böyük hesabla qələbə qazana biləcəyini deyə bilərik. Amma sürəti artıra bilərdimi? Mövsümün əvvəlində komanda bu tempə hazırdımı? Əgər rəqib daha güclü olsaydı? Əlbəttə suallar var.

"Şelburn"un səviyyəsini, daha doğrusu, zəifliyini göstərən faktlardan biri də heyətində hansısa



milli komandanın üzvünün olmamasıdır.

İrlandiyadakı rəqiblərindən birinin prezidenti bizə eksklüziv açıqlamasında "Şelburn"la bağlı daha bir məsələyə aydınlıq gətirib: "İrlandiyada maaşlar həftəlikdir. Əgər onların təxminən 25-26 oyunçudan ibarət heyətinin olduğunu nəzərə alsaq, deyərdim ki, həftəlik ümumi maaşları 38-45 min avro olar. İrlandiya çempionatının hazırkı lideri "Şemrok Rovers"də komandanın ümumi həftəlik qazancı isə təxminən 45-50 min avro təşkil edir".

Müqayisə üçün deyək ki, "Qarabağ Futbol Klubu"nun 2024-cü ilin maliyə hesabatına əsasən, 35 milyon 613 min manat cəmi əməliyyat xərclərindən 20 milyon 648 min manatı əmək haqqı və mükafat təşkil edib.

İndi də oyunla bağlı sözü verək İrlandiya mətbuatına.

"UEFA reytinqində 65-ci yerdə qərarlaşan və ötən mövsüm Avropa Liqasının əsas mərhələsində çıxış etmiş komandaya qarşı oynamaq asan deyildi".

"Azərbaycan çempionunun avrokubok təcrübəsi özünü göstərdi – "Şelburn" ilk hissədə uzun müddət rəqibi saxlamaqda çətinlik çəkdi".

"Kaşuk və Axundzadənin oyunun sonlarında vurduğu qollar "Şelburn" üçün bir qədər ədalətsiz görünə bilərdi, amma eyni zamanda onlar səviyyə fərqini əks etdirirdi".

"Bu qol Azərbaycan çempionunun son 11 mövsümdə avrokubokların qrup mərhələsində mütəmadi oynamasına imkan verən sürət, hərəkətlilik və dəqiqlik kimi keyfiyyətlərini bir daha nümayiş etdirdi".

"Şelburn" doğrudan da özü üçün qeyri-adi olan templə üzləşdi".

"Şelburn" gələn həftə Azərbaycanda möcüzəyə ümid etməlidir".

"Futbolda az şey "Şelburn"un oyununun sonunda "Qarabağ"dan aldığı zərbə qədər sarsıdıcı ola bilər".

Bəli, "Qarabağ"ın "Şelburn"la evdəki oyunda da sərfəli nəticə əldə edib, mübarizəni 3-cü təsnifat məsələsində davam etdirəcəyi şübhə doğurmur. Orada isə rəqib daha ciddi və eyni zamanda, köhnə tanış ola bilər. "Qarabağ"ın bu ilin yanvarında UEFA Avropa Liqası çərçivəsində evdə iki dəfə hesabda öndə olmasına rəğmən, 2:3 uduzduğu FCSB - ardıcıl ikinci mövsüm Rumıniyada çempionluğu qazanmış komanda...

***Rasim MÖVSÜMOV***
***idman icmalçısı***

## İDMAN

## Ağırlıqqaldıranlarımızın 3 Avropa medalı



**Azərbaycan ağırlıqqaldıranı Musab Məmmədtağıyev İspaniyanın paytaxtı Madriddə keçirilən U-15 və yeniyetmələr arasında Avropa birinciliyində 2 qızıl, 1 gümüş medal qazanıb.**

İkinci yarış günündə Musab Məmmədtağıyev U-15 kateqoriyasında mübarizə aparıb. 56 kq çəki dərəcəsində yarışan təmsilçimiz birdənqaldırma hərəkətində 93 kq nəticə göstərərək qızıl medala sahib olub. Musab təkanla qaldırma hərəkətində də uğurla çıxış edib. O, bu dəfə 109 kq çəkini başı üzərinə qaldıraraq gümüş medala layiq görülüb.

Beləliklə, iki hərəkətin cəmində 202 kq nəticəyə imza atan atletimiz Avropa birinciliyinin qalibi adını qazanıb.

## Məhəmməd erməni cüdoçunu məğlub etdi



**Azərbaycan cüdoçusu Məhəmməd Ağakişiyev (73 kq) Makedoniyanın paytaxtı Skopyedə keçirilən XVIII Avropa Gənclər Yay Olimpiya Festivalında (EYOF) Ermənistandan olan rəqibinə ipponla qalib gəlib. Bu barədə mətbuata Milli Olimpiya Komitəsinin mətbuat xidmətindən məlumat verilib.**

Mübarizəyə 1/8 finaldan başlayan cüdoçumuz Tiqran Saruxanyanla qarşılaşıb. Rəqibinə ipponla qalib gələn M.Ağakişiyev 1/4 finala vəsiqə qazanıb.

Qeyd edək ki, daha əvvəl Amin Mehdiyev (81 kq) də 1/4 finala vəsiqə əldə edib.

## Füzulidə idman zalı



**Azərbaycan Güləş Federasiyası (AGF) tərəfindən Füzulidə yeni idman mərkəzi istifadəyə verilib. Rayonun 4-cü Qayıdış qəsəbəsində yerləşən 4 saylı məktəbin idman zalı federasiyanın dəstəyilə güləş xalçası, müxtəlif məşq və texniki avadanlıqlarla, digər zəruri idman ləvazimatları ilə təmin edilib.**

Dünən AGF tərəfindən güləş zalıyla tanışlıq həyata keçirilib. İkiqat Olimpiya mükafatçısı, üçqat dünya və dördqat Avropa çempionu, AGF-nin sərbəst güləş üzrə koordinatoru Hacı Əliyev güləş mərkəzinə baş çəkib, yeniyetmə güləşçilərlə görüşüb və onlara tövsiyələrini çatdırıb.

***M.HACIXANLI***
***XQ***

# Qusarda rəqəmsal savadlılıq təlimi



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST Rəqəmsal İnnovasiyalar Mərkəzi (DOST RİM) bölgələrdə əhalinin sosial sahə üzrə elektron xidmətlərə dair savadlılığının artırılması məqsədilə təlimlərini davam etdirir.**

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, mərkəz növbəti rəqəmsal savadlılıq təlimini Qusar rayonunda keçirib. Tədbir zamanı DOST RİM-in əməkdaşı nazirliyin sosial sahədə vətəndaşlara təqdim etdiyi rəqəmsal xidmətlərlə bağlı təqdimatla çıxış edib. Xidmətlərin əlçatanlığı və funksionallığı ilə bağlı yeniliklər diqqətə çatdırılıb. Sonra vətəndaşların sualları cavablandırılıb.

Qeyd olunan tədbirlər Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" üzrə Tədbirlər Planının müvafiq bəndinə əsasən təşkil olunur. Məqsəd regionlarda əhalinin rəqəmsallaşma istiqamətində bilik və bacarıqlarının artırılmasıdır.

***XQ***

# Abşeronda yağmursuz, bölgələrdə arabir yağış...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az çiskin olacağı ehtimalı var.**

Mülayim şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 23-27, gündüz 34-39 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan aşağı - 755 millimetr civə sütunu, nisbi rütubət isə gecə 70-80, gündüz 50-55 faiz təşkil edəcək.

Azərbaycanın əksər rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi, lakin səhərdən bəzi şimal və qərb rayonlarında arabir yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə yağışın qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi, gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman olacağı ehtimalı var. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 23-27, gündüz 33-38, dağlarda gecə 13-18, gündüz 22-26 dərəcə isti olacağı ehtimal edilir.

***Q.QASIMOV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun kollektivi fondun idarə heyətinin sədri Fəxri Kazımova atası, Milli Məclisin sabiq deputatı, iqtisad elmləri doktoru, professor

**XANHÜSEYN KAZIMLININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Xalq qəzeti"nin kollektivi iş yoldaşları Fuad Cəfərliyə dayısı

**SƏLİM PİRİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3325
SİFARİŞ 1512
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV
Çapa imzalanmışdır 00:00